RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 89 (10109) 21 may 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## İnkişaf, sabitlik və enerji diplomatiyası

### Azərbaycan yeni dünya nizamında unikal model ortaya qoyur

Bu gün Azərbaycan qlobal miqyasda söz sahibi olan qüdrətli dövlət kimi tanınır. Ölkəmizin bu cür sürətli inkişafı dünyada gedən proseslərə və müasir zamanın bütün tələblərinə cavab verir. O cümlədən sıfırdan yaratdığı modern şəhər və kəndləri ilə nümunə ortaya qoyur.

Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər bu uğurlu yolun fəlsəfəsini bir daha aydın şəkildə göstərir: "Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq... ...Hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər".

Prezidentin vurğuladığı bu misilsiz təcrübə Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı işlərdə özünü göstərir. Dağıdılmış ərazilərin bərpası, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi Azərbaycanın gələcəyə baxışının təzahürüdür. Mərhələli yanaşma və paralel inkişaf sayəsində artıq 85 min insanın Qarabağ və Şərqi Zəngəzurda yaşaması, işləməsi və təhsil alması bu böyük prosesin real nəticəsidir.

İnfrastruktur layihələri, tunellər, körpülər və xüsusilə hidroenerji güclərinin bərpası regionun gələcək onilliklər üçün enerji təhlükəsizliyini təmin edir. Azərbaycan bu addımlarla dünyaya göstərir ki, ən çətin şəraitdə belə sıfırdan müasir şəhər və kəndlərin quruculuğu mümkündür.

5

## Gələcəyin strateji hədəfi - cəsarətli və ehtiyatlı şəhərsalma




Azərbaycan Prezidenti öz nitqində tarixi faktlara toxunaraq Bakının ekoloji transformasiyasını dünya birliyinə unikal təcrübə kimi təqdim etdi, paytaxtımızın 1846-cı ildə dünyada ilk sənaye üsulu ilə neft hasil edilən məkan olduğunu xatırlatdı, 180 il ərzində ətraf mühitin qorunmasına sıfır dərəcədə riayət edildiyini, torpaq və havanın ciddi çirklənməyə məruz qaldığını vurğuladı, Bakının keçmişindəki "Qara şəhər", Bibiheybət və Böyükşor ərazilərinin acınacaqlı vəziyyətini diqqətə çatdırdı. Onu da bildirək ki, son 20 ildə həyata keçirilən ekoloji reabilitasiya siyasəti möcüzəvi dəyişikliklərə yol açıb. "Qara şəhər" tamamilə tarixin arxivinə göndərilərək dünyanın ən müasir layihələrindən birinə - "Ağ şəhər"ə çevrilib. Bibiheybət və Böyükşor əraziləri neft gölməçələrindən təmizlənərək yerində böyük yaşıl parklar, idman və istirahət zonaları salınıb. Paytaxtda son illər 100-dən çox yeni park və xiyaban istifadəyə verilib.

Dövlətimizin başçısının xarici qonaqlara bu ərazilərin keçmiş foto-video arxivləri ilə indiki mənzərəsini müqayisə etmək barədə tövsiyəsi Azərbaycanın güclü siyasi iradəsinin sübutu idi. Eyni zamanda "qara qızıl"ın insan kapitalına və yaşıl şəhərsalma modelinə transformasiyası" konsepsiyasının qlobal miqyasda nümayişi idi. Prezident İlham Əliyevin bu mötəbər beynəlxalq platformada həmin tarixi irsə əsaslanaraq verdiyi mesajlar təbii ki, mühüm əhəmiyyət kəsb edirdi. Qeyd edək ki, Bakı şəhərinin memarlıq simasının məhz XIX əsrin ortalarındakı o ilk quyudan sonra başlayan "neft bumu" sayəsində formalaşdığı bir həqiqətdir.

5

## Nümunəyə çevrilən təcrübə

Zəngin tarixi irslə müasirliyin möhtəşəm harmoniyasını yaradan ölkəmiz öz uğurlarını və modern konsepsiyasını dünya ilə bölüşür

6



## Milli ornamentlərlə əhatələnən forum

Forumun keçirildiyi ilk gündən etibarən paytaxtımız tamamilə fərqli bir ab-havaya bürünüb. Şəhərin müxtəlif nöqtələrində yerləşdirilən forum simvolları, beynəlxalq nümayəndə heyətlərinin intensiv hərəkəti, müxtəlif dillərdə danışan insanların gəzintisi Bakının qlobal dialoq məkanına çevrildiyini hiss etdirir. Tədbirin əsas ünvanlarından biri olan Bakı Olimpiya Stadionu ətrafına yaxınlaşdıqca isə forumun miqyası daha aydın görünür. Stadionun ətrafında yaradılan xüsusi infrastruktur, təhlükəsizlik tədbirləri, böyük media platformaları və beynəlxalq pavilyonlar burada dünyanın ən böyük şəhərsalma tədbirlərindən birinin keçirildiyini nümayiş etdirir.




Forum məkanına daxil olan ziyarətçiləri ilk olaraq Azərbaycanın milli-mədəni irsini əks etdirən dekorativ elementlər qarşılayır. Ərazidə istifadə olunan vizual konsepsiya qədim milli ornamentlərlə müasir memarlıq estetikasını birləşdirir. Giriş hissəsindən başlayaraq, buta naxışlı dekorlar, xalça motivləri, milli ornamentli pərdələr və Azərbaycan mədəniyyətinə aid simvollar diqqəti cəlb edir. Burada məqsəd yalnız beynəlxalq tədbir keçirmək deyil, həm də ölkənin zəngin tarixini, mədəniyyətini və milli kimliyini xarici qonaqlara təqdim etməkdir.

8

## Türk dünyasının rəqəmsal gələcəyi

### Bu, TDT-nin Türküstan Zirvə görüşündə aydın görünən hədəf idi

Azərbaycanın TDT məkanında rəqəmsal transformasiya prosesinə sanballı töhfə verdiyini, ortaq texnoloji və iqtisadi gələcəyin formalaşmasında mühüm rol oynadığını bir daha ortaya qoyur. Nəqliyyat əlaqələri Azərbaycanla Mərkəzi Asiya arasında çoxşaxəli münasibətlərin uzunmüddətli inkişafının əsas prioritetlərindən biri olduğunu deməyə əsas verir. Zəngəzur dəhlizinin (TRIPP) açılması isə inkişaf perspektivlərini, qarşılıqlı münasibətləri daha da gücləndirəcək. Dəhliz daşımaların həcm və intensivliyini artırmaqla iqtisadi münasibətləri inkişaf etdirəcək, üstəlik, TDT üzvləri arasında birbaşa bağlantını təmin etməklə mədəni-siyasi-strateji bağlantıları daha da möhkəmləndirəcək.



Zirvə görüşündə Prezident İlham Əliyev cari reallıqların, mövcud geosiyasi vəziyyəti və TRIPP-ın əhəmiyyətini xeyli artırdığını vurğulayıb. Başqa sözlə desək, Orta dəhliz, eləcə də bu dəhlizin aparıcı bir komponentinə çevrilən Zəngəzur dəhlizi (TRIPP) TDT üzvləri arasında nəqliyyat əlaqələrinin inkişafını gücləndirəcək ki, bu da qarşılıqlı münasibətlərin və inteqrasiyanın xeyli dərəcədə genişlənməsinə yol açacaq.

10

## Ermənistan münasibətlərin normallaşması və əməkdaşlıq yolunu seçməsə...

### Vəziyyəti daha da acınacaqlı olacaq

Ermənistandakı seçki təşviqatında diqqətçəkən əsas məqamlardan biri də Paşinyanın özünü "sülh gündəliyinin tərəfdarı" kimi təqdim etməsidir. Ermənistan rəhbərliyi anlayır ki, regionda davamlı sabitlik və iqtisadi dirçəliş Azərbaycanla münasibətlərin normallaşmasından keçir. Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması, kommunikasiya xətlərinin bərpası Ermənistan üçün iqtisadi baxımdan həyati əhəmiyyət daşıyır. Paşinyan komandası da məhz bu reallığı cəmiyyətə qəbul etdirməyə çalışır. Lakin Ermənistan daxilində siyasi vəziyyət hələ də kifayət qədər həssasdır. Kilsə, müxalifət və bəzi xarici təsir mərkəzləri hakimiyyətə qarşı təzyiqləri davam etdirir. Son aylarda küçə aksiyalarının intensivləşməsi, hökumət əleyhinə çağırışların artması və cəmiyyətdəki narazılıq göstərir ki, seçki prosesi gərgin keçəcək. Xarici təzyiqlərə gəlincə isə, rəsmi İrəvan bir tərəfdən, Qərbə yaxınlaşmağa çalışır, digər tərəfdən də, Rusiyadan tam uzaqlaşa bilmir. Ermənistanın 2 stulda oturmaq niyyəti ölkə daxilində də fikir ayrılığı yaradır.



3

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il iyulun1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2026-cı il*

# Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan metrologiya sahəsinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxsin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Bayramov Elnur Üzeyir oğlu
Bayramov Rasim Əhməd oğlu
Əzizov Əziz Məhəmməd oğlu
Həsənov Ramiz Qaroğlan oğlu
Qurbanov Azər Tengiz oğlu
Musayeva Şəhla Ziyəddin qızı
Osmanov Çingiz Məsim oğlu
Şirinov Namiq Paşa oğlu
Şirinova Mehriban Ramiz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2026-cı il*

# Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsinin təkmilləşdirilməsi və "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən göstərilən xidmətlərin tariflərini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti təsdiq edir;

1.2. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən yeni tariflər təsdiq edilənədək onun göstərdiyi xidmətlərin mövcud tarifləri öz hüquqi qüvvəsini saxlayır.

2. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 432 (Cild I); 2025, № 5, maddə 446) 2.5-ci bəndində "Respublikasının Tarif (qiymət) Şurası" sözləri "Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 1.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq göstərdiyi xidmətlərin tariflərini dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 153** **Bakı şəhəri, 20 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 328-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211 (Cild I); 2025, № 12 (II kitab), maddə 1257; 2026, № 1, maddə 84, № 2, maddə 196) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.25.3-cü yarımbəndinin birinci cümləsindən "6 ay" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Dəmiryol nəqliyyatı vasitəsilə sərnişinlərin Azərbaycan Respublikasına giriş-çıxışı ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 154** **Bakı şəhəri, 20 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki, 2026-cı il 25 may saat 00:00-dan dəmiryol nəqliyyatı vasitəsilə Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycana vizasız gəlmə hüququ olan bütün xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikası ilə Gürcüstan arasında giriş-çıxışına icazə verilir.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295, № 6, maddə 600, № 9, maddə 875, № 12 (II kitab), maddə 1252; 2026, № 3, maddə 282) 1.1.1-ci yarımbəndinə "daşımaları" sözündən sonra "və dəmiryol nəqliyyatı vasitəsilə Azərbaycan Respublikası ilə Gürcüstan arasında sərnişin daşımaları" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) Şura iclası və 60-cı plenar iclasında iştirak etmək məqsədilə Rusiya Federasiyasına işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sankt-Peterburq şəhərinin "Pulkovo 3" Hava Limanında spiker Sahibə Qafarovanı Sankt-Peterburq şəhərinin Xarici əlaqələr komitəsinin sədr müavini, Xarici İqtisadi Əməkdaşlıq İdarəsinin rəisi Nizami Mamişev, MDB PA Şurasının baş katibi Dmitri Kobitski, Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev, Milli Məclisin MDB PA-dakı səlahiyyətli nümayəndəsi Aydın Cəfərov, Azərbaycanın Sankt-Peterburq şəhərindəki baş konsulu vəzifəsini icra edən Anar Yusifzadə və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Aİ-nin Avropa Xarici Fəaliyyət Xidmətinin rəsmisi ilə regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb

**Mayın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Avropa Xarici Fəaliyyət Xidmətinin siyasi direktoru və siyasi məsələlər üzrə Baş katibinin müavini Olaf Skuqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-Avropa İttifaqı münasibətlərinin cari vəziyyəti və perspektivləri, regional təhlükəsizlik məsələləri, postmünaqişə dövründə mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, habelə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər müzakirə olunub.

Tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi dialoqun və müxtəlif istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu çərçivədə enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları, "yaşıl enerji" və digər sahələrdə tərəfdaşlığın daha da genişləndirilməsi üçün mövcud potensial diqqətə çatdırılıb.

Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rol və bu çərçivədə verdiyi töhfələr yüksək qiymətləndirilib, bərpaolunan enerji mənbələri, enerji səmərəliliyi və elektrik enerjisi ixracı sahəsində həyata keçirilən layihələr nəzərdən keçirilib.

Regionumuzun nəqliyyat-kommunikasiya potensialının artırılması və şaxələndirilməsi məqsədilə mövcud marşrutlar üzrə infrastruktur imkanlarının genişləndirilməsi və yeni marşrutların yaradılması istiqamətində atılan addımların əhəmiyyəti qeyd edilib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında yeni ikitərəfli saziş və Tərəfdaşlıq Prioritetləri sənədi üzrə aparılan danışıqlar barədə fikir mübadiləsi aparılıb.

Tərəflər regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində aparılan səyləri müzakirə edib, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsi məsələləri nəzərdən keçirilib. Bərpa və yenidənqurma işləri, eləcə də mina təhdidi barədə qarşı tərəfə məlumat verilib. Olaf Skuq öz növbəsində işğaldan azad edilmiş ərazilərə səfər təəssüratlarını bölüşüb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

# Azərbaycanın D-8 üzvlüyünə qəbul edilməsindən sonra təşkilat daxilində apardığı fəaliyyət yüksək qiymətləndirilib

**Mayın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Baş katibi Sohail Mahmud ilə görüşüb. Baş katib iştirakçısı olduğu Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) yüksək səviyyədə təşkilinə və bu çərçivədə faydalı müzakirələrə görə təşəkkür edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə D-8 arasında mövcud əməkdaşlıq gündəliyi müzakirə edilib, siyasi, iqtisadi, energetika, nəqliyyat və logistika sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi imkanları nəzərdən keçirilib.

Azərbaycanın D-8 üzvlüyünə qəbul edilməsindən sonra keçən qısa müddət ərzində təşkilat daxilində apardığı aktiv fəaliyyət yüksək qiymətləndirilib, 2025-ci ilin oktyabr ayında Azərbaycanda ilk dəfə olaraq D-8 Həftəsinin təşkili, bu çərçivədə D-8 Enerji və İqlim Mərkəzi, D-8 Media Mükəmməllik Mərkəzi və D-8 Nəqliyyat Mükəmməllik Mərkəzinin ölkəmizdə yaradılması ilə bağlı atılan əməli addımlar məmnunluqla xatırlanıb. Bu istiqamətdə görülən işlər barədə fikir mübadiləsi aparılıb.

Ümumilikdə siyasi və iqtisadi cəhətdən mühüm ölkələri, 1,3 milyarda yaxın əhalini və 5 trilyon ÜDM-i birləşdirən D-8-in nüfuzunun daha da artırılması istiqamətində birgə səylərin vacibliyi vurğulanıb.

Görüşdə həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri nəzərdən keçirilib, Yaxın Şərqdə gərginliyin azaldılması, atəşkəsin möhkəmləndirilməsi, sabitliyin təmin olunmasının vacibliyi qeyd edilib.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokuror Xankəndi şəhərində vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Mayın 20-də baş prokuror Kamran Əliyev Xankəndi Şəhər Prokurorluğunun inzibati binasında Xankəndi şəhər, Ağdərə, Xocalı, Xocavənd və Şuşa rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror Ümummilli Lider Heydər Əliyevin inzibati binada yerləşən barelyefi qarşına gül dəstələri qoyub, dahi liderin əziz xatirəsini dərin ehtiramla yad edib.

Qəbulda iştirak etmiş 16 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Qəbuldan sonra prokurorluq əməkdaşları Xankəndi şəhərində salınan Zəfər Parkını, park ərazisində inşa edilən Zəfər Tağını ziyarət ediblər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

# Latviya Yerli Hakimiyyətlər Assosiasiyasının nümayəndələri Milli Məclisdə olublar



**Mayın 20-də Milli Məclisdə Latviya Yerli Hakimiyyətlər Assosiasiyasının nümayəndələri ilə görüş keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə BMT-nin Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) əhəmiyyəti, şəhərsalma və regional inkişaf sahəsində beynəlxalq əməkdaşlıq, yerli özünüidarəetmə sahəsində təcrübə mübadiləsi məsələləri barədə fikir mübadiləsi aparılıb.

Qonaqları Milli Məclisin Latviya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamran Bayramov salamlayaraq, onların WUF13-də iştirakını yüksək qiymətləndirib. Bildirilib ki, forum vasitəsilə Bakı qlobal urbanizasiya gündəliyinə mühüm töhfə verir. Həmçinin qeyd olunub ki, Azərbaycan ilə Latviya arasında mövcud dostluq münasibətləri parlament ölçüsündə də uğurla inkişaf edir.

Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Latviya Yerli Hakimiyyətlər Assosiasiyasının sədri Gints Kaminskis, Riqa şəhərinin vitse-meri Maris Sprincuks, Yekapbils şəhərinin meri Raivis Raqainis çıxış edərək, urban inkişaf sahəsində beynəlxalq tərəfdaşlıq, Azərbaycan ilə Latviya arasında yerli özünüidarəetmə sahəsində əməkdaşlığın perspektivləri barədə fikirlərini bölüşüblər.

Görüşdə bələdiyyələrin birləşməsi yolu ilə konsolidasiyası, yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin gəlirlərinin optimallaşdırılması, regionların balanslı inkişafının təmin edilməsi, əhali məskunlaşması və demoqrafik proseslərin yerli özünüidarəetməyə təsiri, mərkəzlərlə periferiyalar arasında bələdiyyə xidmətlərinin əlçatanlığı məsələləri ətrafında müzakirələr aparılıb.

Tədbirdə Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Latviya Seyminin Regional idarəetmə və dövlət idarəçiliyi komitəsinin sədri, Seymin Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Oleq Burovs, Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya və digər şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# WUF13-də media şəhər dayanıqlılığı və mənzil siyasətində əsas ictimai kommunikasiya vasitəsi kimi dəyərləndirilib

**Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilati dəstəyi ilə "Media İnkişaf Mərkəzi (MİM)" İctimai Birliyi tərəfindən "Urban dayanıqlılıq və mənzilləşmə ilə bağlı ictimai müzakirədə media hərəkətverici qüvvə kimi" mövzusunda tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir yenidənqurma mövzusunda hazırlanan videoçarxın nümayişi ilə başlayıb.

Sonra "Media İnkişaf Mərkəzi" İctimai Birliyinin rəhbəri Qabil Rüstəmov hazırda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirdiyi "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrinin, "yaşıl enerji" və müasir şəhərsalma həllərinin əhəmiyyətli nümunə olduğunu deyib.

O qeyd edib ki, media inklüziv urbanizasiya, "yaşıl infrastruktur" və davamlı inkişaf siyasətinin təşviqində mühüm rol oynayır.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Rizvan Nəbiyev müasir medianın yalnız məlumat mənbəyi olmadığına diqqət çəkib: "O, eyni zamanda beynəlxalq kommunikasiya və milli maraqlar üçün hərəkətverici qüvvədir. Xüsusilə şəhərlərdə, yaşayış məskənlərində davamlılığın, dayanıqlılığın artırılması üçün olduqca önəmli aktordur".

COP29-un iqlim üzrə yüksəksəviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai bildirib ki, şəhərlər hər zaman iqtisadi tərəqqinin göstəriciləri olub: "Təbii ki, burada media xüsusi vasitəçi rolunu oynayır. Yəni biz bərabər, sürətli informasiya mübadiləsi aparmalıyıq".

Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media ixtisasının müəllimi Şəfəq Mehrəliyeva çıxışında WUF13 kimi beynəlxalq platformaların şəhərsalma, dayanıqlı inkişaf və urbanizasiya məsələlərinin ictimai müzakirəsində mühüm rol oynadığını bildirib. Qeyd olunub ki, belə qlobal təşəbbüslərin cəmiyyətə düzgün çatdırılmasında media peşəkarlığı, rəqəmsal kommunikasiya və keyfiyyətli ictimai məlumatlandırma xüsusi əhəmiyyət daşıyır.

Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov isə şəhərsalma və dayanıqlı inkişaf mövzularının ictimaiyyətə düzgün çatdırılmasında medianın rolundan danışıb. Bildirilib ki, urbanizasiya, iqlim dəyişiklikləri və şəhər dayanıqlılığı ilə bağlı məsələlərin peşəkar və məsuliyyətli şəkildə işıqlandırılması müasir informasiya mühitində vacib faktordur.

"Ikua4change" təşkilatının həmtəsisçisi, Perunun İctimai Siyasət və Diplomatiya İnstitutunun direktoru Blanca Mujica Acuna Judith, Nigeriyanın Beynəlxalq İqlim Dəyişikliyi İnkişaf Təşəbbüsünün həmtəsisçisi Olumide İdovu Emmanuel və "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri Ayaz Mirzəyev tədbirdə şəhər dayanıqlılığı, mənzil siyasəti, iqlim çağırışları və ictimai kommunikasiya məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, WUF13 çərçivəsində keçirilən "Mənzil və şəhər dayanıqlılığı üzrə ictimai müzakirənin formalaşmasında medianın rolu" mövzulu tədbirdə "Dayanıqlı şəhər inkişafı və medianın roluna dair" bəyanat qəbul edilib.

# "Dirçəliş və urbisid: Dayanıqlı şəhərsalma və davamlı icmalar"

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində mayın 20-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə "Dirçəliş və urbisid: Dayanıqlı şəhərsalma və davamlı icmalar" adlı beynəlxalq panel sessiya keçirilib.**






AZƏRTAC xəbər verir ki, BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluğu ilə təşkil olunan tədbirə dövlət və hökumət nümayəndələri ilə yanaşı, ekspertlər, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, bu sahə üzrə dünyanın aparıcı universitet və şirkətlərindən ixtisaslaşmış mütəxəssislər qatılıblar.

Əvvəlcə işğaldan azad olunmuş ərazilərin əvvəlki vəziyyətini və sonrakı bərpa prosesini əks etdirən görüntülər nümayiş etdirilib.

Sonra çıxış edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev urbisid anlayışının beynəlxalq hüquq və təhlükəsizlik kontekstində daha geniş tanınmasının vacibliyini vurğulayıb. O, urbisid fenomenini müharibə şəraitində şəhərlərin və yaşayış məkanlarının məqsədli şəkildə dağıdılması, onların sosial-mədəni kimliyinin silinməsi və əhalinin geri dönüş imkanlarının aradan qaldırılması kimi xarakterizə edib.

Fərid Şəfiyev diqqətə çatdırıb ki, Qarabağda baş verən urbisid digər nümunələrdən fərqlənərək hərbi əməliyyatlardan sonra sistemli şəkildə həyata keçirilib və məqsəd yalnız şəhərlərin dağıdılması deyil, həm də azərbaycanlı əhalinin həmin ərazilərə qayıdışının qarşısını almaq, bölgənin mədəni yaddaşını və tarixi kimliyini silmək olub. O, ATƏT-in 2005-ci il Faktaraşdırıcı Missiyasının hesabatına istinad edərək Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan və digər rayonların tamamilə dağıdıldığını, yaşayış məntəqələrinin talan edildiyini və tikinti materiallarının belə sökülərək aparıldığını qeyd edib. Bildirilib ki, urbisidin əsas göstəriciləri kimi fiziki dağıntı, etnik təmizləmə və şəhərlərin mədəni kimliyinin dəyişdirilməsidir. Xüsusilə Laçın və Kəlbəcərin Ermənistan üçün strateji əhəmiyyət daşıdığı və bu ərazilərdə məskunlaşdırma siyasətinin həyata keçirildiyi diqqətə çatdırılıb. BMTM-in rəhbəri, həmçinin urbisidin "əlavə zərər" deyil, siyasi və ideoloji məqsədlərlə həyata keçirilən idarəetmə strategiyası olduğunu, şəhər məkanlarının məhv edilməsinin yeni nəzarət və hakimiyyət formalarının qurulmasına xidmət etdiyini deyib.

Paneldə çıxış edən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev deyib ki, son illərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. İşğal dövründə yüz minlərlə insan öz doğma yurdlarından didərgin salınıb, yaşayış məskənləri, mədəni və dini abidələr dağıdılıb, bölgənin tarixi və mənəvi kimliyini məhv etməyə cəhd göstərilib.

O vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma prosesində ən böyük çətinlik mina problemi olub.

"ANAMA-nın fəaliyyəti nəticəsində minatəmizləmə işləri sürətləndirilib və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb", - deyə Vahid Hacıyev qeyd edib.

Digər çıxış edənlər - London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində (LSE) coğrafiya və ətraf mühit üzrə qonaq tədqiqatçı Din Şarp, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin azad edilmiş ərazilərdə layihə idarəetməsi üzrə şöbə müdiri Ramil Cahangirov, İsveçrədə Cenevrə Universitetinin baş müəllimi Aleksandr Hecazi, İsveçrədə "Drees & Sommer" şirkətində İnteqrasiya olunmuş Şəhər Həlləri üzrə direktor Haris Piplas və Almaniyanı təmsil edən mədəni irs strategiyası və mədəni turizm üzrə mütəxəssis Dalya Altuntepe bildiriblər ki, müasir dövrdə urbisidin müharibə aləti kimi istifadəsi şəhərlərin sosial-iqtisadi inkişafına və dayanıqlılığına ciddi zərbə vurur. Onların sözlərinə görə, münaqişələr zamanı şəhərlərin, yaşayış məntəqələrinin, mühüm infrastruktur obyektlərinin və mədəni irs nümunələrinin məqsədli şəkildə dağıdılması yalnız fiziki mühitə deyil, həm də cəmiyyətin sosial strukturuna və tarixi yaddaşına ağır təsir göstərir.

Çıxışlarda vurğulanıb ki, Qarabağ və ətraf bölgələrdə baş verən dağıntılar bunun bariz nümunəsidir. Şəhərlərin və kəndlərin viran qoyulması, infrastrukturun məhv edilməsi və mədəni irs abidələrinin dağıdılması regionun uzun illər ərzində inkişaf imkanlarını məhdudlaşdırıb.

Bildirilib ki, ekoloji zərər və genişmiqyaslı mina çirklənməsi azad edilmiş ərazilərdə həyatın bərpası prosesində əsas çağırışlardan biridir. Bu amillər ərazilərin təhlükəsizliyinə birbaşa təsir göstərməklə yanaşı, onların uzunmüddətli yaşayış üçün yararlılığını da azaldır.

Məruzəçilər Azərbaycanın azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işlərinin beynəlxalq təcrübə ilə uzlaşdırılmasının vacibliyini qeyd edərək, bu prosesdə innovativ yanaşmaların tətbiqinin önəmini diqqətə çatdırıblar.

Eyni zamanda Qarabağ və ətraf bölgələr üçün strateji planlaşdırmanın həyata keçirilməsi, gələcəyə yönəlmiş məkan inkişafı konsepsiyalarının hazırlanması və müasir urbanizasiya tendensiyalarının nəzərə alınmasının vacibliyi vurğulanıb.

Bundan əlavə, "Ağıllı şəhər" modelləri, rəqəmsal infrastrukturun inkişafı və bərpaolunan enerji zonalarının yaradılması kimi müasir yanaşmaların regionun dayanıqlı inkişafında mühüm rol oynayacağı bildirilib.

Beləliklə, müzakirələr urbisid, postmünaqişə dövründə şəhərlərin bərpası və Azərbaycanın yenidənqurma təcrübəsinin beynəlxalq səviyyədə təhlili üçün mühüm platforma rolunu oynayır.

# Şəhər idarəçiliyində məlumat əsaslı strategiyalar və rəqəmsal dönüşüm nəzərdən keçirilib

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan "İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı - Şəhərləri daha yaxşı məlumatlarla gücləndirmək: siyasət və qərar qəbulu üçün əlçatan və tətbiq edilə bilən məlumatlar" adlı sessiyada şəhərlərin dayanıqlı inkişafı, rəqəmsal transformasiya və məlumat əsaslı idarəetmə məsələləri müzakirə olunub.**




AZƏRTAC xəbər verir ki, sessiyada çıxış edən beynəlxalq ekspertlər, şəhər rəhbərləri və maliyyə institutlarının nümayəndələri müasir dövrdə açıq və etibarlı məlumatların şəhər idarəçiliyində həlledici rol oynadığını bildiriblər.

Azərbaycan Respublikasının Kosmik Agentliyinin Coğrafi İnformasiya Sistemləri (CİS) Mərkəzinin direktoru İsmət Baxışov qeyd edib ki, hazırda əsas məsələ məlumatın mövcudluğu deyil, həmin məlumatlardan düzgün istifadə olunmasıdır. Onun sözlərinə görə, "Platera" adlı GeoAI əsaslı platforma vasitəsilə şəhər ərazilərində dəyişikliklərin monitorinqi, bina konturlarının müəyyən edilməsi, yaşıllıq sahələrinin və su ehtiyatlarının vəziyyətinin qiymətləndirilməsi mümkündür.

İ.Baxışov bildirib ki, "Climate Report AZ" platforması çərçivəsində su ehtiyatları, kənd təsərrüfatı, meşə sahələri və Xəzər dənizində su səviyyəsinin dəyişməsi ilə bağlı dinamik məlumatlar təqdim olunur. O vurğulayıb ki, platforma vasitəsilə su səviyyəsinin azalması ilə bağlı mümkün riskləri əvvəlcədən proqnozlaşdırmaq mümkündür.

Türkiyənin Qaziantep şəhərinin bələdiyyə sədri Fatma Şahin çıxışında şəhərlərin dayanıqlılığının artırılması üçün rəqəmsal transformasiya və məlumat əsaslı qərar qəbuletmənin vacibliyini vurğulayıb. O bildirib ki, iqlim dəyişiklikləri və təbii fəlakətlər fonunda yüksək texnologiyalara əsaslanan idarəetmə sistemləri xüsusi əhəmiyyət daşıyır.

Avropa Kosmik Agentliyinin "yaşıl keçid" üzrə məlumat tətbiqləri alimi Françeska Elisa Leonelli isə qeyd edib ki, yer müşahidəsi texnologiyalarından istifadə edən şəhərlərin təcrübə mübadiləsi digər şəhərlər üçün mühüm nümunə rolunu oynayır və məlumat əsaslı idarəetmənin genişlənməsinə töhfə verir.

Tom de Qruv bildirib ki, açıq və müqayisə edilə bilən məlumat bazaları fəlakət risklərinin qiymətləndirilməsi və erkən xəbərdarlıq sistemlərinin qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, "Global Human Settlement Layer" kimi qlobal məlumat bazaları urbanizasiya və risklərin idarə olunması sahəsində geniş istifadə olunur.

Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal isə məlumatların düzgün idarə olunmasının şəhər planlaşdırılması və infrastruktur investisiyalarında əsas rol oynadığını diqqətə çatdırıb. O qeyd edib ki, Yer müşahidəsi məlumatları qeyri-formal yaşayış məntəqələrinin müəyyənləşdirilməsi, riskli ərazilərin qiymətləndirilməsi və erkən xəbərdarlıq sistemlərinin qurulması üçün mühüm vasitədir.

Sessiyada vurğulanıb ki, məlumatların açıq, əlçatan və inteqrasiya olunmuş şəkildə istifadəsi şəhərlərin daha dayanıqlı, təhlükəsiz və inklüziv inkişafına mühüm töhfə verir.

# Ermənistan münasibətlərin normallaşması və əməkdaşlıq yolunu seçməsə...

## Vəziyyəti daha da acınacaqlı olacaq

**Ermənistanda seçkiöncəsi gərginlik müşahidə olunur. Seçki təşviqatının başlanması ilə ölkədə hakimiyyət uğrunda mübarizə yeni mərhələyə qədəm qoyub. Baş nazir Nikol Paşinyan və onun komandası bir tərəfdən hakimiyyəti qorumağa çalışırsa, digər tərəfdən də revanşistlər onu zəiflətmək üçün bütün imkanlarını səfərbər edir.**



Milli Məclisin deputatı Könül Nurullayeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, əslində, bu seçkilər Ermənistanın gələcək siyasi kursunun müəyyənləşdirilməsi baxımından ciddi əhəmiyyət daşıyır: "Ümumiyyətlə, Ermənistan cəmiyyətində dərin siyasi və psixoloji böhran hökm sürür. 2020-ci ildə 44 günlük müharibədəki məğlubiyyəti, yaranmış yeni geosiyasi reallıq Ermənistan daxilində siyasi parçalanmanı daha da dərinləşdirib. Paşinyan hakimiyyəti hazırda daxili və xarici təzyiqlərlə üz-üzədir. Bununla belə, cəmiyyət radikalları qəbul etmir. Uzun illər ölkəni idarə etmiş keçmiş hərbi və siyasi qüvvələr korrupsiya, oliqarxiya sistemi, ölkəni dalana aparan fəaliyyət ilə yadda qaldığı üçün onların sosial dayaqları güclü deyil. Lakin buna baxmayaraq, revanşist ritorika Ermənistanda hələ də müəyyən təsir gücünə malikdir. Xüsusilə radikal millətçi dairələr Paşinyanı "təslimçi siyasət" aparmaqda ittiham edir və onu zəiflətməyə çalışırlar".

Deputat qeyd edib ki, Ermənistandakı seçki təşviqatında diqqətçəkən əsas məqamlardan biri də Paşinyanın özünü "sülh gündəliyinin tərəfdarı" kimi təqdim etməsidir. Ermənistan rəhbərliyi anlayır ki, regionda davamlı sabitlik və iqtisadi dirçəliş Azərbaycanla münasibətlərin normallaşmasından keçir. Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması, kommunikasiya xətlərinin bərpası Ermənistan üçün iqtisadi baxımdan həyati əhəmiyyət daşıyır. Paşinyan komandası da məhz bu reallığı cəmiyyətə qəbul etdirməyə çalışır. Lakin Ermənistan daxilində siyasi vəziyyət hələ də kifayət qədər həssasdır. Kilsə, müxalifət və bəzi xarici təsir mərkəzləri hakimiyyətə qarşı təzyiqləri davam etdirir. "Son aylarda küçə aksiyalarının intensivləşməsi, hökumət əleyhinə çağırışların artması və cəmiyyətdəki narazılıq göstərir ki, seçki prosesi gərgin keçəcək. Xarici təzyiqlərə gəlincə isə, rəsmi İrəvan bir tərəfdən, Qərbə yaxınlaşmağa çalışır, digər tərəfdən də, Rusiyadan tam uzaqlaşa bilmir. Ermənistanın 2 stulda oturmaq niyyəti ölkə daxilində də fikir ayrılığı yaradır. Cəmiyyətdə artıq belə bir anlayış formalaşıb ki, ölkə uzun illər yanlış geosiyasi hesablamaların nəticəsində həm iqtisadi, həm də təhlükəsizlik baxımından ciddi problemlərlə üzləşib", - deyə o əlavə edib.

K.Nurullayevanın sözlərinə görə, əsas reallıq isə odur ki, Ermənistan əvvəlki siyasi ritorika ilə davam edə bilməz. 44 günlük müharibədən sonra region dəyişib və yeni reallıqlar formalaşıb. Bu reallıqları qəbul edən siyasi qüvvələrin üstünlük qazanmaq ehtimalı daha yüksəkdir. Paşinyan isə cəmiyyəti keçmişlə gələcək arasında seçim etməyə çağırır. Ümumiyyətlə, Ermənistanda qarşıdakı dövr siyasi baxımdan olduqca həlledici mərhələdir. Ölkə regionda əməkdaşlıq və normallaşma yolunu seçməsə, yenidən revanşist ritorikanın təsiri altında daha acınacaqlı vəziyyətlə üzləşəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Leyla Əliyevanın təşəbbüsü ilə WUF13-də təmiz hava və dayanıqlı şəhərsalma məsələləri müzakirə olunub

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və "Clean Air Fund" (CAF) təşkilatının tərəfdaşlığı ilə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Yeni şəhər gündəliyində həyat nəfəsi: Davamlı şəhərlər üçün hava keyfiyyəti və yaşıl infrastrukturun inteqrasiyası" mövzusunda yüksəksəviyyəli forum təşkil olunub.**










AZƏRTAC xəbər verir ki, forumun açılışında Leyla Əliyevanın tədbir iştirakçılarına ünvanladığı müraciət səsləndirilib. Leyla Əliyeva müraciətində qeyd edib ki, hava keyfiyyəti şəhər sakinlərinin sağlamlığı, rifahı və gələcək nəsillər üçün təhlükəsiz yaşayış mühitinin təmin olunması baxımdan mühüm əhəmiyyət kəsb edir. Bildirilib ki, təmiz hava məsələsi müasir şəhərsalma gündəliyinin prioritetlərindən birinə çevrilməlidir. Həmçinin IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən fəaliyyətlər, "Bizim Həyət" layihəsi çərçivəsində həyət sahələrinin abadlaşdırılması, eləcə də ağacəkmə, maarifləndirmə və dayanıqlı nəqliyyatın təşviqi istiqamətində görülən işlər barədə məlumat verilib. Hava çirklənməsinin azaldılması, daha yaşıl, dayanıqlı və insanyönümlü şəhərlərin qurulması üçün beynəlxalq səylərin vacibliyi iştirakçıların diqqətinə çatdırılıb.

Tədbirin rəsmi hissəsində çıxış edən BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktorunun müavini Elizabet Maruma Mrema, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Azərbaycandakı Ölkə Proqramının rəhbəri Anna Soave, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparat rəhbərinin müavini Gülşən Rzayeva, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva və CAF-ın nümayəndəsi Sesiliya Vaka Cons çıxışlarında şəhərlərdə hava çirklənməsinin azaldılmasının insan sağlamlığının qorunması, iqlim dayanıqlılığının gücləndirilməsi və daha keyfiyyətli yaşayış mühitinin yaradılması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Daha sonra tədbir panel müzakirələri ilə davam edib. IDEA İctimai Birliyinin eksperti Elnur Səfərov, UNEP-in regional əlaqələndiricisi Mahir Əliyev, Ümumdünya Səhiyyə Təşkilatının Avropa ofisinin proqram meneceri Dorota Yaroşinska, CAF-ın "Breathe Cities" təşəbbüsünün nümayəndəsi Manuel Truhilyo və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İqlim siyasəti sektorunun müdiri Fuad Hümbətov şəhərlərdə hava keyfiyyətinin yaxşılaşdırılması, ekoloji çağırışların həlli və insan sağlamlığına təsirlərin azaldılması istiqamətində beynəlxalq təcrübə və praktiki yanaşmaları müzakirə ediblər.

Tədbirin yekununda "Nəfəs alan şəhərlər naminə Bakı Çağırışı" adlı kommünike qəbul olunub. Kommünikedə təmiz havanın müasir şəhərsalmanın əsas prinsiplərindən biri kimi tanınması, gələcək Ümumdünya Şəhərsalma forumlarının gündəliyinə daimi mövzu olaraq daxil edilməsi, eləcə də şəhər planlaşdırılması, nəqliyyat, mənzil siyasəti, "yaşıl infrastruktur" və ictimai sağlamlıq sahələrində daha sıx əməkdaşlığın təşviq edilməsinə çağırışlar öz əksini tapıb.

Qeyd edək ki, yüksəksəviyyəli forum çərçivəsində, həmçinin "Clean Air Fund", UNEP və digər tərəfdaşların müxtəlif vizual materialları, eləcə də "Children's Eyes on Earth" beynəlxalq fotoqrafiya layihəsinin iştirakçılarının işlərindən ibarət sərgi təqdim olunub.

# Ümumdünya Şəhərsalma Forumunda "Bakı Şəhərsalma Mükafatı"nın təsis olunduğu elan edilib

## *UN-Habitat rəsmisi:* "Bakı bu qlobal mükafatın təqdim olunması üçün ən doğru məkandır"

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Hökuməti və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) dayanıqlı şəhər inkişafı sahəsində yeni qlobal mükafat - "Bakı Şəhərsalma Mükafatı" təsis edib.**





AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax WUF13-dəki yeniliklərin, burada real həyat nümunələri ilə nümayiş etdirilən təcrübələr toplusunun, həmçinin yeni təsis edilən "Bakı Şəhərsalma Mükafatı"nın ümumi səylərin davam etdirilməsinə mühüm töhfə verəcəyini bildirib.

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev "Bakı Şəhərsalma Mükafatı"nın əksər hallarda bir-birindən ayrı şəkildə fəaliyyət göstərən üç mühüm amili əlaqələndirmək məqsədi daşıdığını bildirib: "Bura birincisi, təcrübə - merlərin və mütəxəssislərin artıq işləyib hazırladığı real həll yolları; ikincisi, bilik - bu həllərin effektivliyinə dair ciddi sənədləşdirmə və üçüncüsü, siyasət - qazanılmış təcrübənin hökumətlər, beynəlxalq qurumlar, eləcə də Qlobal Şəhərsalma Gündəliyi tərəfindən tətbiqi daxildir. Mükafatın hər bir mərhələsi, sadəcə, təltifetmə mərasimi ilə yekunlaşmayacaq, öyrənmə, potensialın gücləndirilməsi və təcrübənin yenidən tətbiqi üçün fəal dəstək mexanizmləri ilə davam etdiriləcək. Bu mükafat yalnız uğurlu həll yollarını təqdir etmək deyil, həm də onların miqyasını genişləndirmək məqsədi daşıyır".

Tədbirə ünvanladığı videomüraciətində tanınmış britaniyalı memar Norman Foster şəhər merləri, yerli idarəetmə orqanlarının rəhbərləri və vətəndaş cəmiyyəti liderlərinin "Bakı Şəhərsalma Mükafatı"nın əsas fəlsəfəsini təşkil edən dayanıqlı şəhərsalma və mənzil təminatı vasitəsilə müsbət dəyişikliklərə imza ata biləcəklərini vurğulayıb. "Buna görə də "Bakı Şəhərsalma Mükafatı"nın münsiflər heyətinə üzv qismində dəvət olunmaqdan şərəf duyuram. Bu çox vacib tədbirə yüksək səviyyədə evsahibliyi etdiklərinə görə BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) və Bakı Şəhər İcra Hakimiyyətinə dərin ehtiramımı bildirirəm", - deyə Norman Foster əlavə edib.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Xarici əlaqələr, strategiya, bilik və innovasiya departamentinin direktoru Edlam Yemeru bu təşəbbüsdə Azərbaycan hökuməti ilə əməkdaşlıq etməkdən böyük məmnunluq və şərəf duyduğunu bildirib: "Biz burada mənzil təminatı və şəhərsalma məsələlərini müzakirə edirik. Odur ki, bura sözügedən mükafatın təqdim olunması üçün ən doğru məkandır. Bu mükafat digər qlobal təşəbbüslərlə də bağlıdır". O, bu təşəbbüsün WUF-un əsas prioritetlərindən birinə çevriləcəyinə ümidvar olduğunu bildirib. "Ümid edirik ki, bu platforma 2028-ci ildə Meksikada keçiriləcək növbəti WUF-un da ayrılmaz hissəsini təşkil edəcək", - deyə Edlam Yemeru diqqətə çatdırıb.

# Əlilliyi olan şəxslərin hüquqları üzrə "dəyirmi masa" keçirilib




**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində əlilliyi olan şəxslərin hüquqları üzrə "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Əlçatanlıqdan kənara: hər kəs üçün adekvat mənzil hüququnun təmin edilməsi" mövzusuna həsr olunan tədbirdə əlilliyi olan şəxslər üçün inklüziv və əlçatan şəhər mühitinin formalaşdırılması məsələləri müzakirə olunub.

Tədbirin moderatoru Mikaela Patrick bildirib ki, sürətli urbanizasiya şəraitində universal dizayn prinsipləri nəzərə alınmadan inşa olunan şəhərlər dünya əhalisinin təxminən 16 faizi üçün uzunmüddətli maneələr yaradır. Onun sözlərinə görə, bu vəziyyət həm sosial təcridə, həm də sonradan yüksək maliyyə tələb edən yenidənqurma işlərinə səbəb olur.

Qeyd olunub ki, BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyası (CRPD) və Yeni Şəhər Gündəliyi inklüziv şəhərsalmanı prioritet kimi müəyyən etsə də, praktik icra mexanizmlərində hələ də ciddi boşluqlar mövcuddur. Bu səbəbdən əlilliyi olan şəxslər mənzil təminatı və iqlim dəyişikliklərinin yaratdığı fövqəladə hallardan daha çox təsirlənən qruplar sırasında yer alır.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru və QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Elnara Ansari bildirib ki, Azərbaycanda tam elektron və təmassız əlillik qiymətləndirilməsi sistemi tətbiq olunur. Onun sözlərinə görə, rəqəmsal əlillik altsistemi vasitəsilə tibbi məlumatlar elektron qaydada emal edilir ki, bu da prosesin daha şəffaf, operativ və obyektiv həyata keçirilməsinə imkan yaradır. Qeyd olunub ki, Azərbaycan regionda bu sistemi tətbiq edən ilk ölkələrdən biridir.

Ümumdünya Korlar Birliyinin prezidenti Santoş Kumar Rungta deyib ki, əlilliyi olan şəxslərin inklüzivlik və əlçatanlıqla bağlı təşəbbüslərdə kifayət qədər təmsil olunmaması əsas problemlərdən biridir. "Biz görünmürük. Əlilliyi olan şəxslərin təşkilatları qərarqəbuletmə prosesində demək olar ki, iştirak etmir", - deyə o vurğulayıb.

"Əlilliyi olan Şəxslərin Müstəqil Həyat Mərkəzi" İctimai Birliyinin sədri Aydın Xəlilov diqqətə çatdırıb ki, bir çox şəhərlərdə əlçatanlıqla bağlı məlumatlar ya ümumiyyətlə toplanmır, ya da səthi şəkildə aparılır. O vurğulayıb ki, yalnız pandusların sayını qeyd etmək kifayət deyil, həmin infrastrukturun praktik istifadəyə yararlı olub-olmaması da qiymətləndirilməlidir.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax bildirib ki, qarşıdakı dövrdə Yeni Şəhər Gündəliyinin icrasına dair aralıq qiymətləndirmə çərçivəsində Nyu Yorkda yüksəksəviyyəli toplantı keçiriləcək və son 10 ildə hansı yanaşmaların effektiv olub-olmadığı təhlil ediləcək.

"Dəyirmi masa"da əlilliyi olan şəxslərin təşkilatları (OPD), dövlət qurumları, BMT agentlikləri, şəhərsalma üzrə mütəxəssislər, akademik dairələr və beynəlxalq tərəfdaşlar iştirak ediblər. Müzakirələr zamanı inklüziv dizayn və innovasiyaların əlçatan və münasib qiymətli mənzil təminatına, qeyri-formal yaşayış məntəqələrində dayanıqlığın artırılmasına və inklüziv infrastruktur həllərinin sistemli şəkildə tətbiqinə necə töhfə verdiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, tədbirdə səsləndirilən təklif və təşəbbüslər WUF13 çərçivəsində hazırlanacaq "Bakı Fəaliyyət Çağırışı" sənədinə töhfə verəcək.

# Xarici media nümayəndələri üçün şəhər turu təşkil olunub








**Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) çərçivəsində ölkəmizə səfər edən xarici media nümayəndələri üçün Medianın İnkişafı Agentliyi və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə Bakının mədəni və tarixi məkanlarına mediatur təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, İtaliya, Çin, Rusiya, Hindistan, Keniya, Tunis və digər ölkələrdən olan media nümayəndələrinə mayın 20-də Bakının müasir şəhərsalma nümunələri və zəngin tarixi-mədəni irsi ilə yaxından tanışlıq imkanı yaradılıb.

Səhər saatlarında WUF13 Media Mərkəzindən başlayan tur çərçivəsində iştirakçılar əvvəlcə paytaxtın ən müasir şəhərsalma layihələrindən biri olan "Ağ şəhər"lə tanış olublar. Onlara layihənin inkişaf mərhələləri, ekoloji regenerasiya konsepsiyası və müasir urbanizasiya yanaşmaları barədə ətraflı məlumat verilib. Marşrut üzrə Qarabağ Atları Meydanı, Heykəllər Kompleksi, Su Pavilyonu, Tarixi kerosin distillasiya qurğuları, Fəvvarələr Meydanı Parkı, Ağ Şəhər Piyada Körpüsü və Zaman Meydanı kimi məkanlar da ziyarət edilib.

Daha sonra media nümayəndələri dünya memarlığının nümunələrindən sayılan Heydər Əliyev Mərkəzinə gəliblər. Qonaqlara mərkəzin unikal memarlıq üslubu, sərgiləri və burada həyata keçirilən mədəni layihələr barədə məlumat təqdim olunub.

Ardınca beynəlxalq media nümayəndələri Bakı şəhərinin qədim tarixi hissəsi olan İçərişəhərə gəliblər.

UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş bu ərazidə Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi və digər Orta əsr abidələri barədə onlara məlumat verilib.

Səfərin sonunda jurnalistlər turun yüksək səviyyədə təşkil olunduğunu və Bakının tarixi ilə müasir şəhərsalma modelinin vəhdətinin onlarda dərin təəssürat yaratdığını qeyd ediblər.

Qeyd edək ki, şəhər turunun əsas məqsədi WUF13 iştirakçılarına Azərbaycanın şəhərsalma sahəsində həyata keçirdiyi layihələri, həmçinin paytaxt Bakının tarixi və müasir inkişaf modelini beynəlxalq media nümayəndələrinə təqdim etməkdir.

# Plastik çirklənmə ilə mübarizə mövzusunda tədbir

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Plastik çirklənmə ilə mübarizə: Yaşana bilən şəhərlərin və dairəvi iqtisadiyyatın təşviqi" mövzusunda yan tədbir təşkil edilib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Yeni Plastik Müqaviləsi üzrə Hökumətlərarası Danışıqlar Komitəsinin sədri Xulio Kordano (videomüraciət), Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin, Milli Məclisin deputatı, COP29 üzrə BMT-nin iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şəhər əsas xidmətləri şöbəsinin rəhbəri Andre Dzikus çıxış ediblər.

Panel müzakirələrində Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi, BMT-nin Ətraf Mühit Proqramı (UNEP), BMT-nin Sənaye İnkişaf Təşkilatı (UNIDO), İqtisadiyyat Nazirliyi və "Təmiz Şəhər" ASC-nin nümayəndələri iştirak ediblər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM




# Gələcəyin strateji hədəfi - cəsarətli və ehtiyatlı şəhərsalma

**Dünyanın geosiyasi və iqtisadi nizamının yenidən formalaşdığı müasir dövrdə Azərbaycan növbəti dəfə bəşəriyyətin gələcək inkişaf istiqamətlərini müəyyən edən strateji mərkəz qismində çıxış edir. COP29-un qlobal miqyaslı tarixi uğurundan sonra paytaxt Bakının daha bir böyük BMT platformasına - Ümumdünya Şəhərsalma Forumunun 13-cu Sessiyasına (WUF13) yüksəksəviyyədə evsahibliyi etməsi ölkəmizin beynəlxalq nüfuzunun bariz göstəricisidir.**

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin proqram xarakterli nitqi tədbirin ideoloji strukturları idi. Dünyanın 182 ölkəsindən 45 mindən çox qeydiyyatdan keçmiş iştirakçının qatıldığı bu mötəbər forum ölkəmizin urbanistika sahəsində təklif etdiyi qlobal çağırışların hədəfinə çevrildi. Dövlətimizin başçısı çıxışında vurğuladı: "Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk".

Mərasimdə Azərbaycan torpaqlarında qədim yaşayış məskənləri, memarlıq məktəbləri və urbanizasiya ənənələrindən geniş danışıldı, bunların təkcə region üçün deyil, bütövlükdə dünya sivilizasiyasının inkişafında mühüm əhəmiyyət kəsb edildiyi bildirildi. Naxçıvan, Şamaxı, Gəncə, Şəki, Qəbələ kimi şəhərlərin Azərbaycan xalqının əsrlər boyu formalaşdırdığı şəhərsalma mədəniyyətinin canlı nümunələri olduğu qeyd edildi.

Azərbaycan Prezidenti İlham Əliyev də məhz bu tarixi irsə xüsusi diqqət çəkərək vurğuladı ki, yurdumuzun qədim şəhərləri memarlıq və şəhərsalma ənənələrinin bu günədək qorunub saxlanıldığı nadir məkanlardandır. Şamaxıda yerləşən VIII əsrə aid məscid, Naxçıvandakı Möminə xatun türbəsi, Gəncənin tarixi siması, Şəki və Qəbələnin qədim abidələri Azərbaycan xalqının yalnız mədəni deyil, həm də urbanistik baxımdan yüksək inkişaf etmiş sivilizasiya yaratdığını göstərir. Azərbaycanda şəhərsalma ənənəsi sadəcə tikinti və memarlıq baxımından təqdirəlayiq fəaliyyəti ilə göz oxşamır, eyni zamanda bu, milli yaddaşın, dövlətçilik tarixinin və mədəni kimliyin qorunmasıdır. Azərbaycanın şəhərləri coğrafi cəhətdən Şərqlə Qərbin və deməli, müxtəlif fərqli sivilizasiyaların və mədəniyyətlərin kəsişməsində yerləşdiyindən onların urbanistik sistemi də müxtəlif memarlıq üslublarının sintezindən formalaşıb. Dövlətimizin başçısı çıxışında dedi: "Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var. Şəki şəhərinin yaxınlığında yerləşən Kiş kəndindəki kilsə ola bilsin, dünyadakı ən qədim kilsələrdən biridir. Əcdadlarımızın istedadını nümayiş etdirən digər bir misal Lahıc kəndidir. On beş əsr bundan əvvəl kənd yaradılanda insanlar bu gün də işləyən kanalizasiya sistemini və su xəttini çəkmişlər. Demək olar ki, 30 il ərzində işğal altında qalan Qarabağın tacı Şuşa indi sıfırdan yenidən qurulur və onun zədələnmiş qalası bərpa edilib. Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda qorunaraq bu günədək saxlanılıb... Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik".

## "Qara şəhər"dən "Ağ şəhər"ə

Bu gün Azərbaycan modelinin əsas xüsusiyyəti tarixi irsin qorunması ilə müasir infrastrukturun yaradılması arasında balansın təmin olunmasıdır. Bu həm də Azərbaycanın şəhərsalma fəlsəfəsinin əsas mahiyyətini təşkil edir. Əslində, belə yanaşma son onilliklərdə dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

Azərbaycan Prezidenti öz nitqində tarixi faktlara toxunaraq Bakının ekoloji transformasiyasını dünya birliyinə unikal təcrübə kimi təqdim etdi, paytaxtımızın 1846-cı ildə dünyada ilk sənaye üsulu ilə neft hasil edilən məkan olduğunu xatırlatdı, 180 il ərzində ətraf mühitin qorunmasına sıfır dərəcədə riayət edildiyini, torpaq və havanın ciddi çirklənməyə məruz qaldığını vurğuladı, Bakının keçmişindəki "Qara şəhər", Bibiheybət və Böyükşor ərazilərinin acınacaqlı vəziyyətini diqqətə çatdırdı. Onu da bildirək ki, son 20 ildə həyata keçirilən ekoloji reabilitasiya siyasəti möcüzəvi dəyişikliklərə yol açıb. "Qara şəhər" tamamilə tarixin arxivinə göndərilərək dünyanın ən müasir layihələrindən birinə - "Ağ şəhər"ə çevrilib. Bibiheybət və Böyükşor əraziləri neft gölməçələrindən təmizlənərək yerində böyük yaşıl parklar, idman və istirahət zonaları salınıb. Paytaxtda son illər 100-dən çox yeni park və xiyaban istifadəyə verilib.

Dövlətimizin başçısının xarici qonaqlara bu ərazilərin keçmiş foto-video arxivləri ilə indiki mənzərəsini müqayisə etmək barədə tövsiyəsi Azərbaycanın güclü siyasi iradəsinin sübutu idi. Eyni zamanda "qara qızıl"ın insan kapitalına və yaşıl şəhərsalma modelinə transformasiyası" konsepsiyasının qlobal miqyasda nümayişi idi. Prezident İlham Əliyevin bu mötəbər beynəlxalq platformada həmin tarixi irsə əsaslanaraq verdiyi mesajlar təbii ki, mühüm əhəmiyyət kəsb edirdi. Qeyd edək ki, Bakı şəhərinin memarlıq simasının məhz XIX əsrin ortalarındakı o ilk quyudan sonra başlayan "neft bumu" sayəsində formalaşdığı bir həqiqətdir. Prezident forum iştirakçılarına Bakının təkcə müasir deyil, həm də köklü sənaye və memarlıq tarixinə malik spesifik bir şəhər olduğunu xatırlatdı. Bu, həm də tarixi identikliyin qorunmasının vacibliyini təsdiq edir.

## Cəsarətli və ehtiyatlı şəhərsalma düsturu

Müasir dövrdə şəhərsalma siyasəti hər bir dövlətin sosial-iqtisadi inkişafını müəyyən edən əsas sahələrdən biri hesab olunur. Dünyada urbanizasiya prosesinin sürətlənməsi, əhalinin şəhərlərdə sıx məskunlaşması və ekoloji problemlərin artması şəhərlərin planlı şəkildə inkişaf etdirilməsini daha da vacib edir. Bu baxımdan, müasir şəhərsalma artıq insanların rahat yaşayışının təmin olunması, ekoloji təhlükəsizliyin qorunması, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və tarixi-mədəni irsin yaşadılması kimi mühüm istiqamətləri əhatə edir.

Azərbaycan da son illər şəhərsalma sahəsində mühüm uğurlar əldə edən ölkələr sırasında yer alır. Yurdumuzun müxtəlif bölgələrində həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq işləri müasir inkişaf modelinin formalaşdırılmasına xidmət edir. Yeni yolların salınması, körpülərin və tunellərin tikilməsi, park və bulvarların, xiyabanların yaradılması, yaşayış komplekslərinin və sosial obyektlərin inşası şəhərlərin simasını tamamilə dəyişib. Xüsusilə Bakıda həyata keçirilən yenidənqurma layihələri Azərbaycanın müasir şəhər modelinə keçidinin nümunəsi hesab olunur. Bununla yanaşı, regionlarda da aparılan abadlıq işləri ölkənin hərtərəfli inkişaf strategiyasının tərkib hissəsinə çevrilir.

Prezident İlham Əliyevin çıxışında urbanistlər, memarlar və dövlət idarəçiləri üçün ən mühüm tapşırıq inkişaf metodologiyasındakı həssas balansla bağlı oldu. Dövlətimizin başçısı şəhərlərin böyümə tempini tənzimləyərkən cəsarətli, həmçinin ehtiyatlı yanaşma prinsipini irəli sürdü: "Bu gün xüsusilə paytaxt şəhərlərində şəhər inkişafına olan bu zərurəti tam anlayışla qəbul edərək cəsarətli və ehtiyatlı olmalıyıq". Bu, müasir urbanizasiyanın gətirdiyi rəqəmsal innovasiyalar qəbul edərkən milli-mədəni kimliyin mühafizə dayağıdır.

Cəsarət rəqəmsal idarəetmə, "ağıllı" texnologiyalar və mikromobilliyin infrastruktura sürətlə inteqrasiyasını tələb edir. Ehtiyat isə şəhərlərin tarixi nüvəsinin, memarlıq irsinin "tikinti bumu" qarşısında qorunmasıdır. Prezidentin bu xüsusda Bakı "Formula-1" yarışı ilə bağlı müqayisəsi, əslində, müasir urbanizasiya siyasətinin fəlsəfəsini ifadə edir. Yəni inkişaf sürətli olmalıdır, lakin bu proses tarixi irsin məhv edilməsi hesabına baş verməməlidir. Azərbaycan modeli də məhz bu prinsipə əsaslanır. Burada həm müasirlik, həm milli kimlik, həm texnoloji yenilik, həm də tarixi yaddaş birlikdə qorunur. Bakının Şərq və Qərb memarlığının nadir sintezini özündə birləşdirdiyini qeyd edən Prezident milli irsin gələcək nəsillərə qüsursuz ötürülməsinin vacibliyini önə çəkdi.

Müasir şəhərsalma təcrübəsi həm də göstərir ki, sürətli inkişaf bəzən ekoloji risklər yarada bilər. Buna görə də Azərbaycanda həyata keçirilən layihələrdə təbiət amili, iqlim şəraiti və uzunmüddətli ekoloji təhlükəsizlik xüsusi nəzərə alınır. "Yaşıl enerji" layihələrinin genişləndirilməsi və şəhər mühitində ekoloji standartların tətbiqi bu ehtiyatlı yanaşmanın tərkib hissəsidir.

## Postmünaqişə urbanizmi

Çıxışın əsas xətlərindən biri də Azərbaycanın qarşısında duran böyük miqyaslı quruculuq və bərpa vəzifələri ilə bağlı idi. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma prosesi cəsarətli şəhərsalma siyasətinin bariz nümunəsi kimi təqdim olundu. Bildirildi ki, dağıdılmış infrastrukturun qısa müddətdə yenidən qurulması, yeni yaşayış məntəqələrinin salınması və müasir şəhər modelinin tətbiqi dövlətin riskləri qəbul edərək irəliyə doğru atdığı addımlardır.

Burada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma təkcə fiziki bərpanı deyil, həm də tamamilə yeni idarəetmə və yaşayış modelinin qurulmasını nəzərdə tutur. Yollar, enerji sistemləri, rəqəmsal idarəetmə mexanizmləri və sosial infrastruktur bir-biri ilə inteqrasiya olunmuş şəkildə planlaşdırılır.

Azərbaycan Prezidenti çıxışında dedi: "Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub". Bir sözlə, Azərbaycanın azad edilmiş torpaqlarında, Qarabağ və Şərqi Zəngəzurda aparılan görünməmiş yenidənqurma işləri bu gün dünya tərəfindən heyranlıqla qarşılanır. 30 illik işğal dövründə tamamilə dağıdılmış, Ağdam və digər şəhərlərimiz sıfırdan, XXI əsrin ən müasir standartları ilə yenidən qurulur. Ölkəmiz dünyaya tamamilə fərqli bir bərpa modeli təqdim edir, yəni keçmiş məcburi köçkünlərin qayıtdığı şəhər və kəndlər ekoloji dayanıqlığın, alternativ enerjinin və smart texnologiyaların tətbiq edildiyi ideal yaşayış məskənlərinə çevrilir. WUF13 platforması Azərbaycanın bu unikal təcrübəsini - münaqişələrdən zərər çəkmiş regionların sürətli bərpa metodologiyasını dünyaya yaymaq üçün mühüm imkandır.

2022-ci ildən etibarən BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda - uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumu keçirilib. Bu forumlar sübut etdi ki, Azərbaycanın postmünaqişə bərpa təcrübəsi dünyada münaqişələrdən və təbii fəlakətlərdən əziyyət çəkən digər regionlar üçün universal nümunə rolu oynaya bilər.

Bu gün Azərbaycan şəhərsalma siyasəti ilə regionda yeni standartlar müəyyənləşdirir. Prezident İlham Əliyevin WUF13-də səsləndirdiyi fikirlər Azərbaycanın şəhərsalma siyasətinin əsas prioritetlərini və gələcək hədəflərini aydın şəkildə ortaya qoyur. Çıxışda dayanıqlı inkişaf, ekoloji təhlükəsizlik, müasir infrastrukturun qurulması və insanların rahat yaşayışının təmin olunması kimi məsələlər xüsusi vurğulanmış və Azərbaycanın gələcəyin şəhərlərini quran ölkə statusunu möhkəmləndirmişdir.

Heç şübhəsiz, Bakı forumu çərçivəsində aparılan müzakirələr bəşəriyyətin daha təhlükəsiz, inklüziv və dayanıqlı şəhərlərdə yaşaması üçün mühüm bir dönüş nöqtəsi olacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# İnkişaf, sabitlik və enerji diplomatiyası

## Azərbaycan yeni dünya nizamında unikal model ortaya qoyur




**Müasir dünya nizamı bu gün tarixin ən mürəkkəb sınaqlarından keçir. Geosiyasi kataklizmlər və enerji böhranları fonunda dövlətlərin gücü yalnız onların resursları ilə deyil, həm də çevik, uzaqgörən və yeni çağırışlara adekvat cavab vermək bacarığı ilə ölçülür. Azərbaycan məhz belə bir mürəkkəb dövrdə yürütdüyü balanslı diplomatiya sayəsində Avrasiyanın enerji xəritəsini yenidən formalaşdıran əsas aktora və qlobal təhlükəsizliyin qarantına çevrilib. Ölkəmizin qazandığı bu nüfuz təsadüfi deyil. Bu, milli maraqlara söykənən strateji kursun və müasir dünyanın tələbləri ilə ayaqlaşan inkişaf modelinin məntiqi nəticəsidir.**

## Yeni qaz yatağı, yeni imkanlar

Prezident İlham Əliyevin mayın 18-də "Euronews" televiziyasına müsahibəsində qeyd etdiyi kimi, Azərbaycanın dünyanın enerji xəritəsindəki rolu illər öncə atılan doğru addımlara əsaslanır: "Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib... ...Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik... ...Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır. Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik".

Azərbaycanın enerji siyasəti resurs ixracı ilə məhdudlaşmır, genişmiqyaslı əməkdaşlıq platforması xarakteri daşıyır. Hazırda 12 Avropa ölkəsinin, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinin Azərbaycandan qaz alması rəsmi Bakının qlobal enerji arxitekturasındakı əhəmiyyətli yerini göstərir. "Cənub qaz dəhlizi" vasitəsilə qurulan bu bağlar həm istehsalçı, həm tranzit, həm də istehlakçı ölkələr üçün qarşılıqlı uduşlu bir vəziyyət yaradıb.

Prezident İlham Əliyev sözügedən müsahibəsində qarşılıqlı əməkdaşlığın tərəflər üçün əhəmiyyətini belə şərh edib: "Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq".

Bu strateji tərəfdaşlığın davamı olaraq Prezidentdən gələn yeni müjdə isə Azərbaycanın enerji potensialının hələ yeni zirvələrə çatacağını xəbər verir. "Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik", - deyə dövlətimizin başçısı bildirdi.

Bu xəbər Azərbaycanın enerji potensialının hələ tam istifadə olunmadığını və qarşıdakı illərdə hasilat həcminin daha da artacağını göstərir. Yeni yatağın istifadəyə verilməsi təkcə iqtisadi mənfəət deyil, həm də Azərbaycanın qlobal enerji bazarındakı mövqeyinin daha da möhkəmlənməsi anlamına gəlir.

## Sıfırdan yaradılan kənd və şəhərlər

Bu gün Azərbaycan qlobal miqyasda söz sahibi olan qüdrətli dövlət kimi tanınır. Ölkəmizin bu cür sürətli inkişafı dünyada gedən proseslərə və müasir zamanın bütün tələblərinə cavab verir. O cümlədən sıfırdan yaratdığı modern şəhər və kəndləri ilə nümunə ortaya qoyur.

Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər bu uğurlu yolun fəlsəfəsini bir daha aydın şəkildə göstərir: "Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq... ...Hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər".

Prezidentin vurğuladığı bu misilsiz təcrübə Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı işlərdə özünü göstərir. Dağıdılmış ərazilərin bərpası, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi Azərbaycanın gələcəyə baxışının təzahürüdür. Mərhələli yanaşma və paralel inkişaf sayəsində artıq 85 min insanın Qarabağ və Şərqi Zəngəzurda yaşaması, işləməsi və təhsil alması bu böyük prosesin real nəticəsidir.

İnfrastruktur layihələri, tunellər, körpülər və xüsusilə hidroenerji güclərinin bərpası regionun gələcək onilliklər üçün enerji təhlükəsizliyini təmin edir. Azərbaycan bu addımlarla dünyaya göstərir ki, ən çətin şəraitdə belə sıfırdan müasir şəhər və kəndlərin quruculuğu mümkündür.

Azərbaycan bu gün həm enerji marşrutlarının şaxələndirilməsi, həm də milli inkişafın unikal modelini yaratması ilə dünyanın diqqət mərkəzindədir. Milli maraqlara söykənən daxili sabitlik və uzaqgörən xarici siyasət ölkəmizi gələcək onilliklərin mümkün böhranlarından qorumaqla yanaşı, onu dünyanın ən stabil və qüdrətli dövlətlərindən biri kimi möhkəmləndirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan və D-8 arasında media savadlılığı və informasiya təhlükəsizliyi üzrə əməkdaşlıq genişlənir

**Mayın 20-də Medianın İnkişafı Agentliyində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində ölkəmizdə səfərdə olan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi ilə ikitərəfli görüş keçirilib.**

Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə qurumun icraçı direktoru Əhməd İsmayılov D-8 üzv dövlətləri arasında media sahəsində əməkdaşlığın genişləndirilməsinin, media qurumları və aidiyyəti sahə üzrə məsul institutlar arasında təcrübə mübadiləsinin təşviqinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, müasir informasiya mühitində media savadlılığının gücləndirilməsi, yanlış məlumatlandırma və dezinformasiyaya qarşı koordinasiyalı fəaliyyət mexanizmlərinin formalaşdırılması, eləcə də rəqəmsal transformasiya şəraitində peşəkar və dayanıqlı media mühitinin inkişafı xüsusi aktuallıq kəsb edir.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Sohail Mahmud D-8 üzv dövlətləri arasında media sahəsində qarşılıqlı səfərlərin, peşəkar mübadilə proqramlarının, birgə media təşəbbüslərinin və ortaq layihələrin təşviqinin vacibliyini vurğulayıb. O, media məzmununun hazırlanması və yayımı sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsinin, həmçinin innovativ texnologiyaların, o cümlədən süni intellekt həllərinin media sahəsində məsuliyyətli tətbiqinin müasir dövrdə xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Eyni zamanda D-8 Media Mükəmməllik Mərkəzinin fəaliyyətinin təşkili, mərkəzin koordinasiyalı kommunikasiya təşəbbüsləri üçün platforma kimi fəaliyyət imkanları müzakirə olunub, media və informasiya təhlükəsizliyi sahəsində birgə əməkdaşlığın perspektivləri nəzərdən keçirilib.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

# Azərbaycan şəhərsalma sahəsində regionun aparıcı dövlətidir

**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində cənab Prezident İlham Əliyev tərəfindən səsləndirilən fikirlər Azərbaycanın müasir inkişaf strategiyasının mahiyyətini, milli-mənəvi dəyərlərə söykənən şəhərsalma siyasətini və gələcəyə hesablanmış dövlət baxışını bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Bu çıxış yalnız şəhərsalma məsələlərinə dair siyasi mövqe kimi yox, eyni zamanda Azərbaycanın müasir dövlət fəlsəfəsinin təqdimatı kimi böyük əhəmiyyət daşıyır.**

Bakı qədim tarixlə müasirliyin harmoniyasını özündə birləşdirən nadir dünya şəhərlərindən biridir. Bir tərəfdə əsrlərin yaddaşını yaşadan İçərişəhər, digər tərəfdə isə müasir memarlıq nümunələri, innovativ urbanizasiya layihələri və dayanıqlı şəhər mühiti Azərbaycanın inkişaf modelinin necə balanslı şəkildə qurulduğunu nümayiş etdirir. Tarixi irsin qorunması ilə müasir infrastrukturun paralel inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq uğurla həyata keçirilir. Bu yanaşma yalnız memarlıq baxımından yox, həm də milli kimliyin və mədəni yaddaşın qorunması sahəsində xüsusi strateji əhəmiyyət daşıyır.



Məhz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son illərdə şəhərsalma sahəsində regionun aparıcı ölkəsinə çevrilib. Ölkəmiz artıq yalnız öz daxilində quruculuq prosesləri həyata keçirən dövlət kimi yox, beynəlxalq şəhərsalma platformalarında təşəbbüslərlə çıxış edən, qlobal urbanizasiya çağırışlarına töhfə verən etibarlı tərəfdaş kimi qəbul olunur. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də bu istiqamətdə həyata keçirilən siyasətin ardıcıl və sistemli xarakter daşıdığını göstərir. Bu qərar şəhərsalma mədəniyyətinin inkişafı, milli memarlıq ənənələrinin qorunması və dayanıqlı yaşayış konsepsiyasının gücləndirilməsi baxımından mühüm strateji addımdır.

Forum çərçivəsində Azərbaycanın qədim şəhərlərinin tarixi-mədəni irsi və memarlıq ənənələrinin xüsusi vurğulanması da böyük qürur hissi doğurur. Şamaxı, Naxçıvan, Gəncə, Şəki, Qəbələ və xüsusilə Şuşa kimi şəhərlərimiz əsrlər boyu formalaşmış yüksək memarlıq məktəbinin, zəngin mədəni irsin və milli dövlətçilik tariximizin canlı nümunələridir. Bu şəhərlərin qorunması və gələcək nəsillərə çatdırılması milli irsə verilən dəyərin göstəricisidir.

Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma layihələri isə dünya şəhərsalma tarixində xüsusi əhəmiyyətə malik nümunələr sırasında yer alır. Qısa zaman ərzində inşa olunan yollar, tunellər, körpülər, hava limanları, yaşayış kompleksləri, məktəblər, xəstəxanalar və sosial infrastruktur layihələri Azərbaycanın güclü siyasi iradəsini və dövlət potensialını açıq şəkildə nümayiş etdirir. Böyük qayıdış proqramı çərçivəsində həyata keçirilən bu layihələr yalnız quruculuq prosesi deyil, həm də tarixi ədalətin bərpası, milli qürurun təntənəsi və vətəndaş həmrəyliyinin təcəssümüdür.

Eyni zamanda Bakıda və digər şəhərlərimizdə ekoloji tarazlığın qorunması istiqamətində görülən işlər xüsusi diqqətə layiqdir. Uzun illər ekoloji problemlərlə üzləşən ərazilərin bu gün müasir park və istirahət məkanlarına çevrilməsi, yaşıllıq zonalarının genişləndirilməsi, ekoloji nəqliyyat sistemlərinin tətbiqi və insan amilinin şəhərsalma siyasətinin mərkəzinə yerləşdirilməsi Azərbaycanın "yaşıl şəhər" konsepsiyasına verdiyi önəmin bariz nümunəsidir. Bu siyasət ölkəmizdə urbanizasiya prosesinin yalnız texniki inkişaf üzərində yox, insan rifahı və sağlam yaşayış prinsipləri əsasında qurulduğunu göstərir.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının məhz Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun, regional liderlik mövqeyinin və dayanıqlı inkişaf modelinin dünyaya təqdimatı baxımından mühüm hadisə oldu. Bu mötəbər platforma ölkəmizin şəhərsalma, memarlıq, ekoloji inkişaf və müasir yaşayış konsepsiyası sahəsində qazandığı uğurların beynəlxalq səviyyədə daha geniş tanınmasına ciddi töhfə verəcək. Azərbaycan bu gün yalnız inkişaf edən ölkə yox, həm də gələcəyin şəhərlərini formalaşdıran dövlətlərdən biri kimi dünya miqyasında öz nüfuzunu daha da möhkəmləndirir.

***Fatma YILDIRIM,***
***Milli Məclisin deputatı***

# WUF13-dən verilən mesajlar

## Ölkəmiz qlobalmiqyaslı çağırışlara hər zaman hazırdır

**Prezident İlham Əliyevin Avropanın ən nüfuzlu və geniş auditoriyaya malik telekanalı olan "Euronews"a müsahibələri artıq ənənəyə çevrilib. Bu ənənə hər şeydən əvvəl Azərbaycanın reallıqlarının, beynəlxalq proseslərə baxışının və milli maraqlarının dünya ictimaiyyətinə ilkin, həm də ən mötəbər mənbədən çatdırılması strategiyasının uğurlu tərkib hissəsidir. Bu baxımdan, təsadüfi deyil ki, Bakı şəhərində keçirilən və qlobal miqyasda nəhəng əhəmiyyət kəsb edən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) zamanı da eyni mənzərənin şahidi olduq.**

Milli Məclisin deputatı Kamran Bayramov paytaxtımızda baş tutan bu mötəbər tədbiri işıqlandırmaq üçün dünyanın müxtəlif qitələrindən və ölkələrindən yüzlərlə kütləvi informasiya vasitəsinin nümayəndəsinin Bakıya toplaşdığını diqqətə çatdırıb: "Lakin dövlət başçımızın bu media nəhəngləri arasından məhz ilk olaraq "Euronews" televiziyasına müsahibə verməsi həm rəmzi, həm də strateji xarakter daşıyır". WUF13 çərçivəsində baş tutan bu müsahibə ölkəmizin həm beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfəni, həm də işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi müasir şəhərsalma layihələrini qlobal auditoriyaya təqdim etmək üçün növbəti böyük imkan yaratdı. Dövlət başçısı müsahibəsində WUF13-ə evsahibliyi etməyin Azərbaycan üçün böyük bir şərəf olduğunu vurğulamaqla yanaşı, tədbirin rekord göstəricilərinə də xüsusi diqqət çəkib. Forumda dünyanın 182 ölkəsinin təmsil olunması birmənalı olaraq Azərbaycanın beynəlxalq arenada qazandığı böyük nüfuzun və rəsmi Bakıya göstərilən dərin hörmətin bariz nümunəsidir. Bu gün müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən ümdə və strateji vəzifələrdən biri işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bu torpaqlara həyatın yenidən qaytarılmasıdır".



Deputat qeyd edib ki, otuz ilə yaxın davam edən Ermənistanın işğalçılıq siyasəti nəticəsində bu ərazilərdə misli görünməmiş dağıntılar törədilib, şəhər və kəndlərimiz yerlə yeksan edilib. Lakin müharibənin başa çatmasından dərhal sonra Azərbaycan öz daxili imkanları hesabına regionda nəhəng və sürətli tikinti-quruculuq işlərinə start verib. Bu ərazilərdə həyata keçirilən genişmiqyaslı layihələrə, reallaşdırılan müasir infrastrukturlara diqqətçəkən Prezident İlham Əliyev Azərbaycanın bu sahədə yaratdığı unikal modeli yüksək tribunalardan bəyan edərək vurğulayıb: "Biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik". Dağıdılmış ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında həyatın yenidən qurulması, həm planlı idarəetmənin, həm də güclü iqtisadi potensialın nəticəsidir. Cəmi beşillik qısa bir müddətdə görülən işlər dünya şəhərsalma və bərpa tarixində analoqu olmayan bir uğur qazanıldığını növbəti dəfə təsdiq edir.

Deputat vurğulayıb ki, Azərbaycan qlobal enerji xəritəsini yenidən formalaşdıran, Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən strateji bir aktordur: "Hazırda ölkəmizin boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi coğrafiya dinamik şəkildə genişlənməkdədir. Ümumilikdə 10-u Avropa İttifaqının üzvü olmaqla, 12 Avropa ölkəsi öz enerji ehtiyaclarını məhz Azərbaycan qazı hesabına qarşılayır. Müasir beynəlxalq münasibətlər sistemində Avropanın Azərbaycan kimi etibarlı, sabit və alternativ təchizat mənbəyinə böyük ehtiyacı var. Bu reallığı nəzərə alaraq, ölkəmiz Avropa Komissiyası ilə çox səmərəli, qarşılıqlı etimada əsaslanan və gələcəyə hesablanmış sıx əməkdaşlıq platforması qurub. Bu tərəfdaşlıq təkcə iqtisadi mənfəət deyil, həm də qitənin enerji şaxələndirilməsinə verilən ən böyük töhfədir. Bununla yanaşı, qlobal proseslərə və geosiyasi böhranlara fundamental iqtisadi prizmadan yanaşan dövlətimizin başçısı müsahibəsində Yaxın Şərqdə baş verən hadisələrin dünya bazarlarına təsirini də dərindən təhlil edib. Bu hadisələrin müəyyən dərəcədə hər kəsə təsir etdiyini bildirən Prezident İlham Əliyev bəzilərinin yüksək neft qiymətlərinin resurs ölkələri üçün yalnız faydalı ola biləcəyini düşünə bildiyini söyləyərək, məsələnin görünməyən tərəflərinə və qlobal maliyyə arxitekturasının bir-birinə bağlılığına diqqət çəkib. Dövlətimizin başçısı rəsmi Bakının praqmatik maliyyə fəlsəfəsini bu sözlərlə ifadə edib: "Bəli, elədir. Ancaq eyni zamanda neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə, biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlardakı investisiyalarımızda itkilər baş verir". Prezidentin bu dərin təhlili Azərbaycanın iqtisadi idarəetmədə xam neft amilindən asılı olmadığını, əksinə, qlobal maliyyə bazarlarındakı riskləri düzgün hesablayan çevik və uzaqgörən dövlət olduğunu göstərir".

K.Bayramov əlavə edib ki, bu gün Azərbaycan təkcə öz milli maraqlarını qətiyyətlə qoruyan dövlət deyil, həm də qlobal miqyasda təhlükəsiz, dayanıqlı və inklüziv gələcəyin qurulmasına sistemli və fundamental töhfələr verən aparıcı qüvvədir. Dünyanın 182 ölkəsindən gələn nümayəndələrin Bakıda vahid məqsəd ətrafında birləşməsi məhz Azərbaycanın beynəlxalq həmrəylik və dialoq mühiti yaratmaq strategiyasının uğurudur. Bakı platformasından verilən mesajlar dövlətimizin qlobal miqyaslı çağırışlara hər zaman hazır olduğunu və gələcək nəsillər üçün daha təhlükəsiz bir dünya naminə məsuliyyəti bölüşməkdən çəkinmədiyini bütün bəşəriyyətə bəyan edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Nümunəyə çevrilən təcrübə

## Zəngin tarixi irslə müasirliyin möhtəşəm harmoniyasını yaradan ölkəmiz öz uğurlarını və modern konsepsiyasını dünya ilə bölüşür

**Azərbaycan etibarlı tərəfdaş və nüfuz sahibi olan bir dövlət kimi özünü təsdiqləyib. Bu gün ölkəmiz daxili sabitliyin hökm sürdüyü təhlükəsizlik məkanı olaraq tanınır. Məhz bu amillər Azərbaycanın mühüm beynəlxalq toplantılara evsahibliyi etməsini şərtləndirir. Paytaxtımızda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası da ölkəmizə olan qlobal etimadın əyani sübutudur. WUF13 müəyyən olunmuş qrafik üzrə ardıcıl və sistemli şəkildə işini davam etdirir. BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycanın birgə tərəfdaşlığı ilə ərsəyə gələn bu forum qlobal urbanizasiya prosesləri və şəhərlərin gələcək hədəflərinin müzakirə edildiyi dünyanın ən nüfuzlu konfranslarından biridir.**

Bu mötəbər tədbir iştirakçı dövlətlərin və qeydiyyatdan keçən nümayəndələrin sayına görə COP29-dan sonra miqyasına görə ən böyük ikinci beynəlxalq hadisə kimi tarixə düşdü. WUF13-də qlobal miqyaslı çağırışlar, müasir urbanizasiya problemləri və dayanıqlı gələcək üçün mühüm yol xəritələri müzakirə olundu. Ölkəmizin evsahibliyi etdiyi bu möhtəşəm platformada dünyanın dörd bir yanından gələn ekspertlər, dövlət rəsmiləri və şəhərsalma mütəxəssisləri vahid hədəf ətrafında birləşdilər.

Qlobal müzakirələr fonunda Prezident İlham Əliyevin nüfuzlu "Euronews" televiziyasına verdiyi eksklüziv müsahibə həm forumun fəlsəfəsini, həm də Azərbaycanın dünyaya təqdim etdiyi unikal modeli bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Dövlətimizin başçısının səsləndirdiyi fikirlər WUF13-ün mahiyyətini və ölkəmizin beynəlxalq arenadakı çəkisini tam mənası ilə ifadə etdi. Prezident İlham Əliyev vurğuladı ki, 182 ölkədən 40 mindən çox iştirakçının qatıldığı bu forum COP29-dan sonra Azərbaycanda keçirilən ikinci ən böyük qlobal tədbirdir. İştirakçı sayının rekord həddə çatması forumun gündəliyindəki mövzunun aktuallığından, eyni zamanda Azərbaycanın geniş beynəlxalq əlaqələrin və ölkəmizə olan qlobal etmaddan xəbər verir.




Azərbaycanda memarlıq və şəhər quruculuğu sənətinin çoxəsrlik, zəngin tarixi kökləri mövcuddur. Dövlət himayəsində olan qədim qalalar, karvansaralar, dini ibadətgahlar və türbələr milli memarlıq irsimizin parlaq nümunələridir. Möminə xatun türbəsi, Xudafərin körpüsü və "Atəşgah" məbədi kimi bənzərsiz incilər yurdumuzun şəhərsalma sənətinin simvollarına çevrilib. Azərbaycan memarlıq məktəbinin şah əsərləri sayılan İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, eləcə də Şəkinin tarixi hissəsi və Xan sarayı UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alıb. Bu faktlar keçmişimizin şəhərsalma mədəniyyətinin dərinliyindən xəbər verir.

Fərəhlidir ki, bu möhtəşəm abidələri yerli sənətkarlarımız ərsəyə gətiriblər. Yubileyi UNESCO miqyasında qeyd olunan dahi memar Əcəmi Naxçıvaninin yaradıcılıq üslubu Orta əsrlərdə bütövlükdə Yaxın Şərq regionunun memarlıq istiqamətinə güclü təsir edərək yeni bir məktəbin əsasını qoyub.

Ölkəmiz coğrafi baxımdan qitələrin qovuşma nöqtəsində yerləşdiyindən, Şərq və Qərb mədəniyyətlərinin harmoniyası Azərbaycanın memarlıq üslubunda aydın görünür. Paytaxtın küçələrində qədimliklə müasirliyin elə bir təbii vəhdəti var ki, İçərişəhərin tarixi divarlarından kənara addım atan hər bir kəs özünü müasir sivilizasiyada hiss edir. Tarixi irsin qorunması ilə müasir şəhər planlaşdırılması arasındakı bu tarazlıq əcdadlarımızın böyük istedadının göstəricisidir.

Xüsusilə vurğulamaq lazımdır ki, Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə başlayan dövr şəhərsalma sahəsində intibah mərhələsi sayılır. Həmin illərdə respublikamızın müxtəlif bölgələrində sənaye mərkəzləri və yaşayış sahələri qurulub, şəhərlərin baş planları yenidən işlənib. Bakı ilə bərabər, Gəncə, Sumqayıt, Mingəçevir kimi mərkəzlərdə sosial layihələr və nəqliyyat şəbəkəsi genişləndirilib, yeni yaşayış massivləri salınıb. O vaxt yaradılan planlaşdırma və layihələndirmə sistemləri növbəti dövrlərdə şəhərsalma strategiyasının uğurla davam etdirilməsi üçün möhkəm zəmin yaradıb. Son 40-50 ildə respublikamızda icra olunan infrastruktur layihələri bəzi dövlətlərin əsrlər boyu keçdiyi yola bərabərdir və dünya üçün nümunə rolunu oynayır.

Bu gün şəhərsalma və məskunlaşma siyasəti ölkəmizin milli inkişaf proqramında əsas prioritetlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi altında paytaxtdan başlayaraq bütün regionları əhatə edən böyük yenidənqurma işləri aparılır. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın mərkəzi ideyası çoxfunksiyalı və çoxmərkəzli inkişaf modelinin reallaşdırılmasıdır. Yollar, körpülər, metro stansiyaları və parklar bu planlı gələcəyə xidmət edir. Dövlətimizin başçısının qərarı ilə 2026-cı ilin ölkədə "Şəhərsalma və Memarlıq İli" elan olunması da keçmişimizdən bu günə ucalan və müasir görkəm alan tikinti mədəniyyətimizə, habelə bu sahənin dövlət siyasətinin nüvəsini təşkil etdiyinə verilən ali qiymətdir.

Respublikamızda aparılan irimiqyaslı quruculuq və abadlıq işlərində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Xüsusən, Heydər Əliyev Fondunun xətti ilə tarixi və mədəni abidələrin bərpası, məktəblərin, tibb müəssisələrinin, idman komplekslərinin və mədəniyyət ocaqlarının yenidən qurulması, mənəvi irsin qorunması və tanıdılması ümummilli hədəflərimizə böyük töhfələr verir.

Azərbaycanın işğaldan azad edilmiş bölgələrində tətbiq edilən yenidənqurma modelini beynəlxalq arenada qabaqcıl təcrübə kimi nümayiş etdirmək olar. 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Ermənistanın 30 illik işğal dövründə xarabalığa çevirdiyi torpaqlarımızda hazırda ən son elmi-texnoloji yeniliklərlə həyat canlanır. Qarabağ və Şərqi Zəngəzurda aparılan şəhərsalma və məskunlaşma strategiyası ekoloji dayanıqlılıq, regionların ümumi iqtisadiyyata reinteqrasiyası və insan amili üzərində qurulub. Böyük qayıdış proqramı çərçivəsində 8 şəhərin baş planı təsdiqlənib, 101 məntəqənin şəhərsalma sənəd hazırlanıb. Bölgədə 3 müasir aeroport tikilib, geniş magistral və dəmir yolları çəkilib, çoxsaylı körpülər, tunellər və infrastruktur obyektləri istifadəyə verilib. Burada tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, eləcə də bu torpaqların "yaşıl enerji" regionuna çevrilməsi ekoloji reabilitasiyanın qabaqcıl nümunəsi kimi dünya birliyinin diqqətinə çatdırılır. Dünyada bu qədər qısa vaxtda belə nəhəng quruculuq işlərini gerçəkləşdirən ikinci bir dövlət tapmaq çətindir.

Qlobal miqyasda siyasi gərginliklərin, hərbi qarşıdurmaların, iqtisadi böhranların kəskinləşdiyi, beynəlxalq təhlükəsizlik sisteminin sınağa çəkildiyi dövrdə Azərbaycan mühüm beynəlxalq foruma evsahibliyi etməklə özünü etibarlı və təhlükəsiz məkan kimi növbəti dəfə təsdiqləyir. Birmənalı qeyd etmək olar ki, bu gün ölkəmiz gələcəyin şəhərlərinin qurulmasında intellektual mərkəzə və model ölkəyə çevrilməkdədir. Respublikamızın qlobal miqyasda irəli sürdüyü humanitar və infrastruktur təşəbbüsləri planetin gələcək inkişaf tempini müəyyənləşdirir. Azərbaycan öz keçmişinə sahib çıxmaqla bu günü ilə gələcəyin modern dünyasını inşa edir. Qarabağ və Şərqi Zəngəzurda sıfırdan ucalan şəhərlərimiz, yenidən canlanan yurd yerlərimiz Azərbaycan xalqının qurub-yaratmaq əzminin, dövlətimizin iqtisadi və siyasi qüdrətinin ən parlaq təntənəsidir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

# Əməkdaşlıq üçün mükəmməl platforma

### Andre DZİKUS: "Resursların dayanıqlı idarə edilməsi olmadan şəhərlərin dayanıqlı gələcəyi qeyri-mümkündür"



"Bəşəriyyət hər il 400 milyon tondan çox plastik istehsal edir. Milyonlarla ton plastik material çaylara, göllərə, dənizlərə, həmçinin insan orqanizminə qədər nüfuz edir".

AZƏRTAC xəbər verir ki, bunu BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şəhər Əsas Xidmətlər Bölməsinin rəisi Andre Dzikus Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə "Plastik çirklənmə ilə mübarizə: yaşamaq üçün uyğun şəhərlərin və dairəvi iqtisadiyyatın təşviqi" mövzusunda keçirilən tədbirdə çıxış edərkən deyib. A.Dzikus bildirib ki, plastik çirklənmənin böyük hissəsi şəhərlərdə və ya onların ətrafında formalaşır. Onun sözlərinə görə, buna istehlak vərdişləri, tullantıların toplanması sisteminin zəifliyi, qeyri-qanuni tullantıların atılması, habelə çeşidləmə, təkrar istifadə və emal üçün kifayət qədər infrastrukturun olmaması səbəb olur: "UN-Habitat üçün başlanğıc nöqtəsi aydındır: resursların dayanıqlı idarə edilməsi olmadan şəhərlərin dayanıqlı gələcəyini təmin etmək qeyri-mümkündür. Şəhərlər yalnız tullantıların yarandığı yerlər deyil, həm də effektiv həll yollarının hazırlandığı, sınaqdan keçirildiyi və tətbiq edildiyi məkanlardır. Tullantılarını düzgün idarə edən şəhər, eyni zamanda daha yaxşı planlaşdırılan, ictimai sağlamlığı yüksək səviyyədə qoruyan, öz icmalarına keyfiyyətli xidmət göstərən və resurslardan daha səmərəli istifadə edən şəhərdir. Bu baxımdan, plastik çirklənmə ilə mübarizə ikinci dərəcəli məsələ deyil. Bu, yığcam, inteqrasiya olunmuş, inklüziv və yaşamaq üçün əlverişli şəhərlərin qurulmasının mühüm tərkib hissəsidir", - deyə o əlavə edib.

### Rasix SAQİTOV: "Dağ şəhərlərində dayanıqlılıq prinsipi infrastruktur planlaşdırılmasının əsasını təşkil etməlidir"



"Dağlıq ərazilərdə yerləşən şəhərlərin inkişafı zamanı əsas prioritet təhlükəsizlik və infrastruktur dayanıqlılığı olmalıdır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Birləşmiş Şəhərlər və Yerli Hakimiyyətlər" Beynəlxalq Assosiasiyasının baş katibi Rasix Saqitov Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda tədbirdə çıxışı zamanı səsləndirib. O bildirib ki, Qırğızıstanın Narın şəhəri yüksək dağ silsilələri ilə əhatələnmiş çətin coğrafi şəraitdə yerləşir və müxtəlif təbii risklərlə üz-üzədir: "Şəhər nəqliyyat əlçatmazlığı, sərt iqlim şəraiti, güclü qar yağışları, daşqınlar, sel, torpaq sürüşmələri və qar uçqunları kimi ciddi çağırışlarla qarşılaşır. 2022-ci ilin may ayında Narın şəhərində beşillik şəhər dayanıqlılığı proqramı qəbul olunub. Proqramın əsas məqsədi Narını Mərkəzi Asiyanın mürəkkəb dağlıq şəraitində iqtisadi, sosial və mədəni baxımdan inkişaf edə bilən dayanıqlı şəhərə çevirməkdir", - deyə o bildirib.

### Valeriya LEVKOV: "Dünya əhalisinin demək olar ki, yarısı gündə 7 dollardan az gəlirlə yaşayır"



"Dünya əhalisinin demək olar ki, yarısı gündə 7 ABŞ dollarından az gəlirlə yaşayır, yetkin yaşlı əhalinin isə 93 faizinin rəsmi mənzil maliyyələşdirilməsinə çıxış imkanı yoxdur".

AZƏRTAC xəbər verir ki, bunu Dünya Bankı Qrupunun infrastruktur üzrə vitse-prezidenti Valeriya Levkov BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Qlobal mənzil maliyyələşdirilməsindən yerli əlçatan mənzil gündəliyinə: Qlobal inkişaf və submilli maliyyələşdirmədən istifadə" adlı tədbirdə çıxış edərkən deyib. Vitse-prezident diqqətə çatdırıb ki, inkişaf etməkdə olan iqtisadiyyatlarda torpaq sahələrinin təxminən 70 faizinin qeydiyyatdan keçmədiyi təxmin edilir: "Milli və yerli hökumətlərin əksəriyyətinin bu problemi təkbaşına həll etmək üçün nə kifayət qədər potensialı, nə də maliyyə resursları var. Əslində, onlar bu çətinliyin öhdəsindən təkbaşına gəlmək məcburiyyətində də deyillər. Buna görə də qlobal mənzil probleminin həlli üçün özəl kapital və investisiyaları səfərbər edən, eyni zamanda səmərəli dövlət siyasəti ilə dəstəklənən genişmiqyaslı mexanizmlərin qurulmasına ehtiyac var".

### Yves-Laurent SAPOVAL: "Hökumətlərə mənzil təminatı üçün dayanıqlı ekosistemlərin qurulmasında dəstək verməliyik"



"Biz 50 ildən artıqdır ki, mənzil sektorunda fəaliyyət göstəririk. 100-dən çox ölkəyə 24 milyard Amerika Birləşmiş Ştatları dollarından artıq investisiya və məsləhət xidmətləri ilə dəstək vermişik".

AZƏRTAC xəbər verir ki, bunu Dayanıqlı Şəhərlər üzrə "Mission Bouygues International" təşkilatının prezidenti Yves-Laurent Sapoval WUF13 çərçivəsində keçirilən "Qlobal Mənzil Maliyyələşdirilməsindən Yerli Əlçatan Mənzil Gündəliyinə: Qlobal İnkişaf və Submilli Maliyyələşdirmədən İstifadə" adlı tədbirdə çıxış edərkən deyib. O qeyd edib ki, siyasət üzrə məsləhətləri, dövlət investisiyalarını, özəl sektor maliyyələşməsini və risklərin azaldılması alətlərini bir araya gətirməklə, əlçatan mənzil sektoruna özəl investisiyaların yönəlməsi üçün uyğun şərait yarada bilərik: "İkincisi, bu, layihədən-layihəyə yanaşmadan proqram əsaslı və genişmiqyaslı yanaşmaya keçmək deməkdir. Biz 3 milyard insanı əhatə edən böhranı kiçik pilot layihələrlə həll edə bilmərik. Hökumətlərə mənzil maliyyələşməsi və mənzil təminatı üçün dayanıqlı ekosistemlərin qurulmasında dəstək verməliyik. Bu isə torpaq idarəçiliyi, mülkiyyət hüquqları, şəhərsalma qaydaları, tikinti normaları və maliyyə bazarı infrastrukturunun eyni vaxtda inkişaf etdirilməsi deməkdir. Üçüncüsü isə texnologiya və innovasiyalardan istifadə etməkdir. İstər tikinti və istismar xərclərini azaltmaq üçün "yaşıl" tikinti texnologiyalarından istifadə olsun, istərsə də əmlak qeydiyyatı və kredit qiymətləndirilməsi üçün rəqəmsal alətlərdən yararlanmaq - texnologiya köhnə maneələri aradan qaldırmaq üçün yeni imkanlar yaradır. Heç bir qurum bu böhranı təkbaşına həll edə bilməz. Bizə əməkdaşlığa hazır olan tərəflərin geniş koalisiyası lazımdır. Əlçatan və dayanıqlı mənzil təminatı üçün qlobal hərəkat yaratmaq məqsədilə biliklərimizi, resurslarımızı və alətlərimizi birləşdirməliyik".

### Birgit PİCKEL: "Əlilliyi olan şəxslərin yarıdan çoxu şəhərlərdə yaşayır"



"Dünyadakı 1,3 milyard əlilliyi olan şəxsin yarısından çoxu şəhərlərdə yaşayır. Əlçatmaz tikili mühit, sosial təcrid və şəhər idarəçiliyində zəif təmsilçilik o deməkdir ki, bu şəxslər şəhərsalmanın inkişafında da hələ də çox vaxt geridə qalırlar. Nəticə etibarilə bunu nəzərə almaq üçün hər şey, əslində, planlaşdırma mərhələsindən başlamalıdır".

AZƏRTAC xəbər verir ki, bunu Almaniya İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyində Davamlı İnkişaf və İqlim üzrə baş direktor Birgit Pickel Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Qlobal Əlillik Fondu (UNGDF) və Almaniya Hökumətinin birgə təşkilatçılığı ilə "Təhlükəsiz, dayanıqlı və inklüziv şəhərlərin qurulması üçün katalitik maliyyələşdirmə və dəstək" mövzusunda keçirilən panel sessiyada bildirib. O qeyd edib ki, şəhərlərdə inklüzivliyin təmin olunması, həmçinin təhlükəsiz və dayanıqlı mühitlərin qurulması üçün katalizator rolunu oynayan maliyyələşmə kimi vacib bir məsələ ətrafında birlikdə düşünmək olduqca əhəmiyyətlidir: "Əlilliyi olan şəxslər cəmiyyətimizin çox vaxt tanınmayan böyük bir hissəsidir. Onlar çox vaxt görünmürlər və nəticədə, diqqətdən kənarda qalırlar. Həmçinin əlilliyi olan şəxslərin adından fəaliyyət göstərən və ya onları təmsil edən təşkilatlar da çox vaxt daha az görünür və bəlkə də, daha az təsir gücünə malik olurlar. Ona görə də, şəhərlər kontekstində inklüzivlik kimi vacib bir məsələyə diqqət çəkmək üçün bu gün burada bu müzakirəni aparmaq çox yaxşıdır". O bildirib ki, bu gün dünya əhalisinin təxminən 45 faizi şəhərlərdə yaşayır.

### Claudia BARANZELLİ: "Dayanıqlı şəhərlər üçün təbiət əsaslı həllərin inteqrasiyası vacibdir"



"Maliyyə və investisiyalar sahəsində mümkün olduğu qədər özəl sektor vəsaitlərinin də səfərbər olunması vacibdir. Çünki yalnız dövlət sektoru bütün ehtiyacları qarşılaya bilməz. Eyni zamanda monitorinq və qiymətləndirmə sistemləri də gücləndirilməlidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İqtisadi Təhlil, Məlumat və Statistika Bölməsinin Geoməkan Təhlili Laboratoriyasının koordinatoru Claudia Baranzelli BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Dayanıqlı Şəhər İnkişafı üçün Tranzit Yönümlü İnkişaf (TOD) və Şəhərlərin Yaşıl Transformasiyası" mövzusunda sessiyada çıxışı zamanı deyib. O qeyd edib ki, təbiət əsaslı həllər sonradan əlavə olunan yanaşma kimi qəbul edilməməlidir: "Onlar mütləq şəkildə qərar qəbuletmə proseslərinə inteqrasiya olunmalıdır. Bu isə həm layihələrin seçimi, həm də ictimai fəaliyyət və performans meyarlarının nəzərə alınması deməkdir, yəni bu prinsiplər bütün planlaşdırma mərhələlərində tətbiq edilməlidir. Bu yanaşma şəhərlərin çoxölçülü şəkildə və zamanla necə fəaliyyət göstərdiyini daha dərindən təhlil etmək üçün etibarlı bilik bazası yaradır. Bu kimi məlumat mənbələrinə OECD-nin yerli məlumat portalı vasitəsilə də çıxış etmək mümkündür", - deyə o əlavə edib.

### Boriy ALIXANOV: "Dağ yaşayış məntəqələrinin inkişafı mühüm istiqamətlərdən biridir"



"Dağ yaşayış məntəqələrinin davamlı inkişafı ekoloji təhlükəsizliyin təmin olunması, yaşıl iqtisadiyyatın genişləndirilməsi və sosial rifahın yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının komitə üzvü Boriy Alıxanov Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda tədbirdə çıxışı zamanı səsləndirib.

O bildirib ki, Özbəkistanda ekoloji qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılır, yeni ekoloji düşüncə formalaşdırılır və əhalinin ekoloji mədəniyyətinin yüksəldilməsi istiqamətində geniş iş aparılır: "2030-cu ilədək yaşıl iqtisadiyyata keçid strategiyası və "Özbəkistan - 2030" proqramı bu istiqamətdə əsas inkişaf sənədləridir. 2023-cü ilin sentyabrında qəbul edilən və 2026-cı ilədək təkmilləşdirilməsi nəzərdə tutulan proqram yoxsulluğun iki dəfə azaldılması, iqtisadiyyatın rəqəmsallaşdırılması, dayanıqlı inkişafın təmin edilməsi, iqlim dəyişiklikləri və su çatışmazlığı ilə mübarizəni əhatə edir", - deyə o bildirib.

### Aleksey LAVRİNENKO: "Dağlıq ərazilərin inkişafı üçün davamlı dövlət dəstəyi mexanizmləri formalaşdırılmalıdır"



"Dağlıq yaşayış məntəqələrinin inkişafı nəqliyyat, enerji, səhiyyə və rəqəmsal kommunikasiya sahələrində kompleks yanaşmaların tətbiqini tələb edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Aqrar məsələlər komitəsinin üzvü, MDB Parlamentlərarası Assambleyasının Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə daimi komissiyası sədrinin müavini Aleksey Lavrinenko Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda tədbirdə çıxışı zamanı səsləndirib.

O bildirib ki, dağlıq ərazilərin əlçatmazlığı həmin bölgələrdə yaşayan əhalinin sosial təminatı baxımından ciddi çətinliklər yaradır: "Bu ərazilərdə nəqliyyat, enerji, tibbi xidmət və digər mühüm sahələr üzrə təminat məsələləri xüsusi aktuallıq daşıyır. Eyni zamanda mədəni mərkəzlərdən uzaqlıq, rəqəmsal və digər müasir kommunikasiya vasitələrinin çatışmazlığı da mühüm problemlərdəndir. Bu mürəkkəb problemlərin həlli üçün dövlət və bələdiyyə idarəetməsində xüsusi yanaşmalar və mexanizmlər formalaşdırılmalıdır", - deyə o bildirib.

### Somsook BOONYABANCHA: "İcmalar dəyişiklik yaratmağa qadirdir"



"Təqribən 50 illik şəxsi təcrübəmə əsasən, deyə bilərəm ki, qeyri-formal yaşayış məskənləri ilə bağlı məsələləri yeni bir üsulla, insanlarla birlikdə və geniş miqyasda həll edə bilərik".

AZƏRTAC xəbər verir ki, bu sözləri "Dünyada mənzil üçün qeyri-rəsmi yaşayış məntəqələrinin və gecəqonduların dəyişdirilməsi" adlı tədbirdə Asiya Mənzil Hüquqları Koalisiyasının baş katibi Somsook Boonyabancha deyib: "Biz burada yalnız ayrı-ayrı tikinti və ya fərdi layihələrdən deyil, genişmiqyaslı dəyişiklik prosesindən danışırıq. Sizi əmin edirəm ki, dünyanın harasında olursa-olsun, icmalar bu dəyişiklikləri həyata keçirməyə qadirdir. Hətta ən yoxsul insanlar belə dəyişmək istəyir və bunu bacarır. Buna görə də insanların bu prosesdə fəal rolunu nəzərə almalı, onları dəyişikliklərin əsas iştirakçısına çevirən həll yolları tapmalıyıq", - deyə baş katib vurğulayıb.

### Ədib BENBRAHİM: "Tarixi binaların ruhu və şəhərin mədəni yaddaşı mütləq şəkildə saxlanılmalıdır"



"Şəhərləri reqenerasiya edən zaman bəzi hallarda radikal həll yollarına ehtiyac yaranır. Bununla belə, tarixi binaların ruhu və şəhərin mədəni yaddaşı mütləq şəkildə saxlanılmalıdır".

AZƏRTAC xəbər verir ki, bunu Mərakeş Krallığında Milli Ərazi, Şəhərsalma, Mənzil Təsərrüfatı və Şəhər Siyasəti üzrə Nazirin Mənzil məsələlərinə cavabdeh Dövlət katibi Ədib Benbrahim BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Mədəni irsin və inklüziv şəhər reqenerasiyasının yenidən düşünülməsi" mövzusunda keçirilən panel sessiya zamanı deyib. O bildirib ki, tarixi məhəllələrdə nəqliyyat sisteminin təkmilləşdirilməsi, ictimai infrastrukturun gücləndirilməsi və işsizlik problemlərinin həlli istiqamətində addımlar atılmalıdır. "Mədəni irsin qorunması ilə yanaşı, həmin ərazilərdə iqtisadi və sosial fəaliyyətlərin inkişafı da vacibdir. Əgər hər hansı bina yenidən inşa edilirsə, bu zaman şəhərin tarixi kimliyi və memarlıq üslubu mütləq nəzərə alınmalıdır",- deyə dövlət katibi əlavə edib.

### Lindsay NEELEY: "Dövlət dəstəyi ilə həyata keçirilən əlçatan mənzil layihələrinin tikintisi böyük əhəmiyyət daşıyır"



"Dövlət dəstəyi ilə həyata keçirilən əlçatan mənzil layihələrinin tikintisi böyük əhəmiyyət daşıyır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri WUF13 çərçivəsində keçirilən "Business Roundtable" sessiyasında çıxış edən Kanada Mənzil və İpoteka Korporasiyasının (CMHC) siyasət üzrə vitse-prezidenti Lindsay Neeley səsləndirib. O bildirib ki, Kanadada da mənzil əlçatanlığı ilə bağlı ciddi problemlər mövcuddur. Onun sözlərinə görə, xüsusilə mənzillərin bazar qiymətləri ilə vətəndaşların maliyyə imkanları arasında böyük fərq yaranıb və bu problem bir çox ölkələr üçün aktual olaraq qalır. Lindsay Neeley qeyd edib ki, ipoteka kreditlərinin sığortalanması və mənzil layihələrinin maliyyələşdirilməsi məqsədilə özəl investisiyaların cəlb olunmasına xüsusi önəm verilir. Bununla belə, o dövlət dəstəyi olmadan əlçatan mənzil probleminin həllinin mümkün olmadığını vurğulayıb. Çıxış zamanı bildirilib ki, hazırda mənzil təminatı çatışmazlığı artıq böyük miqyas alıb və əlçatanlığın bərpası üçün hər il çoxlu sayda yeni yaşayış evlərinin tikintisinə ehtiyac var. Eyni zamanda dövlət xaricində əlavə maliyyə mənbələrinin bu sahəyə cəlb edilməsinin hələ də çətin olaraq qaldığı diqqətə çatdırılıb.

### Musadik MALİK: "İqlim böhranının yaratdığı kütləvi miqrasiya ciddi sosial problemlərə səbəb olur"



"İqlim böhranının yaratdığı kütləvi miqrasiya ciddi sosial problemlərə səbəb olur. Mövcud yanaşma və mexanizmlər artıq effektiv nəticə vermir".

AZƏRTAC xəbər verir ki, bu barədə Pakistanın iqlim dəyişikliyi naziri Musadik Malik Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan biznes dəyirmi-masasında deyib. Nazir bildirib ki, təbii fəlakətlər və dağıntılar nəticəsində milyonlarla insan yaşayış yerini itirib və bu, ciddi mənzil çatışmazlığı yaradıb. Hazırda ölkədə təxminən 10 milyon mənzilə ehtiyac olduğu qeyd edilib. Musadik Malik bildirib ki, təxminən 52 milyon insan mənzil baxımından həssas vəziyyətdə yaşayır. Bəzi hallarda hesablamalar, qiymətləndirmələr və məlumat araşdırmaları aylarla, hətta illərlə davam edir. Bu müddətdə isə uşaqlar və ailələr ağır yaşayış şəraitində qalmaqda davam edir.

### Vasil MAZİTOV: "Dağlıq ərazilərin potensialı rəqəmsallaşdırılmalı və investisiya modelinə çevrilməlidir"



"Dağlıq ərazilərin davamlı inkişafı üçün onların iqtisadi potensialının ölçülməsi, rəqəmsallaşdırılması və uzunmüddətli inkişaf strategiyalarının hazırlanması xüsusi əhəmiyyət daşıyır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ərazilərin İnkişafı üzrə Beynəlxalq Assosiasiyanın sədri Vasil Mazitov Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda tədbirdə çıxışı zamanı səsləndirib: "Hazırda MDB ölkələrində bir çox dağlıq ərazilərin kapitallaşma səviyyəsi aşağıdır. Bu isə həmin ərazilərdə potensialın olmaması ilə deyil, potensialın ölçülməməsi və rəqəmsal modellərə çevrilməməsi ilə bağlıdır", - deyə Vasil Mazitov vurğulayıb. O qeyd edib ki, dağlıq ərazilərdə inkişafla bağlı hər hansı yanlış qərarın nəticələri düzənlik ərazilərlə müqayisədə daha ciddi ola bilər. Buna görə də burada planlaşdırma və proqnozlaşdırma xüsusi əhəmiyyət daşıyır.

### Haris PİPLAS: "Planlaşdırma sadəcə bir rəsm və ya strategiya ilə bitmir, o, nəsillər boyu icra olunmalıdır"



"Planlaşdırma, enerji mövzuları, mobillik, su idarəçiliyi, biomüxtəliflik və rəqəmsal aspektləri bir araya gətirmək olduqca önəmlidir".

AZƏRTAC xəbər verir ki, bunu İsveçrə Federal Texnologiya İnstitutunun nümayəndəsi Haris Piplas Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Praktiki şəhər transformasiyası: Təhlükəsiz və dayanıqlı icmalar üçün şəhər təcrübələri" adlı tədbirdə deyib. O bildirib ki, ATƏT regionundakı 10 fərqli hədəf şəhər üçün bir sıra profillərin hazırlanması üzərində işləyirlər. Bu şəhərlərdə sözügedən çoxölçülü çətinliklərlə bağlı mövcud vəziyyət olduğu araşdırılır. Planlaşdırma sadəcə bir rəsm və ya strategiya ilə bitmir, o, nəsillər boyu icra olunmalıdır.

*Hazırladı:*
*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM



# Milli ornamentlərlə əhatələnən forum

**Bakıda 2026-cı ilin ən mühüm beynəlxalq tədbirlərindən biri olan 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) davam edir. BMT-nin Məskunlaşma Proqramı - UN-Habitat və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçirilən forum dünyanın urbanizasiya gündəmini müəyyən edən ən nüfuzlu platformalardan biridir. Bakı forumu "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu ətrafında çağırışları və gələcək inkişaf strategiyalarını müzakirə etmək məqsədi daşıyır. Dünyanın 182 ölkəsindən 45 mindən artıq iştirakçının qeydiyyatdan keçməsi isə forumun miqyasını və beynəlxalq əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.**

Forumun keçirildiyi ilk gündən etibarən paytaxtımız tamamilə fərqli bir ab-havaya bürünüb. Şəhərin müxtəlif nöqtələrində yerləşdirilən forum simvolları, beynəlxalq nümayəndə heyətlərinin intensiv hərəkəti, müxtəlif dillərdə danışan insanların gəzintisi Bakının qlobal dialoq məkanına çevrildiyini hiss etdirir. Tədbirin əsas ünvanlarından biri olan Bakı Olimpiya Stadionu ətrafına yaxınlaşdıqca isə forumun miqyası daha aydın görünür. Stadionun ətrafında yaradılan xüsusi infrastruktur, təhlükəsizlik tədbirləri, böyük media platformaları və beynəlxalq pavilyonlar burada dünyanın ən böyük şəhərsalma tədbirlərindən birinin keçirildiyini nümayiş etdirir.

Forum məkanına daxil olan ziyarətçiləri ilk olaraq Azərbaycanın milli-mədəni irsini əks etdirən dekorativ elementlər qarşılayır. Ərazidə istifadə olunan vizual konsepsiya qədim milli ornamentlərlə müasir memarlıq estetikasını birləşdirir. Giriş hissəsindən başlayaraq, buta naxışlı dekorlar, xalça motivləri, milli ornamentli pərdələr və Azərbaycan mədəniyyətinə aid simvollar diqqəti cəlb edir. Burada məqsəd yalnız beynəlxalq tədbir keçirmək deyil, həm də ölkənin zəngin tarixini, mədəniyyətini və milli kimliyini xarici qonaqlara təqdim etməkdir.

Forum zonasının ümumi sahəsi 53 hektarı əhatə edir. Bu ərazidə plenar iclas zalları, sərgi pavilyonları, media mərkəzləri, innovasiya məkanları, açıq hava platformaları və müxtəlif müzakirə sahələri qurulub. Açılış və bağlanış mərasimlərinin keçirildiyi əsas zal eyni vaxtda 6 min nəfəri qəbul etmək imkanına malikdir. Gün ərzində burada müxtəlif sessiyalar, panel müzakirələri, təqdimatlar və tematik tədbirlər təşkil olunur. Şəhərsalma sahəsində fəaliyyət göstərən ekspertlər, memarlar, urbanistlər, investorlar, dövlət rəsmiləri, beynəlxalq təşkilat nümayəndələri və ekologiya üzrə mütəxəssislər bir araya gələrək gələcəyin şəhərlərinin necə qurulmalı olduğunu müzakirə edirlər.

Forumun əsas diqqət mərkəzində dayanıqlı inkişaf və urbanizasiya problemləri dayanır. İqlim dəyişikliklərinin şəhərlərə təsiri, "yaşıl enerji" mənbələrinin genişləndirilməsi, ekoloji tarazlığın qorunması, rəqəmsal transformasiya, əlçatan nəqliyyat sistemləri və inklüziv şəhər mühiti tədbirin aparıcı mövzularındandır. Sessiyalarda xüsusilə sürətlə artan şəhər əhalisinin yaratdığı problemlər, yaşayış sahələrinin çatışmazlığı, ekoloji risklər və gələcək urbanizasiya modelləri ətrafında geniş fikir mübadiləsi aparılır. Dünyanın müxtəlif regionlarından gələn nümayəndələr öz ölkələrinin təcrübələrini təqdim edir, şəhərlərin inkişafında tətbiq olunan innovativ yanaşmalar haqqında məlumat verirlər.

Forum yalnız müzakirə platforması deyil, eyni zamanda müxtəlif mədəniyyətlərin qovuşduğu böyük beynəlxalq məkandır. Burada dünyanın fərqli ölkələrindən olan insanlar bir-biri ilə ünsiyyət qurur, təcrübə paylaşır və əməkdaşlıq imkanlarını müzakirə edirlər. Sərgi zonalarında yerləşən pavilyonlarda müxtəlif dövlətlərin şəhərsalma layihələri, texnoloji yenilikləri və urban inkişaf konsepsiyaları nümayiş etdirilir. Bəzi pavilyonlarda "ağıllı şəhər" texnologiyaları təqdim olunur, digərlərində isə ekoloji həllər, "yaşıl memarlıq" layihələri və alternativ enerji sistemləri nümayiş etdirilir.

Azərbaycan pavilyonu isə forum iştirakçılarının ən çox maraq göstərdiyi məkanlardan biridir. Burada ölkənin milli-mədəni irsi, memarlıq ənənələri və müasir inkişaf modeli bir arada təqdim olunur. Pavilyonda Azərbaycanın qədim şəhərsalma ənənələri ilə yanaşı, son illərdə həyata keçirilən genişmiqyaslı quruculuq layihələri də nümayiş etdirilir. Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işləri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, "yaşıl enerji" layihələri xarici qonaqlarda xüsusi maraq doğurur.

Sərgi ərazisində Azərbaycanın regionlarına aid milli geyim nümunələri də nümayiş olunur. Lahıc, Quba, Şirvan, Zaqatala, Qarabağ və Naxçıvan bölgələrinin milli geyimləri qədim sənətkarlıq ənənələrinin canlı nümunəsi kimi təqdim edilir. Hər bir geyimin yanında onun hazırlanma texnologiyası, istifadə olunan materiallar və üzərindəki ornamentlər barədə məlumat lövhələri yerləşdirilib. Ziyarətçilər geyimlərdəki zərif tikmə elementlərini, qədim toxuculuq sənətinin incəliklərini və zərgərlik nümunələrini yaxından izləyirlər.

Ən böyük maraq doğuran məkanlardan biri də xalçaçılıq guşəsidir. Burada peşəkar xalça ustaları öz əl işlərini nümayiş etdirir, qonaqlara Azərbaycan xalçaçılıq sənətinin tarixindən danışırlar. Xarici ziyarətçilər yalnız sərgiyə baxmaqla kifayətlənmir, eyni zamanda toxuculuq prosesində iştirak etməyə dəvət olunurlar. Xalçaçı xanımlar ilmələrin necə vurulduğunu, naxışların necə formalaşdığını izah edir, qonaqlar isə bu qədim sənətin incəliklərini öyrənməyə çalışırlar. Bu guşə forum iştirakçıları üçün həm maarifləndirici, həm də maraqlı milli mədəni təcrübənin bölüşməsinə çevrilib.



















Sərgi boyunca milli geyimli gənclər xarici qonaqları qarşılayır, onlara Azərbaycan mədəniyyəti, adət-ənənələri və tarixindən ətraflı məlumat verirlər. Müxtəlif dillərdə ünsiyyət quran könüllülər forumun ən fəal iştirakçıları sırasında yer alırlar. Onlar qonaqlara tədbir məkanında istiqamət göstərir və Azərbaycan haqqında sualları cavablandırırlar. Forumun beynəlxalq xarakteri gənclərin kommunikasiya bacarıqlarını nümayiş etdirməsi üçün də geniş imkan yaradıb.

İştirakçıların xüsusi maraq göstərdiyi pavilyonlardan biri də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən təşkil olunan ekspozisiyadır. "İnklüzivlik və Yaradıcılığın Qovuşduğu Məkan" adı altında təqdim olunan pavilyonda mərkəzin təlimçiləri və benefisiarlarının hazırladığı yaradıcılıq nümunələri nümayiş etdirilir. Burada keramika, vitraj, bədii oyma, rəsm və dekorativ-tətbiqi sənətin müxtəlif istiqamətlərinə aid əl işləri sərgilənir. Pavilyonda Azərbaycanın tarixi memarlıq nümunələrini əks etdirən sənət əsərləri xüsusilə diqqət çəkir.

Mərkəzin fotoqrafiya istiqaməti üzrə hazırladığı xüsusi sərgi də ziyarətçilərin böyük marağına səbəb olub. Burada Bakının tarixi küçələri, müasir memarlıq nümunələri və paytaxtın urbanistik mənzərəsini əks etdirən fotolar nümayiş olunur. Şəhərin qədim və müasir simasının eyni sərgidə təqdim edilməsi Bakıdakı inkişaf dinamikasını aydın şəkildə göstərir.

Forum çərçivəsində hər gün müxtəlif master-klaslar təşkil olunur. Ziyarətçilər burada keramika hazırlanması, rəsm, xalçaçılıq, dekorativ sənət nümunələrinin işlənməsi və digər yaradıcılıq proseslərində iştirak edə bilirlər. Ən çox maraq doğuran məqamlardan biri isə xarici qonaqların bu proseslərə böyük həvəslə qoşulmasıdır. Onlar Azərbaycan sənətkarları ilə birlikdə müxtəlif əl işləri hazırlayır, milli mədəniyyətin bir parçasına çevrilirlər.

Tədbirin ən rəngarəng hissələrindən biri isə musiqi proqramlarıdır. Azərbaycan pavilyonunda gün ərzində milli musiqilər səsləndirilir, canlı ifalar təqdim olunur. Tar, kamança və nağara sədaları sərgi məkanına xüsusi ab-hava qatır. Xarici qonaqlar milli musiqiləri maraqla dinləyir, yerli iştirakçılarla birlikdə rəqs edirlər. Musiqi proqramları forumun rəsmi hissəsinə mədəni rəng qatmaqla yanaşı, Azərbaycan mədəniyyətinin beynəlxalq auditoriyaya təqdimatında mühüm rol oynayır.

Forum iştirakçılarının diqqət çəkdiyi məqamlardan biri də Azərbaycanın müasir inkişaf modelinin təqdimatıdır. Pavilyonlarda ölkədə həyata keçirilən infrastruktur layihələri, yeni yaşayış kompleksləri, nəqliyyat sistemləri və ekoloji təşəbbüslər haqqında məlumat verilir. Xüsusilə azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma layihələri beynəlxalq qonaqlarda böyük maraq doğurur. Burada təqdim olunan maketlər və rəqəmsal təqdimatlar gələcəyin şəhərlərinin necə formalaşdırıldığını əyani şəkildə göstərir.

"WUF13" yalnız şəhərsalma forumu deyil, həm də beynəlxalq əməkdaşlıq platformasıdır. Tədbir çərçivəsində müxtəlif ölkələrin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilir, yeni tərəfdaşlıqlar qurulur və birgə layihələr müzakirə olunur. Bir çox beynəlxalq şirkətlər və investorlar forumu gələcək əməkdaşlıqlar üçün mühüm imkan kimi qiymətləndirirlər. Burada təqdim olunan innovativ həllər və urban inkişaf layihələri gələcək illərdə müxtəlif ölkələrdə tətbiq oluna biləcək yeni yanaşmaların əsasını təşkil edir.

Şəhərin böyük beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi Azərbaycanın təşkilati imkanlarını və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirir. Xarici qonaqların böyük hissəsi Bakının təhlükəsizliyi, şəhər infrastrukturu, təmizliyi və müasir görünüşü haqqında müsbət fikirlər səsləndirirlər. Forum günlərində paytaxt dünyanın müxtəlif ölkələrindən gələn minlərlə insanın görüş nöqtəsinə çevrilib.

Forum çərçivəsində aparılan müzakirələr göstərir ki, gələcəyin şəhərləri yalnız böyük binalar və müasir texnologiyalar üzərində qurulmur. Burada əsas məsələ insan amili, sosial inklüzivlik, ekoloji təhlükəsizlik və dayanıqlı inkişafdır. Forum iştirakçıları hesab edirlər ki, gələcəyin şəhərləri həm texnoloji, həm ekoloji, həm də sosial baxımdan balanslı olmalıdır. Bu baxımdan, Bakıda keçirilən forum qlobal urbanizasiya gündəliyinin formalaşdırılmasına mühüm töhfə verir.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Azərbaycan sürətli və innovativ quruculuq modelləri təqdim edən dövlət kimi tanınır

## WUF13-ün Bakıda keçirilməsi bunu bir daha təsdiqlədi



**Azərbaycan Prezidenti İlham Əliyevin mayın 18-də Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimindəki geniş və konseptual çıxışı qlobal çağırışlar və regional reallıqlar baxımından mühüm məqamlarla yadda qaldı. Dövlətimizin başçısı Bakıda təşkil olunan mötəbər tədbirin qeydiyyata alınmış çoxlu iştirakçı ilə rekord göstəriciyə imza atdığını vurğuladı. Forumun öz miqyasına görə ölkəmizdə keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq humanitar platforma olduğu diqqətə çatdırıldı. "Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq. Bu səhər mənə verilən məlumata görə, 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçımız var. Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq", - deyə Prezident İlham Əliyev bildirmişdi.**

Ölkəmizin coğrafi və mədəni mövqeyinə toxunan Prezident İlham Əliyev Bakının Avropa ilə Asiyanın, Şərq ilə Qərbin qovuşduğu unikal məkana çevrildiyini, İçərişəhərin qədim divarları ilə müasir şəhərsalma arxitekturasının harmoniyasını xüsusi qeyd etdi. Dövlətimizin başçısı şəhərlərin müasirləşməsi prosesində tarixi irsin qorunmasının zəruriliyini önə çəkdi: "Əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz".

Prezident İlham Əliyevin çıxışının mühüm regional xəttini işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması strategiyası təşkil etdi. Dövlətimizin başçısı çıxışında vurğuladı ki, hazırda hökumətin qarşısında duran əsas vəzifə bu ərazilərin yeni konsepsiyalar əsasında sıfırdan bərpasıdır: "İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir". Azərbaycan Prezidenti diqqətə çatdırdı ki, hazırda Böyük qayıdış proqramı həyata keçirilir, şəhər və kəndlərin baş planları hazırlanır.

Dövlətimizin başçısının WUF13 tribunasından səsləndirdiyi bəyanatlar təsdiqləyir ki, müasir dövrdə şəhərsalma insan amili, ekoloji təhlükəsizlik və gələcək nəsillərin rifahı arasında balans yaradan fundamental strateji hədəfdir. Bu kontekstdə vaxtilə neft sənayesinin ekoloji cəhətdən ağır mirasını daşıyan "Qara şəhər"in hazırda "Ağ şəhər" layihəsi timsalında regional miqyaslı modern urbanizasiya modelinə çevrilməsini xüsusi qeyd etmək olar. Keçmişdə sənaye tullantıları ilə tanınan ərazi bu gün paytaxtın daxilində tamamilə yeni və cazibədar yaşayış mühiti formalaşdırıb. Bu böyük transformasiya qətiyyətli siyasi iradənin, uzaqgörən iqtisadi kursun və estetik şəhər mədəniyyətinin harmonik vəhdətidir. Bakı öz tarixi keçmişini silmədən, onu müasir tələblərə uyğun şəkildə yenidən generasiya etməyi bacarıb.

Çağdaş memarlığın vacib prioritetlərindən biri də sakinlərin həyat standartlarının yüksəldilməsidir. Son illərdə paytaxtda istifadəyə verilən çoxsaylı parklar, yenidən qurulan kütləvi istirahət məkanları və geniş yaşıllıq zolaqları paytaxtımıza sanki yeni nəfəs bəxş edib. Bir çox qlobal mərkəzlərdə "ekoloji şəhər" ideyası hələ də nəzəri müzakirə mərhələsində olduğu halda, Bakı bu konsepsiyanın praktiki elementlərini artıq öz gündəlik həyatına inteqrasiya edib.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının məhz Bakıda gerçəkləşməsi təsadüfi xarakter daşımır. WUF13-ün ölkəmizdə keçirilməsinin fundamental səbəbi Azərbaycanın Cənubi Qafqaz regionunun şəksiz lideri olmaqla yanaşı, qlobal miqyasda ən sürətli və innovativ yenidənqurma modelləri reallaşdıran bir ölkə kimi qəbul edilməsidir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında şəhər və kəndlərin bərpası nümunəvi quruculuq və urbanizasiya prosesidir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda 85 mindən artıq vətəndaşımız yaşayır, çalışır və təhsil alır. Bu da təbii olaraq qlobal tərəfdaşlarımızın və beynəlxalq institutların diqqətindən yayınmır.

Azərbaycan öz ərazilərini qarış-qarış bərpa etməklə yanaşı, bu sahədə əldə etdiyi təcrübəni münaqişələrdən zərər çəkmiş digər xalqlarla bölüşməyə də hazırdır. Məhz bu prizmadan yanaşdıqda, WUF13-ün qlobal əhəmiyyəti daha qabarıq görünür. Elə forumun start götürdüyü ilk saatlarda Suriya, Ukrayna və digər böhranlı bölgələrin nümayəndələri ilə Qarabağda tətbiq olunan bərpa modellərinin dərindən müzakirə edilməsi bu fikrin əyani sübutudur.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# "Dayanıqlı Şəhər İnkişafı üçün Tranzit Yönümlü İnkişaf (TOD) və Şəhərlərin Yaşıl Transformasiyası"

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Dayanıqlı Şəhər İnkişafı üçün Tranzit Yönümlü İnkişaf (TOD) və Şəhərlərin Yaşıl Transformasiyası" mövzusunda sessiya keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir Yaponiyanın Torpaq, İnfrastruktur, Nəqliyyat və Turizm Nazirliyi və UN-Habitatın (BMT-nin Məskunlaşma Proqramı) Asiya və Sakit Okean üzrə Regional Ofisi (ROAP) tərəfindən təşkil olunub.

Tədbirdə müxtəlif ölkələrdən olan ekspertlərin iştirakı ilə dayanıqlı şəhər inkişafı, ictimai nəqliyyatyönümlü şəhərsalma modelləri, şəhərlərdə yaşıl məkanların genişləndirilməsi, iqlim dəyişikliklərinə qarşı tədbirlər və urbanizasiya problemlərinin həlli yolları müzakirə olunub.

Sessiyada çıxış edən BMT-nin Hindistandakı rezident-əlaqələndiricisi Ştefan Prisner bildirib ki, hazırda Hindistanın şəhər mərkəzlərində təxminən 500 milyon insan yaşayır. O deyib ki, Hindistanda növbəti 20 il ərzində 400 milyon insan şəhər mərkəzlərinə köçəcək.

"Şəhərsalma məsələsi ölkənin gündəliyində ən prioritet istiqamətlərdən birini təşkil edir və bu sahədə genişmiqyaslı proqramlar həyata keçirilir. Bunlara dünyada ən böyük sosial və əlçatan mənzil təşəbbüslərindən bəziləri də daxildir. Son bir neçə il ərzində 12,5 milyon əlçatan sosial mənzil inşa olunub və əlavə olaraq daha 10 milyon mənzilin tikintisi təsdiqlənib", - deyə o qeyd edib.

O əlavə edib ki, çox sayda fərdi və institusional maraqlı tərəflərin mövcudluğu, eləcə də digər təhrifedici amillər planlaşdırmanın inteqrasiyasını çətinləşdirir.

"Biz bilirik ki, dayanıqlı şəhərlərin inkişafını dəstəkləmək üçün təkcə BMT sistemi üçün deyil, həm də Hindistandakı bir çox digər aktorlar üçün geniş əməkdaşlıq imkanları mövcuddur. BMT-nin şəhər inkişafı ilə bağlı bir çox proqramları var - təkcə UN-Habitat deyil, digər agentliklər tərəfindən də həyata keçirilir",- deyə o qeyd edib.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İqtisadi Təhlil, Məlumat və Statistika Bölməsinin Geoməkan Təhlili Laboratoriyasının koordinatoru Claudia Baranzelli çıxışında bildirib ki, maliyyə və investisiyalar sahəsində mümkün olduğu qədər özəl sektor vəsaitlərinin də səfərbər olunması vacibdir: "Çünki yalnız dövlət sektoru bütün ehtiyacları qarşılaya bilməz. Eyni zamanda monitorinq və qiymətləndirmə sistemləri də gücləndirilməlidir".

O qeyd edib ki, təbiətəsaslı həllər sonradan əlavə olunan yanaşma kimi qəbul edilməməlidir.

"Onlar mütləq şəkildə qərar qəbuletmə proseslərinə inteqrasiya olunmalıdır. Bu isə həm layihələrin seçimi, həm də ictimai fəaliyyət və performans meyarlarının nəzərə alınması deməkdir, yəni bu prinsiplər bütün planlaşdırma mərhələlərində tətbiq edilməlidir. Bu yanaşma şəhərlərin çoxölçülü şəkildə və zamanla necə fəaliyyət göstərdiyini daha dərindən təhlil etmək üçün etibarlı bilik bazası yaradır. Bu kimi məlumat mənbələrinə OECD-nin yerli məlumat portalı vasitəsilə də çıxış etmək mümkündür", - deyə o əlavə edib.

Braziliyanın Şəhərlər Nazirliyinin şəhər və metropoliten inkişafı üzrə direktoru Kristiana Skortsa diqqətə çatdırıb ki, urbanizasiya modeli inklüziv, dayanıqlı və firavan olmalıdır.

O bildirib ki, bu konsepsiya inteqrasiya olunmuş yanaşmanın inkişafı ilə tam uyğunlaşır.

"Düşünürəm ki, siyasətdə də bu yanaşma nəqliyyat sahəsi üçün əsas istiqamət kimi qəbul oluna bilər", - deyə o qeyd edib.

Malayziyanın Yaşayış Sahələri və Yerli Özünüidarəetmə Nazirliyinin nəzdində fəaliyyət göstərən "URBANICE Malaysia" mərkəzinin baş əməliyyat direktoru Rizal Osman bildirib ki, Malayziya dayanıqlı şəhər inkişafının əsas istiqamətlərindən biri kimi İctimai Nəqliyyat Yönümlü İnkişaf (TOD) modelini prioritet hesab edir. O bildirib ki, məqsəd ictimai nəqliyyatdan istifadə edənlərin payını ən azı 30-40 faizə çatdırmaqdır.

"TOD yanaşması yüksəksıxlıqlı və qarışıq funksiyalı tikinti layihələrini, güclü ictimai nəqliyyat əlaqələrini, piyada hərəkətinə uyğun məhəllələri və xidmətlərə daha asan çıxışı təmin edərək kompakt, səmərəli və inklüziv şəhər mühitini təşviq edir", - deyə o əlavə edib.

Sessiya çərçivəsində Yaponiyanın tarixən tətbiq etdiyi "Transit-Oriented Development" (TOD) yanaşması, şəhərsalmanın ictimai nəqliyyat infrastrukturu ilə inteqrasiyası və şəhərlərin yaşıl transformasiyası istiqamətində beynəlxalq təcrübə diqqət mərkəzində olub.

# "Mənzil Davamlılığı Şəhər Sistemləri Çətinliyi kimi"

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Mənzil Davamlılığı Şəhər Sistemləri Çətinliyi kimi" mövzusunda sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, sessiya BMT-nin UNDRR, UNEP, UNDP və UN-Habitat təşkilatlarının "City Resilience Global Programme" təşəbbüsü çərçivəsində təşkil olunub.

Sessiyada şəhər dayanıqlılığı yanaşması əsasında risklərin azaldılması, iqlim dəyişikliklərinə uyğunlaşma, böhranlara hazırlıq və bərpa mərhələlərinin mənzil siyasətlərinə inteqrasiyası məsələləri diqqət mərkəzində olub.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts çıxışında bildirib ki, mənzil böhranı təkcə ev çatışmazlığı deyil, bu, sistemlərin uğursuzluğudur və buna görə də sistemli yanaşma tələb edir. O qeyd edib ki, mənzil dayanıqlılığını düzgün şəkildə qurmaq, eyni zamanda bir çox qlobal məqsədlərə nail olmağa imkan verir.

"Bu, əldən verilməməli olan mühüm strateji fürsətdir. Biz dayanıqlılığı mənzil siyasətinə, torpaqdan istifadəyə, tikinti normalarına, planlaşdırma standartlarına, inşaat təcrübələrinə və maliyyələşmə mexanizmlərinə daxil etdikdə, yalnız evləri deyil, həm də insanları, iqtisadiyyatı və gələcəyi qorumuş oluruq", - deyə o bildirib.

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Sektoral Keçid Bölməsinin rəhbəri Gulnara Roll qeyd edib ki, mənzil, xüsusilə də formal mənzil sahəsində ciddi problemlər mövcuddur: "Bir çox ölkələrdə mövcud mənzil siyasətinin 70-80 faizi formal mənzil sektorunun payına düşür".

O bildirib ki, bu qədər böyük problemlərin həlli kompleks yanaşma tələb edir.

"Xüsusilə mənzil sektorunun siyasətlərə, praktiki fəaliyyətə və maliyyə mexanizmlərinə inteqrasiyası böyük əhəmiyyət daşıyır. Bu məsələ yalnız aidiyyəti qurumlar üçün deyil, dayanıqlı və inkişaf etmiş şəhərlərin formalaşması baxımından da vacibdir", - deyə o vurğulayıb.

Tədbirdə həmçinin şəhər planlaşdırması, tikinti standartları, torpaq idarəçiliyi və maliyyələşmə mexanizmlərinin risklərə həssaslıq baxımından təkmilləşdirilməsi məsələləri müzakirə olunub.

Tədbirin məqsədi şəhərlərdə mənzil sistemlərinin dayanıqlılığının gücləndirilməsi, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və BMT agentlikləri arasında sinerjinin artırılmasıdır.

# Yaşıl, davamlı və yerli mənbəli evlərin qurulması ilə bağlı sessiya keçirilib

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Sürət və miqyasda yaşıl əlverişli mənzil - dekarbonizasiya olunmuş, davamlı və yerli mənbəli evlərin çatdırılması" mövzusunda sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) əsas enerji səmərəliliyi üzrə mütəxəssisi Boyan Boqdanoviçin moderatorluğu ilə aparılan müzakirələrdə yaşıl əlverişli, davamlı və yerli mənbəli evlərin qurulmasının vacibliyi vurğulanıb.

Nayrobi Şəhər İcraiyyə Komitəsinin üzvü Maureen Aqnes Nieri bütövlükdə Afrika qitəsini formalaşdıran demoqrafik dinamika fonunda həm əlverişli, həm də yaşıl olan mənzillərin təmin edilməsinin vacibliyini bildirib. O, Nayrobi şəhərinin bu mövzulara necə yanaşdığı, yerli hökumət olaraq hansı xüsusi problemlərlə üzləşdiyini və şəhərin inkişafına necə reaksiya verdiyi barədə məlumat verib.

"Biz bu gün planlaşdırma və gələcək nəsil üçün də davamlı olan sərfəli mənzili necə çatdırdığımıza baxmadan əlverişli mənzilə sahib ola bilmərik. Nayrobi bu gün Afrikanın ən sürətlə böyüyən şəhərlərindən biridir. Ölkəmizdə hər il minlərlə insan kənddən köçüb şəhərə gəlir, fürsət axtarmağa, dolanmağa çalışır. Təbii ki, bu, mənzil tələbi, infrastruktur baxımından çox təzyiqə səbəb olur. İndi davamlı enerji şəbəkəli şəhərləri necə quracağımızla bağlı planlarla məşğul olduğumuz vaxtdır".

Daha sonra çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) davamlı inkişaf eksperti Marko Musolena, Azərbaycan Yaşıl Tikinti Şurasının sədri Fuad Bağırov, Şəhərlərin İqlim Maliyyələşməsi Liderlik Alyansının (CCFLA) direktor müavini Priscilla Negreiros, Serbiyanın Məkan və Şəhərsalma Agentliyinin inkişaf üzrə meneceri Sinisa Trkulya sərfəli mənzil sxemi, enerjiyə qənaət edən binaları təşviq etmək, şəhərləri iqlimə davamlılıq baxımından necə inteqrasiya etmək və bu istiqamətdə investorlarla tərəfdaşlıq barədə fikirlərini bölüşüblər. Vurğulanıb ki, əlverişli mənzillər üçün bu mənzilləri dəstəkləyən, iqlim dəyişikliyinə tab gətirə bilən və iqlimə davamlı infrastruktur qurulmalıdır. Bildirilib ki, ən azı 30 milyon insan iqlim dəyişikliyi səbəbindən köç edib. Həmçinin əlverişli mənzil, dekarbonizasiya, bərpaolunan və təmiz enerjiyə əsaslanmalıdır. Bu baxımdan səmərəlilik, daha yaxşı enerji materialından istifadə, nəqliyyatın təsiri, daxili mühitin keyfiyyəti və emissiyalar, ətraf mühitin karbon balansı kimi məsələlərin planlaşdırılması olduqca vacibdir.

# Su idarəçiliyi və dayanıqlı şəhər inkişafı müzakirə olunub

**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Su ilə ağıllı şəhərlər: Potensialın inkişafı vasitəsilə şəhər davamlılığının gücləndirilməsi" mövzusunda panel sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə sürətli urbanizasiya və iqlim dəyişiklikləri fonunda şəhərlərdə su idarəçiliyi, dayanıqlı mənzil təminatı və iqlimə uyğunlaşma məsələləri müzakirə olunub. Panel çərçivəsində şəhər su infrastrukturu ilə dayanıqlı mənzil sistemləri arasındakı əlaqələr, inteqrasiya olunmuş şəhər su idarəçiliyi, təbiətə əsaslanan həllər və "ağıllı" su texnologiyaları diqqət mərkəzində olub.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədr müavini İlqar Gülməmmədov bildirib ki, bu gün şəhərlər sürətli urbanizasiya, su qıtlığı, daşqın riskləri və iqlim dəyişiklikləri kimi ciddi çağırışlarla üzləşir. O qeyd edib ki, su artıq yalnız kommunal xidmət deyil, milli təhlükəsizlik, iqtisadi inkişaf və ictimai rifah məsələsidir. Sədr müavini Azərbaycanın son illərdə su sektoru sahəsində həyata keçirdiyi institusional islahatlar, Milli Su Strategiyası və Bakı ilə Abşeronun iqlim dəyişikliklərinə qarşı dayanıqlığının artırılması istiqamətində görülən işlər barədə məlumat verib.

G100 Ağıllı və Dayanıqlı Şəhərlər Qlobal Şəbəkəsinin sədri, "Kale Group" şirkətlər qrupunun prezidenti və baş icraçı direktoru Zeynəb Bodur-Okyay vurğulayıb ki, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizinin şəhərlərdə yaşayacağı gözlənilir. Onun sözlərinə görə, şəhər əhalisinin artım tempinə baxmayaraq, su sistemləri eyni sürətlə inkişaf etmir və bu, artıq yalnız su problemi deyil, sistemli şəhər çağırışına çevrilib. O həmçinin bildirib ki, dayanıqlı şəhərlər etibarlı su və sanitariya sistemləri olmadan mümkün deyil.

BMT-nin Təlim və Tədqiqat İnstitutunun (UNITAR) Məsləhət Şurasının sədri Luis Qalleqos çıxışında inklüzivliyin vacibliyini xüsusi qeyd edib. O bildirib ki, hazırda dünyada 1,3 milyard əlilliyi olan şəxs yaşayır və yaşlanan əhali fonunda şəhər infrastrukturu hər kəs üçün əlçatan olmalıdır. Vurğulayıb ki, "su ilə ağıllı şəhərlər" konsepsiyası əlilliyi olan şəxslərin, yaşlı insanların və digər həssas qrupların ehtiyaclarını nəzərə alan inklüziv yanaşmaya əsaslanmalıdır.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rüfət Əzizov qeyd edib ki, universitet qlobal çağırışları nəzərə alaraq təhsil proqramlarını yenidən formalaşdırır. O, Strasburq Universiteti ilə su ehtiyatlarının idarə olunması, Uorvik Universiteti ilə isə bərpaolunan enerji üzrə həyata keçirilən ikili magistr proqramları barədə məlumat verib. Rektorun sözlərinə görə, yeni nəsil mühəndislər yalnız texniki biliklərə deyil, həm də sosial, iqtisadi və məlumat əsaslı qərarvermə bacarıqlarına malik olmalıdırlar.

UN-Habitat nümayəndəsi Asa Jonson isə çıxışında su və sanitariya xidmətlərinin şəhər planlaşdırılmasına inteqrasiyasının vacibliyini vurğulayıb. O bildirib ki, şəhərlərin öz inkişaf səviyyələrini qiymətləndirdiyi Yerli Könüllü Hesabatlar bu baxımdan mühüm rol oynayır. Həmçinin qeyri-rəsmi yaşayış məntəqələrində su təminatı və tullantı sularının idarə olunmasının daha görünən hala gətirilməsinin vacibliyini qeyd edib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu publik hüquqi şəxsin Hidroloji tədqiqatlar şöbəsinin müdiri Rəşail İsmayılov bildirib ki, urbanizasiya ilə əlaqədar yağış və tullantı sularının idarə olunması əsas problemlərdən biridir. Onun sözlərinə görə, şəhərləşmə nəticəsində drenaj sahələrinin azalması və sərt örtüklü ərazilərin genişlənməsi sel və daşqın risklərini artırır.

Rəşail İsmayılov həmçinin Azərbaycanda su sektorunda həyata keçirilən institusional islahatlar və Bakı göllərinin bərpası layihələri barədə məlumat verib.

Tədbir çərçivəsində BMT-nin Təlim və Tədqiqat İnstitutu (UNITAR) ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu arasında anlaşma memorandumu da imzalanıb. Memorandumu Hidroloji tədqiqatlar şöbəsinin müdiri Rəşail İsmayılov və UNITAR-ın Qlobal Su Akademiyasının direktoru Ebru Canan Sokullu imzalayıblar.

# SPECA Şəhərlər Forumu baş tutub

**Bakıda davam edən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində SPECA Şəhərlər Forumu təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) üzrə "İnklüziv və davamlı şəhər gələcəyi üçün şəhərlərin mənzil həlləri" adlı forumda SPECA-ya üzv ölkələrdə şəhərsalma məsələlərinə dair müzakirələr aparılıb.

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev ölkəmizin əlverişli coğrafi mövqeyindən bəhs edib, Şərqlə Qərbi birləşdirən böyük nəqliyyat dəhlizlərinin məhz Azərbaycandan keçdiyini deyib.

"Bu gün yaşayış və şəhər inkişafının gələcəyi ilə bağlı bu mühüm dialoqa ev sahibliyi etmək paytaxtımız üçün şərəfdir. Forum mənzil, mənzil inkişafı, təhlükəsiz və möhkəm şəhərlər və icmalar mövzusu ilə bağlı keçirilir ki, bu da bizə, əlbəttə, mənzilin təkcə binalar və infrastrukturdan ibarət olmadığını xatırladır", - deyə o əlavə edib.

Anar Quliyev qeyd edib ki, SPECA Şəhərlər Forumu şəhərlərimizin qarşısında duran çağırışların daha güclü regional əməkdaşlıq, praktiki tərəfdaşlıq, yerli və milli hakimiyyət orqanları arasında davamlı dialoq tələb etdiyinə dair ümumi anlayışı əks etdirir. Bu gün eyni prinsip bizim şəhər gündəmimizə rəhbərlik edir. Qlobal sürət, regional dinamika çərçivəsində SPECA Şəhərlər Forumu şəhərlərarası əməkdaşlıq platforması kimi 2024-cü ildə Bakıda keçirilən COP29-da yaradılıb. 1998-ci ildə qəbul edilmiş SPECA Daşkənd Bəyannaməsinə və 2023-cü il Bakı Bəyannaməsinə əsaslanan forum regional əməkdaşlığı gücləndirmək və davamlı şəhər inkişafının inkişafı üçün oxşar coğrafiya, tarix və mədəniyyət üzrə iştirakçı dövlətlərin ortaq öhdəliyini əks etdirir. Forum 6 şəhər - Almatı, Arkada, Bişkek, Düşənbə, Gəncə və Səmərqənd tərəfindən təsis edilib və şəhərlər arasında birgə fəaliyyəti təşviq edir. WUF13-də SPECA regionu üçün ilk xüsusi şəhərlərarası əməkdaşlıq platforması olan Şəhərlər Forumunun rəsmi açılışının qeyd edilməsi üçün xüsusilə vacibdir.

WUF13-ün milli koordinatoru deyib ki, mənzil ləyaqət, imkan, təhlükəsizlik və həyat keyfiyyəti ilə bağlıdır. Bu, şəhərlərimizin indiki və gələcək nəsillər üçün inklüziv, dayanıqlı və davamlı qalmasını təmin etməkdən ibarətdir.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli bildirib ki, WUF13-ün Bakıda keçirilməsi Azərbaycan üçün əlamətdar məqamdır: "Biz qlobal şəhər icmasını salamlamaqdan və şəhərlərin gələcəyi, davamlı inkişaf və regional əməkdaşlıqla bağlı müzakirələrə töhfə verməkdən şərəf duyuruq. Bizim üçün və daha geniş SPECA regionu üçün Şəhərlər Forumunun da xüsusi mənası var. Bu gün biz, sadəcə olaraq, adi forum keçirmirik, biz bələdiyyələrimiz arasında daimi, möhkəm və transformativ əməkdaşlıq körpüsünü təsis edirik. Bu, 2024-cü ilin noyabrında COP29 zamanı yaradılmış strateji təşəbbüslərin məntiqi və yetkin davamı kimi xidmət edir. Məhz bu münasibətlə şəhərlərimiz ilk dəfə regionumuzu ağıllı, iqlimə davamlı və iqtisadi cəhətdən canlı şəhər gələcəyinə yönəltmək üçün öz möhkəm öhdəliklərini ifadə ediblər. Bakıda keçirilən COP29 konfransı zamanı rəsmi olaraq tarixi saziş - "SPECA İqlim Ağıllı Şəhərlər Forumunun yaradılmasına dair niyyət məktubu" imzalanıb.



Nazir müavini SPECA Şəhərlər Forumunun regional əməkdaşlıq üçün daimi platforma rolunu oynamasının əhəmiyyətini qeyd edib. Deyib ki, SPECA Şəhərlər Forumu ilə biz daimi, möhkəm və transformativ əməkdaşlıq körpüsünü təsis edirik.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibinin müavini Dmitri Mariyasin UNECE-nin Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyası (UNESCAP) ilə birgə 30 ilə yaxındır ki, SPECA-ya dəstək verdiyini bildirib.

"Üç il əvvəl Bakıdakı sammitdə SPECA-nı regional əməkdaşlıq üçün mənalı, praktik platformaya çevirmək barədə qərar qəbul edilib. O vaxtdan bəri biz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu əməkdaşlığında, maliyyələşdirmə mexanizminin, SPECA fondunun yaradılmasında real irəliləyiş əldə etmişik. Bu gün deyərdim ki, SPECA-nın yenidən aktivləşdirilməsinin üçüncü mərhələsidir. Biz əvvəllər SPECA-da heç vaxt mövcud olmayan bir şəhər treki yaradırıq. Bu gün biz SPECA-nın yenidən aktivləşdirilməsi istiqamətində daha bir addım atırıq. Niyə SPECA-da şəhərlərə ehtiyacımız var? Biz hamımız bilirik ki, çoxtərəflilik hökumətlərarası səviyyədə zəifləməyə başlayanda çox vaxt şəhərlər və merlər öz vətəndaşlarının üzləşdiyi ən aktual problemlərin həllində liderlik edir. SPECA regionunda Mərkəzi Asiya və Cənubi Qafqaz şəhərləri ümumi problemlər, sürətli urbanizasiya, mənzil sistemlərinə təzyiq, köhnəlmiş infrastruktur, iqlim riskləri, tıxac, enerji çatışmazlığı, havanın keyfiyyəti problemləri və modernləşdirilmiş şəhər idarəçiliyi, istər paytaxt şəhərləri, istərsə də çox vaxt son dərəcə vacib olan digər şəhərlər, öz ölkələrinin davamlı inkişafı üçün əsas prioritetə çevrilib", - deyə o vurğulayıb.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts WUF13-ə belə lütfkar evsahibliyi edən Azərbaycana ictimai dəstəyə və mənalı praktik qlobal əməkdaşlığa görə təşəkkürünü bildirilib.

Bağlantıların qurulmasının şəhərlərin inkişafı ilə əlaqədar olduğunu bildirən Rafael Tuts əlavə edib: "Biz SPECA Şəhərlər Forumu ilə daha geniş regionlararası güclü sinerjinin mümkün olduğunu görürük. Şəhərlər Forumu yerli səviyyədə davamlı inkişaf məqsədlərinin sürətləndirilməsində çox vacibdir. Biz bütün forum iştirakçılarını, burada iştirak edən bütün merləri mümkün qədər tez könüllü yerli baxış həyata keçirməyə çağırırıq. Biz ölkələrin hər birində BMT-nin rezident-əlaqələndiriciləri ilə sıx tərəfdaşlıq etməyi səbirsizliklə gözləyirik. Ümid edirik ki, bu işdə sizinlə birlikdə çalışacağıq və böyük tərəfdaşlığı səbirsizliklə gözləyirik".

"Ümid edirik ki, biz SPECA Şəhərlər Forumu vasitəsilə əlaqə və şəhər inkişafının gündəmini birləşdirə bilərik. Biz SPECA-da çoxsəviyyəli idarəetməni tətbiq edirik. Əlaqələrin qurulması isə Asiya və Avropanı nəqliyyat, ticarətlə birləşdirən SPECA-nın əsas prioritetidir. Əgər dəhlizlər boyunca əsas şəhər qovşaqları davamlı deyilsə, əlaqələr davamlı ola bilməz. Biz həmçinin SPECA şurasının konvensiyasında müzakirəyə çıxarılan və təsdiqlənən yeni layihə təklifi vasitəsilə UNESCAP-dakı tərəfdaşlarımız və ən əsası isə UN-Habitat ilə birlikdə praktik yollarla işləyirik. Təklifin diqqət mərkəzində Mərkəzi Asiyada iqtisadiyyatlarını dəstəkləyən davamlı və "ağıllı şəhər"lərdir. Bu layihə SPECA Şəhərlər Forumu çərçivəsində şəhərləri bir araya gətirəcək davamlı şəhərsalma, praktiki şəhərsalma həllərinin inkişafı, məlumat mübadiləsi və məlumat işini dəstəkləmək üçün maliyyələşdirmə üçün katalizator rolunda ilk addım olacaq" ,- deyə o qeyd edib.

UNESCAP-ın davamlı şəhərlərin inkişafı şöbəsinin rəhbəri Kört Qarriqan deyib ki, inklüziv və davamlı şəhərlər bir çox regional və qlobal məqsədlərə nail olmaq üçün vacibdir.

"Şəhərdən-şəhərə mübadilələr və forumlar oxşar problemlərin, ən yaxşı təcrübələrin və həllərin paylaşılması da daxil olmaqla, yerli fəaliyyətləri sürətləndirmək üçün getdikcə daha vacib platformalara çevrilir. SPECA Şəhərlər Forumu SPECA İdarəetmə Şurası tərəfindən 2024-cü ilin noyabrında keçirilən 19-cu sessiyada belə bir platforma təmin etmək, həm də SPECA-nın nəqliyyat və ticarət əlaqəsi üzrə daha geniş məqsədlərinə töhfə vermək üçün təsdiq olunub. SPECA-da hazırlanmış innovasiyalar və həllər onun regiondan kənarda da təsir imkanlarına malik olmasına şərait yaradacaq", - deyə o qeyd edib.

Forum çərçivəsində Almatı şəhərinin Bakıda keçirilən COP29 konfransı zamanı imzalanan "SPECA İqlim Ağıllı Şəhərlər Forumunun yaradılmasına dair niyyət məktubu"na rəsmi şəkildə qoşulmasına dair sənəd imzalanıb.

Qeyd edək ki, SPECA Mərkəzi Asiyada subregional əməkdaşlığı gücləndirmək və onun dünya iqtisadiyyatına inteqrasiyasını gücləndirmək üçün 1998-ci ildə başlayıb. SPECA ölkələri Əfqanıstan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandır. Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası və BMT-nin Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyası proqrama birgə dəstək verir.

SPECA Şəhərlər Forumu isə 6 şəhər - Almatı, Arkada, Bişkek, Düşənbə, Gəncə və Səmərqənd tərəfindən təsis olunub və şəhərlər arasında birgə fəaliyyəti təşviq edir.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# İŞİMİZ, GÜZƏRANIMIZ




## Türk dünyasının rəqəmsal gələcəyi

### Bu, TDT-nin Türküstan Zirvə görüşündə aydın görünən hədəf idi

**Türk xalqlarını ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər dövlətlərin qarşılıqlı səmərəli fəaliyyəti üçün əsas təməldir. Minillərin dərinliyindən boylanan ortaq yaddaş, dillərimizdə səslənən eyni kəlmələr, oxşar ruhun tarixdə qoyduğu izlər bu gün Türk Dövlətləri Təşkilatının (TDT) tarixinə yeni səhifələr yazır.**

TDT bir kökdən boy verən çinar kimi beynəlxalq arenada eyni mövqe sərgiləyərək, türk dünyasının qəti və kəskin söz deməsinə zəmin yaradır. Təşkilatın beynəlxalq nüfuzu gündən-günə artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Hazırda TDT-yə üzv ölkələr arasındakı çoxşaxəli əməkdaşlıq ticarət dövriyyəsinin artırılması, investisiya axınlarının asanlaşdırılması və regional bazarların birləşdirilməsi üçün yeni imkanlar sərgiləyir.

Bu baxımdan, bir neçə gün əvvəl Qazaxıstanın Türküstan şəhərində keçirilən TDT dövlət başçılarının rəsmiyyətdənkənar Zirvə görüşü mühüm əhəmiyyət kəsb edirdi. Zirvə görüşünün türk dünyasının mənəvi paytaxtı Türküstanda keçirilməsi bu xalqların ortaq tarixi irsi ilə dinamik və rəqəmsal gələcəyi arasında körpü rolunu oynayırdı. "Süni intellekt və rəqəmsal inkişaf" mövzusuna həsr olunan Zirvə türk dövlətləri arasında strateji dialoqun inkişafına, yeni texnologiyaların iqtisadi artım və dövlət xidmətlərinə töhfəsinin artırılmasına, eləcə də regional əlaqələrin gücləndirilməsinə xidməti ilə yadda qaldı.

Qeyd edək ki, TDT çərçivəsində son illər süni intellekt, rəqəmsallaşma və texnoloji inteqrasiya istiqamətində mühüm və ardıcıl addımlar atılır. Xüsusilə 2024-2026-cı illəri əhatə edən dövrdə bu proses daha çox intensivləşərək strateji prioritetə çevrilib. 2024-cü ildə Bişkekdə ilk dəfə "Türk Dövlətlərinin Süni İntellekt Sammiti"nin keçirilməsi bu istiqamətdə atılan ən mühüm təşəbbüslərdən biri kimi qiymətləndirilir. Sammit çərçivəsində süni intellekt strategiyalarının formalaşdırılması, ortaq rəqəmsal platformaların yaradılması, dövlət idarəçiliyində süni intellekt texnologiyalarının tətbiqi, eləcə də kibertəhlükəsizlik və rəqəmsal iqtisadiyyat məsələləri geniş müzakirə olunub. Bu kimi təşəbbüslər türk dövlətləri arasında texnoloji əməkdaşlığın yeni mərhələyə keçdiyini nümayiş etdirir.

Prezident İlham Əliyev TDT dövlət başçılarının Türküstan görüşündəki çıxışında Azərbaycanın bu sahə üzrə strateji hədəflərinə xüsusi diqqət çəkərək bildirib ki, rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiyaya əsaslanan iqtisadi modelə keçidin sürətləndirilməsi ölkənin əsas prioritetlərindəndir: "Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır. Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir. Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir. Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır".

Bu istiqamətdə həyata keçirilən rəqəmsal transformasiya və texnoloji infrastruktur layihələri informasiya-kommunikasiya sahəsinin inkişafında, eləcə də nəqliyyat-logistika şəbəkələrinin modernləşdirilməsində gərəkli rol oynayır. Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımızın genişlənməsi regional inteqrasiyanın daha çox dərinləşdiyini göstərir. Bu çərçivədə reallaşmaqda olan TRIPP layihəsi Orta dəhlizin mühüm seqmentlərindən biri kimi çıxış edərək regionlararası bağlantıların ikişafına xidmət edəcək. Orta dəhliz boyunca gömrük prosedurlarının sadələşdirilməsi və rəqəmsallaşdırılması ticarət axınlarının daha çevik və səmərəli idarə olunmasına şərait yaradır. TDT çərçivəsində hazırlanmış "e-Permit" sistemi isə elektron icazələrin operativ şəkildə verilməsini təmin etməklə beynəlxalq yükdaşımalarında şəffaflığı və sürəti artırır.

Bu addımlar Azərbaycanın TDT məkanında rəqəmsal transformasiya prosesinə sanballı töhfə verdiyini, ortaq texnoloji və iqtisadi gələcəyin formalaşmasında mühüm rol oynadığını bir daha ortaya qoyur. Nəqliyyat əlaqələri Azərbaycanla Mərkəzi Asiya arasında çoxşaxəli münasibətlərin uzunmüddətli inkişafının əsas prioritetlərindən biri olduğunu deməyə əsas verir. Zəngəzur dəhlizinin (TRIPP) açılması isə inkişaf perspektivlərini, qarşılıqlı münasibətləri daha da gücləndirəcək. Dəhliz daşımaların həcm və intensivliyini artırmaqla iqtisadi münasibətləri inkişaf etdirəcək, üstəlik, TDT üzvləri arasında birbaşa bağlantını təmin etməklə mədəni-siyasi-strateji bağlantıları daha da möhkəmləndirəcək.

Zirvə görüşündə Prezident İlham Əliyev cari reallıqların, mövcud geosiyasi vəziyyəti və TRIPP-ın əhəmiyyətini xeyli artırdığını vurğulayıb. Başqa sözlə desək, Orta dəhliz, eləcə də bu dəhlizin aparıcı bir komponentinə çevrilən Zəngəzur dəhlizi (TRIPP) TDT üzvləri arasında nəqliyyat əlaqələrinin inkişafını gücləndirəcək ki, bu da qarşılıqlı münasibətlərin və inteqrasiyanın xeyli dərəcədə genişlənməsinə yol açacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Mikayıl CABBAROV: "Məşğulluğun leqallaşdırılmasından daxil olan gəlirlərin həcmi üç dəfədən çox artıb"

**"Çox vaxt siyasətçilər və hökumətlər belə bir problemlə üzləşirlər. Bir tərəfdən, bu növ mənzil və yaşayış məskənləri ilə bağlı böyük bir kölgə iqtisadiyyatı fəaliyyəti mövcuddur, digər tərəfdən isə sizin maliyyələşməyə ehtiyacınız var".**

AZƏRTAC xəbər verir ki, bu sözləri "Dünyada mənzil üçün qeyri-rəsmi yaşayış məntəqələrinin və gecəqonduların dəyişdirilməsi" adlı tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

"Azərbaycanda biz bunu 2019-cu ildən 2025-ci ilə qədər yeddi il ərzində həyata keçirdiyimiz xüsusi hədəflənmiş islahat çərçivəsində etdik. İnsanlar sosial müdafiə sistemindən kənarda idilər, ödənişlər nağd şəkildə olurdu və hökumət bundan heç bir gəlir əldə etmirdi. Yekunda isə biz elə bir vəziyyətə nail olduq ki, şəxs sosial təminat sisteminə inteqrasiya edilir, sosial sığorta haqları üzrə formalaşan gəlirlərin bir hissəsi isə sosial müdafiə ehtiyacı əsasında mənzilə ehtiyacı olanların mənzillə təmin edilməsinə yönəldilir", - deyə Mikayıl Cabbarov bildirib.

Onun sözlərinə görə, Azərbaycanın xüsusi nümunəsində, bu yanaşma həmin icma daxilində məşğulluğun leqallaşdırılmasından daxil olan gəlirlərin həcminin real ifadədə üç dəfədən çox artması ilə nəticələndi. Bu isə, məhz həmin insanların sosial ehtiyaclarının qarşılanması üçün əhəmiyyətli bir maliyyə mənbəyi yaratdı.

## Özünüməşğulluq proqramı üzrə daha 120 müharibə veteranı üçün kiçik bizneslər qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq proqramı çərçivəsində bu il daha 120 nəfər müharibə veteranını biznes planlarına uyğun aktivlərlə təmin edib.**

Verilmiş aktivlər hesabına onlar istehsal və xidmət, kənd təsərrüfatı sahələri üzrə kiçik ailə bizneslərini yaradıblar.

Özünüməşğulluq proqramına cəlb edilən şəxslər üçün ilkin mərhələdə biznes təlimləri təşkil edilir. Təlimləri bitirdikdən sonra onlara seçdikləri iqtisadi fəaliyyət sahələri üzrə mal və materiallar formasında aktivlər verilir.

## Azərbaycan nefti 117 dollara satılır

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,86 dollar və ya 0,73 faiz azalaraq 117,3 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Azərbaycan yeni iqtisadi dövrün astanasında

**Dünya yeni iqtisadi mərhələyə daxil olur və bu mərhələnin əsas hərəkətverici qüvvəsi artıq neft, qaz və ənənəvi sənaye deyil, texnologiya, süni intellekt və rəqəmsal iqtisadiyyatdır. XXI əsrdə dövlətlərin gücü onların malik olduğu təbii sərvətlərlə deyil, rəqəmsal potensialı, innovasiya imkanları və insan kapitalı ilə ölçülür. Bu gün qlobal rəqabət data, texnologiya və yüksəkixtisaslı kadrlar uğrunda gedir.**

Beynəlxalq təşkilatların hesabatları da bu reallığı təsdiqləyir. OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) məlumatına görə, son 10 ildə informasiya-kommunikasiya texnologiyaları sektoru dünya iqtisadiyyatından üç dəfə daha sürətli inkişaf edib. Stanford Universitetinin "AI Index Report 2025" hesabatında qeyd olunur ki, təkcə ötən il süni intellekt sahəsinə yatırılan özəl investisiyaların həcmi 33,9 milyard dollara çatıb. "PwC Global AI Study" araşdırmasına əsasən isə süni intellekt texnologiyalarının 2030-cu ilə qədər dünya iqtisadiyyatına 15 trilyon dollardan çox əlavə dəyər qazandıracağı proqnozlaşdırılır. Belə bir dövrdə rəqəmsal transformasiyadan kənarda qalmaq artıq inkişafdan geri qalmaq deməkdir. Azərbaycan da məhz bu qlobal dəyişiklik fonunda öz iqtisadi inkişaf modelini yenidən formalaşdırır və rəqəmsallaşmanı strateji prioritetlərdən birinə çevirir.

### Rəqəmsal transformasiya bu günün əsas infrastrukturudur

Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər bu siyasətin strateji mahiyyətini aydın şəkildə ortaya qoyur. Dövlət başçısı bildirib ki, "internet və rəqəmsal xidmətlər artıq lüks deyil, dövlət idarəçiliyinin və iqtisadiyyatın əsas infrastrukturudur". Bu fikir, əslində, müasir dünyanın iqtisadi və texnoloji reallığını tam ifadə edir. Çünki artıq rəqəmsal texnologiyalar olmadan nə effektiv dövlət idarəçiliyi, nə sürətli iqtisadi inkişaf, nə də qlobal rəqabət mümkündür. Prezidentin "Onlayn Azərbaycan" layihəsi ilə bağlı səsləndirdiyi fikirlər də xüsusi diqqət çəkir. Dövlət başçısı qeyd edib ki, bu layihə ölkənin rəqəmsal simasını dəyişir və Azərbaycanın regionun rəqəmsal mərkəzinə çevrilməsi üçün geniş imkanlar yaradır.

Azərbaycanın bu istiqamətdə mühüm üstünlükləri var. Ölkənin Orta dəhliz üzərində yerləşməsi, Ələt Beynəlxalq Dəniz Limanı, yüksəksürətli internet şəbəkələrinin genişləndirilməsi və "Hökumət Buludu" infrastrukturu regionda rəqəmsal logistika və data xidmətləri üçün böyük potensial formalaşdırır.

Bu gün dünyada "data yeni neftdir" ifadəsi təsadüfən işlədilmir. Dünya Bankı və Dünya İqtisadi Forumunun hesabatlarında qeyd olunur ki, gələcəyin iqtisadiyyatında əsas resurs məlumat bazaları və rəqəmsal platformalar olacaq. Dünyanın ən böyük şirkətlərinin artıq texnologiya şirkətləri olması da bunu təsdiqləyir. Azərbaycan da bu qlobal yarışın iştirakçısına çevrilmək niyyətindədir.

Son illər ölkədə rəqəmsallaşma istiqamətində formalaşan təcrübə də bunu göstərir. "ASAN xidmət" modeli artıq beynəlxalq səviyyədə innovativ dövlət xidməti nümunəsi kimi tanınır. Elektron hökumət xidmətlərinin genişləndirilməsi dövlət-vətəndaş münasibətlərində yeni idarəetmə modelinin formalaşmasına şərait yaradır. Maliyyə sektorunda FinTech şirkətlərinin sayının artması, nağdsız ödənişlərin genişlənməsi, kənd təsərrüfatında elektron xidmətlərin tətbiqi və təhsil-səhiyyə sistemində rəqəmsal həllərin yayılması artıq yeni iqtisadi modelin formalaşdığını göstərir.

### Süni intellekt və insan kapitalı - gələcəyin əsas gücü

Müasir texnoloji inkişafın əsas istiqamətlərindən biri generativ süni intellekt texnologiyalarıdır. Bu texnologiyalar dövlət idarəçiliyindən iqtisadi analizə, mediadan təhsilə qədər bir çox sahədə yeni imkanlar yaradır. Azərbaycan dili bazasında generativ süni intellekt modelinin formalaşdırılması isə ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Çünki gələcəyin texnologiyaları, əsasən, süni intellekt üzərində qurulacaq və milli dilin bu prosesdə yer alması rəqəmsal müstəqillik baxımından vacibdir. Belə model gələcəkdə dövlət idarəçiliyi, təhsil, media və digər sahələrdə Azərbaycan dilində müasir texnoloji həllərin tətbiqinə imkan yaradacaq, eyni zamanda milli dilin rəqəmsal mühitdə qorunması və inkişafına xidmət edəcək. "McKinsey Global Institute" və "PwC" kimi beynəlxalq konsaltinq qurumlarının araşdırmalarında qeyd olunur ki, süni intellekt texnologiyalarını sürətlə tətbiq edən ölkələr gələcək iqtisadi rəqabətdə daha üstün mövqeyə malik olacaqlar. Bu baxımdan, Azərbaycanın rəqəmsal transformasiya prosesinə fəal qoşulması strateji əhəmiyyət daşıyır.




Yeni iqtisadiyyatın əsas dayağı isə insan kapitalıdır. Dünya İqtisadi Forumunun "Future of Jobs Report" hesabatına görə, yaxın illərdə əmək bazarında proqramlaşdırma, kibertəhlükəsizlik, Data Science, analitik düşüncə və süni intellekt bacarıqları əsas üstünlüyə çevriləcək. Azərbaycan da qlobal texnoloji çağırışlara uyğun şəkildə rəqəmsal insan kapitalının formalaşdırılmasını strateji prioritet kimi müəyyənləşdirir. Proqramlaşdırma, maşın öyrənməsi, Data Science və kibertəhlükəsizlik kimi sahələr üzrə yeni nəsil biliklərin inkişafı gələcək əmək bazarında ölkənin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biri hesab olunur.

Cisco, Microsoft və Oracle kimi qlobal texnologiya şirkətləri ilə əməkdaşlıq çərçivəsində təşkil olunacaq xüsusi təlim və "bootcamp" proqramları minlərlə gəncin beynəlxalq standartlara uyğun bilik və sertifikat əldə etməsinə imkan yaradacaq. Bu yanaşma gələcəkdə Azərbaycanın region üzrə yüksəkixtisaslı rəqəmsal kadr mərkəzlərindən birinə çevrilməsinə ciddi töhfə verə bilər. 2029-cu ilə qədər on minlərlə insanı rəqəmsal təlimlərə cəlb etmək, İKT mütəxəssislərinin əmək bazarındakı payını artırmaq və süni intellekt vasitəsilə iqtisadiyyata milyonlarla manat dəyər qatmaq - bütün bunlar ölkənin rəqəmsal inkişafı strateji prioritet kimi mənimsədiyinin açıq sübutudur.

### Qarabağın və Şərqi Zəngəzurun yeni inkişaf modeli

Müasir dünyanın əsas inkişaf istiqamətlərindən biri də startap və innovasiya ekosistemidir. "Startup Genome" və "Global Innovation Index" hesabatlarında qeyd olunur ki, innovasiya əsaslı iqtisadiyyat quran ölkələr daha dayanıqlı və yüksəkgəlirli inkişaf modelinə malik olurlar. Çünki gələcəyin nəhəng şirkətləri artıq zavodlardan deyil, innovativ ideyalardan yaranır. Apple, Google və Tesla kimi şirkətlər bunun ən real nümunələridir. Azərbaycan da artıq bu istiqamətdə yeni mərhələyə daxil olur. Vençur fondlarının yaradılması, rəqəmsal kraudfandinq platformalarının genişləndirilməsi və innovativ biznes mühitinin formalaşdırılması gələcəkdə texnologiya əsaslı sahibkarlığın inkişafına ciddi təkan verə bilər. Bu yanaşma Azərbaycanın iqtisadiyyatının neftdən asılılığını azaltmaq və yüksək əlavə dəyər yaradan yeni iqtisadi model formalaşdırmaq baxımından xüsusi əhəmiyyət daşıyır.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələr də Azərbaycanın yeni inkişaf modelinin mühüm hissəsinə çevrilir. Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər", "yaşıl enerji" və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi gələcəyin urbanizasiya modelinin nümunəsi kimi qiymətləndirilir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində də "smart city" modelləri gələcəyin əsas inkişaf istiqamətlərindən biri kimi göstərilir. Qarabağda həyata keçirilən layihələr isə Azərbaycanın bu qlobal yanaşmaya uyğun şəkildə inkişafını nümayiş etdirir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan artıq yeni iqtisadi mərhələyə daxil olur. Bu mərhələdə əsas rəqabət üstünlüyü təbii resurslar deyil, texnologiya, innovasiya və insan kapitalı olacaq. Əgər qarşıya qoyulan hədəflər ardıcıl və effektiv şəkildə həyata keçirilərsə, Azərbaycan yaxın illərdə regionun əsas rəqəmsal iqtisadiyyat və innovasiya mərkəzlərindən birinə çevrilə bilər.

*Yaşar MƏMMƏDOV,*
*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM





# Mədəniyyət





**İnsanlar, talelər**

**Adını ata nənəsi Raziyəxanım qoyub. Müsahibimiz: "Mən iki Əsmətxanımın ömrünü yaşayıram", - deyir. Çünki sevimli nənəsi bu dünyadan cavan yaşında köçmüş əziz bacısının adını ona verib. Dünyagörmüş Raziyəxanım sanki gələcəkdən xəbərdar imiş, nəvəsinin bu adı ləyaqətlə daşıyacağını, hər zaman, hər yerdə hörmətlə, ehtiramla çəkdirəcəyini, pedaqoq, alim, ictimai xadim kimi tariximizdə əbədiləşdirəcəyini bilirmiş.**



# "Həyatı sevmək gərəkdir"

Uzaq illəri yaxın edirik. Söhbətə Əsmətxanım Məmmədovanın uşaqlıq illərindən başlayırıq. Nurlu simasına təbəssüm qonur: "Əlbəttə, hansı ailədə dünyaya gələcəyimizi biz özümüz seçmirik", - deyir. "Bu taledir, qismətdir. Mənim də qismətimə 1941-ci il martın 5-də Maştağada böyüyə ehtiram, kiçiyə nəvaziş göstərilən, sevginin, hörmətin, mehribanlığın hökm sürdüyü bir ocaqda dünyaya göz açmaq, boya-başa çatmaq düşüb. Atam Bəyəhməd sayılıb-seçilən bir kişinin oğlu idi. Ata babam Əlihəsən Şıxməhəmmədoğlu əslən Ərdəbildən olub. Onun taleyində işğalçı ölkələrin ikiyə ayırdıqları Azərbaycanın ağrıları vardı. Məmləkətimiz bölünəndə dörd qardaşı Arazın o tayında, Şıxməhəmməd babam isə burda qalıb. Babam Əlihəsən də Maştağanın mal-mülk sahibi, xeyirxah, nüfuzlu adamlarından idi. Ana babam Əbdülqasım Şəkərzadə isə içərişəhərliydi".

Babalarının ikisi də var-dövlət sahibi olub. Ata babası Əlihəsən Şıxməhəmmədoğlunun Maştağada geniş torpaq sahələri, malı-mülkü vardı. Ana babası Əbdülqasım Şəkərzadə isə neftxuda idi. 1920-ci ilin aprelində Azərbaycanın müstəqilliyinə son qoyaraq hakimiyyəti ələ keçirən bolşeviklər ilk günlərdən varlılara düşmən kəsiliblər. Əlihəsən Şıxməhəmməd oğlunun bütün torpaq sahələri, mal-dövləti müsadirə olunsa da, başının üstündən qara buludlar çəkilməyib. Ata babası Əlihəsəni həbs ediblər. O, sonralar xilas olsa da, ana babası Əbdülqasım sovet hökumətinin siyasi burulğanından qurtula bilməyib. Müasirləri onu yalnız varlı, səxavətli, xeyriyyəçi kimi yox, həm də alim, şair kimi tanıyıblar. Sovet hökuməti çoxları kimi ona da qıyıb - Əbdülqasım Şəkərzadə repressiya qurbanı olub.

Əsmətxanım Məmmədovanın ömrünün ilk çağlarında, ağlı kəsməyə başlayanda atası həyatda olsa da, yanlarında yox, xatirələrdə idi. II Dünya müharibəsi gedirdi. O, üç-dörd aylıq olanda atası Bəyəhməd Əlihəsənoğlu könüllü döyüşə yollanmışdı. Əsmətxanım danışır: "Atam Bəyəhməd 1908-ci il təvəllüdlü idi. 1941-ci il iyunun 22-də alman faşist ordusu sovet ərazilərinə hücum edəndə SSRİ-nin tərkibində olan digər respublikalar kimi, Azərbaycan da müharibəyə qoşulub. Müharibə başlayanda 33 yaşlı, ucaboy, yaraşıqlı atam da cəbhəyə gedib. Anam dörd kiçik uşaqla köməksiz qalıb".

Əsmətxanım ailənin dördüncü övladı idi. O, həmin illər barədə anasından eşitdiklərini belə xatırlayır: "Məndən böyük iki bacım, bir qardaşım vardı. Atam cəbhəyə gedəndə Balacaxanımın 9, Əsədin 6, Zərxanımın 3 yaşı varmış. Mən isə lap körpəyəmmiş, altıaylıq. Anam kolxozda işləyirmiş. Hər gün orda əməkhaqqı kimi 200 qram çörək verirmişlər. Böyük bacım Balacaxanımın yaşı az olmasına baxmayaraq, anam onu da özü ilə işləməyə aparırmış ki, ona da 200 qram çörək versinlər. Məni nənniyə qoyub özümdən 3 yaş böyük olan bacım Zərxanıma tapşırırmışlar".

Atasının müharibədən gəldiyi gün də yadındadır: "Atam ağ köynək geyinmişdi. Böyük buxanka çörək kəsirdi. Atam işsiz qalan adam deyildi. Daşdan da çörək çıxarırdı. O, anamın satmağa qıymadığı kostyumunu satdı və bir kisə kartof alıb əkdi. Bəhrəsindən kənddən müharibəyə gedib geri dönməyənlərin, əlil qayıdanların ailələrinə, imkansızlara payladı. 67 yaşında xəstəliyə tutulub dünyasını dəyişəndə yas mərasiminə gələnlər atamın onlara, ailələrinə əl tutmağından, xeyirxahlığından elə şeylər danışırdılar ki, biz ilk dəfə idi eşidirdik".

Atası müharibədən qayıdandan sonra sovxoz sədri işləyib. İllər keçdikcə ailələri daha da böyüyüb. Daha 3 uşaq dünyaya gəlib, olublar 7.

1949-cu ildə Əsmətxanım Məmmədova şagird yaşına çatıb. Maştağadakı Cəfər Cabbarlı adına 187 saylı məktəbdə təhsil almağa başlayıb. Orta məktəbdə dərs



əlaçısı, sinif nümayəndəsi olub. Şagird ikən Moskva Xalq nailiyyətləri sərgisində iştirak edib, qızıl medalla təltif olunub.

Gələcək haqqında xəyalları sonsuz, arzuları bitib-tükənməz idi. O zaman da indiki kimi, təbiət vurğunuydu. İstəyirdi ki, atasının yolu ilə getsin. Ancaq anasından eşitdikləri onu başqa sahəyə istiqamətləndirib. Əsmətxanım Məmmədova xatirələrinin ən kövrək məqamından - anasından məhəbbətlə söz açır: "Anam müdrik, sinədəftər xanım idi. Başı çox bəlalar çəkmişdi. Onun 5, qardaşının 3 yaşı olanda anası gənc yaşında o dövr üçün çarəsiz sayılan xəstəliyə mübtəla olub, dünyadan köçmüşdü. Atası uzun illər evlənməmişdi, onların tərbiyəsi ilə özü məşğul olmuşdu. Anam savadlı qadın idi. Latın kiril və əski ərəb əlifbalarında yazıb-oxuyurdu. İti hafizəsi vardı. Oxuduğu əsərləri əzbər bilirdi. Onları bizə elə danışırdı ki, nağıl kimi dinləyirdik. Mən ilk dəfə tariximiz, bir sıra tarixi şəxsiyyətlərimiz haqqında həqiqətləri də ondan eşitdim. Azərbaycan Xalq Cümhuriyyətini, müstəqil dövlətimizin himnini, gerbini, bayrağını, Məhəmməd Əmin Rəsulzadəni, Almas Yıldırımı və başqalarını mənə ilk tanıdan anam olmuşdu. Mən artıq böyümüşdüm, yolumu müəyyənləşdirmişdim. Anam mənə deyirdi: "Bu söhbətləri balacaların yanında etmirəm. Gedib məktəbdə danışarlar. Bunları sənə deyirəm..." Atası anamın ən ağrılı xatirəsi olan Əbdülqasım Şəkərzadə də Azərbaycanın vətənpərvər ziyalılarından idi. O, Bakı şəhərini tikən kişilərdən olub. XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişafına maddi yardım göstərib. Maarifpərvər insan olan babam fars və ərəb dillərini mükəmməl bilirmiş. O, həm də ədəbiyyat vurğunu imiş. Özü də şair olub. "Naşad" təxəllüsü ilə şeirlər yazıb, sovet rejimi onu "pantürkist" damğası ilə həbs edib, həyatına son qoyub".

Əsmətxanım 1958-ci ildə Cəfər Cabbarlı adına 187 nömrəli məktəbi əla qiymətlərlə başa vurub. Sənədlərini ali məktəbə verməyi arzulasa da, böyük qardaşı Əsədin hərbi xidmətdə olması, atasının o vaxtlar artıq öz istəyi ilə sovxoz direktoru vəsifəsindən azad edilməsi, sovxozdan becərmək üçün xeyli ərazi götürməsi tərəddüdlərini artırır, onu seçim qarşısında qoyurdu. Atasının bir kəlmə: "Mənim briqadirimsən, manqa başçımsan. Sən getsən, mən neyləyəcəm...", - deməsi ilə Əsmətxanım Məmmədova tələbə olmaq arzusunun ardınca getməyi təxirə salır. İki il sovxozda işləyir, atasına kömək edir. O, burada Gənclər Təşkilatının sədri kimi fəaliyyət göstərir. 1960-cı ildə nailiyyətlərinə görə Azərbaycan Ali Sovetinin fəxri fərmanı ilə təltif edilir.

Şərqşünaslığı anasının istəyi ilə, repressiya qurbanı babası Əbdülqasım Şəkərzadənin əziz və kövrək xatirəsinə ehtiram olaraq seçir. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinə daxil olub. Universitetdə əlaçı, fəal tələbə kimi seçilib. Fakültə Tələbə Elmi Cəmiyyətinin sədri olub. Hələ tələbə ikən elmi-tədqiqat işlərinə diqqət göstərib. Tbilisi, Moskva universitetlərinin elmi konfranslarında müxtəlif məruzələrlə çıxış edib. IV kursda oxuyanda "Fars ədəbi dili və Tehran dialektində feillərdə baş verən fonetik dəyişikliklər" məruzəsinə görə, Moskva Dövlət Universitetinin fəxri fərmanı və fəxri tələbə bileti ilə təltif olunub.

Universiteti 1965-ci ildə fərqlənmə diplomu ilə bitirib. Əsmətxanım Məmmədova Elmi şuranın qərarı ilə Yaxın və Orta Şərq kafedrasında saxlanılıb. Bir il sonra, 1966-cı ildə Azərbaycan Elmlər Akademiyasının (AMEA) nəzdindəki Şərqşünaslıq İnstitutunun aspiranturasına




qəbul edilib. Elmi rəhbəri şərqşünaslığın sütunlarından biri, Əməkdar elm xadimi Rəhim Sultanov idi. Əsmətxanım Məmmədova 1972-ci ildə "Fars dili söz vurğusunun fonetik təbiəti və yeri" adlı namizədlik dissertasiyasını uğurla müdafiə edib. Onun 67 illik əmək fəaliyyətinin 60 ili pedaqoji işlə bağlıdır. Müəllimliyi çox sevir. Ancaq pedaqoji fəaliyyəti ilə paralel başqa məsuliyyətli vəzifələrin də öhdəsindən uğurla gəlib.

1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilməsi qarşısında yeni yollar açıb. Deputat səlahiyyətləri ona insanların problemlərinin həllinə daha çox kömək etmək imkanı verib. Hər zaman məsuliyyətli, özünə tələbkar olan Əsmətxanım Məmmədova göstərilən etimadı ləyaqətlə doğruldub, seçiciləri ilə daim ünsiyyətdə olub, onların müraciətlərinə həssaslıqla yanaşıb.

Elmi fəaliyyəti yalnız əmək fəaliyyətinin deyil, həyatının ayrılmaz hissəsinə çevrilib. Belə etməsəydi, bu gün elmi mənbələr hesab edilən, istinad olunan sanballı əsərlərin müəllifi olmazdı. O, 4 dərs vəsaitinin, "Fars dilində vurğu" (eksperimental tədqiqat işi), (2007) "Nizami Gəncəvi yaradıcılığı üzrə filoloji tədqiqlər" (2022) adlı monoqrafiyaların müəllifidir. 2007-ci ildə "Fars dilində vurğu" adlı eksperimental tədqiqat işi AMEA-nın nailiyyətləri olan kitablar siyahısına salınıb. Əsmətxanım Məmmədova həm də 12 bədii tərcümənin mütərcimidir. Məhəmməd Mirkiyaninin "Çillə gecəsinin nağılları" hekayələr toplusunu tələbələrləri ilə birgə tərcümə etməklə isə fakültə tarixində bir ilkə imza atıb.

O, görməkdə olduğu, planlaşdırdığı işlərdən də böyük həvəslə danışır. Ərəb əlifbasına əsaslanan fars dilinin yazı və tələffüzü arasındakı fərqdən, yazının çətinliklərindən bəhs edən 1000 səhifə həcmində "Fars dilinin izahlı omofonlar lüğəti" monoqrafiyasını bitirmək üzrə olduğunu deyir.

O, ailə səadəti ilə keçən illərindən də böyük məhəbbətlə söz açır. Gənc yaşlarından könül bağladığı bibisi oğlu Yaqub Məlikovla 1970-ci il iyulun 25-də toyları olub. Bir il sonra iyulun 25-də Fərəh adını verdikləri qızlarının dünyaya gəlişi ilə fərəhləniblər. Sonra ailədə övladların sayı artıb. 1973-cü ildə Fərid, 1975-ci ildə Fidan, 1976-cı ildə isə Cavid dünyaya gəlib. Onları vətənə, insanlığa, haqqa sevgi ruhunda böyüdüblər. Övladları da ata-anası kimi elmə, təhsilə böyük maraq göstəriblər. Birinci Qarabağ müharibəsində döyüşmək üçün Fərəh evdən qaçıb. 1992-ci ilin fevralında Xocalı faciəsindən sonra Fərid könüllü olaraq müharibəyə yollanıb, ön cəbhədə, işğalçılara qarşı gedən ağır döyüşlərdə iştirak edib. Əsmətxanım Məmmədovanın qızlarının ikisi də onun yolunu davam etdirib - Fərəh ərəbşünas, Fidan isə farsşünas kimi. Əsmətxanım Məmmədova bu gün 11 nəvənin xoşbəxt nənəsidir.

Müsahibəmizin sonunda yenidən onunla birlikdə yola saldığı illərə dönüb baxırıq. Sualımız bu dəfə belə olur: "Heç ömrünüzün qayğısız illəri olubmu?" "İlləri yox, bəlkə günləri, saatları olub" - deyir. - "Həyat məni çox sınaqlara çəkib. 2010-cu ildə ömür-gün yoldaşım vəfat etdi. 5 il sonra isə qızım Fərəh 44 yaşında gözlərini əbədi yumdu. Onun 4 balası qaldı. Zəngin daxili aləmə, dünyagörüşünə malik Fərəhim dil bilgiləri, savadı, intellektual potensialı ilə hamıdan seçilirdi. Daxilinin gözəlliyi zahirinə yansımışdı. Çox fərqli, çox bənzərsiz idi". Baxışları bir nöqtəyə dikilir. Nəsə demək istəyir, bir ahla ötürür: "Dünya gəlimli-gedimlidir... bilirəm".

Söhbətin yönünü dəyişirik: "Ömrünüzün ilk illəri çoxmu uzaqda qalıb?" Gülümsəyir: "Bu 85 yaş nə vaxt gəlib keçdi heç bilmədim. Həyat hamar yol deyil. Enişi də var, yoxuşu da. Necə olursa-olsun onu sevmək lazımdır. Mən bütün insanları çox sevirəm. Tələbələrimi övladlarım qədər istəyirəm. 85 ildə dünyada çox hadisə baş verib. Ancaq mənə çox qısa görünür. Yəqin ona görə ki, vaxtın necə keçdiyinin fərqinə varmamışam, gecə-gündüz işləmişəm. Həyat bizə verilən fürsətdir. Onu dəyərləndirmək bizim əlimizdədir".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Yeni nəşr**

# Aydınlığa çıxan həqiqətlər

**Çar Rusiyası dönəmindən dünyanın müxtəlif yerlərindən Cənubi Qafqaza məqsədli şəkildə köçürülmüş ermənilər üçün 1918-ci ildə bolşevik Rusiyasının dəstəyi ilə Azərbaycanın qərbində - İrəvan da daxil olmaqla təxminən 9 min kvadratkilometr ərazidə Ermənistan Respublikası yaradılmış, onlara burada min illər boyu yaşamış azərbaycanlılarla birgəyaşayış hüququ verilmişdir.**



Cənubi Qafqazın kürəyinə xəncər kimi sancılan bu "birgəyaşayış"dan əvvəl də yeri-yurdu, vətəni olmayan ermənilər "yersiz gəldi, yerli qaç" prinsipi ilə azərbaycanlılar yaşayan şəhərlərə, kəndlərə silahlı basqınlar etmiş, terror, soyqırımı həyata keçirmiş, xalqımızın mədəni irsini dağıtmışlar. Onlar zaman-zaman Azərbaycan kəndlərini mənimsəmiş, torpaqlarımızı özününküləşdirmiş, bir sözlə, işğal etmişlər. Nə insanlığa, nə beynəlxalq hüquqa sığan bu proses şükürlər olsun ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İham Əliyevin qətiyyəti sayəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsi - Zəfər qələbəsi ilə dayandırılmışdır.

Bütün bunlar haqqında Milli Məclisin deputatı, tarix elmləri doktoru, dosent Vasif Qafarov və Konstitusiya Məhkəməsinin hakimi ədliyyə general-leytenantı Xanlar Vəliyevin "Azərbaycan ərazisi (1918-2025)" monoqrafiyasında geniş bəhs olunub. Azərbycanın 5 minillik tarixinin tədqiqata cəlb edildiyi bu monoqrafiyanın ana xəttini Ulu Öndər Heydər Əliyevin, onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri təşkil edir.

Kitabda tarixi Azərbaycan ərazisinin ümumi mənzərəsinə hərtərəfli nəzər salınmış, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) ərazisi, onun ümumi sahəsi və sərhədləri öyrənilmiş, 1920-ci ilin aprel işğalından sonrakı sovet dönəmində Azərbaycan SSR (1920-1991) ərazilərinin Ermənistana verilməsi konkret faktlar və dövrün ilkin arxiv sənədləri əsasında diqqətə çatdırılmışdır. Xalq Cümhuriyyətinin 113 min 895,97 kvadratkilometr ərazisinin Azərbaycan SSR dövründə 8660 kvadratkilometrə endirilməsi, başqa sözlə, Azərbaycanın 27300 kvadratkilometr ərazisinin xalqımızın iradəsinə zidd olaraq əlindən alınması prosesinin obyektiv mənzərəsi yaradılmışdır.

"Konstitusiya və Suverenlik İli"nin tələb və tövsiyələrini özündə əks etdirən, giriş və 8 bölmədən ibarət, 155 səhifəlik kitabda nəşrin müəllifləri iki istiqaməti - həm tarixi, həm də hüquqi aspektləri əsas götürərək Azərbaycanın və qonşu ölkələrin arxiv sənədlərinə istinadən fundamental monoqrafik əsər ortaya qoymuşlar. Dil açıb danışan arxiv sənədləri və tarixi hadisələrin obyektiv təhlili bütün bəşəriyyəti həqiqəti bilməyə və müdafiəyə çağırır. Ən diqqətçəkən və böyük axtarışlar nəticəsində 5 minillik dövrü əhatə edən bu əsərdə arxiv sənədlərinin dili ilə açıqlanan mətləblər və əyani olaraq təqdim olunan xəritələr oxucuda maraq doğurur. İllərlə işıq üzü görməyən rəsmi arxiv sənədləri, habelə bəşəriyyətin beynəlxalq insan hüquqlarının müdafiəsinə yönəlmiş tələbləri və 175-dən çox elmi ədəbiyyatdan, mənbədən istifadə olunduğu bu tədqiqat əsərində oxucu çar Rusiyası və sovet imperiyası dönəmində Azərbaycanın acı taleyi, parçalanmış, qonşulara pay-puş edilmiş ərazilərimiz, əsrlərlə haqsızlıqla üzləşmiş soydaşlarımızın, dəfələrlə deportasiya və sürgünlərə məruz qalmış xalqımızın məlumatsız keçmişi haqqında indiyədək bilinməyən, bəzən də məxfi xarakter daşıyan faktlarla, sənədlərlə yenidən tanış olmaq üçün bu kitabı oxumaq istəyir.

Əsərdə həmmüəllif Vasif Qafarov tərəfindən tarixi Azərbaycan torpaqlarının Ermənistana verilməsi, soydaşlarımızın Qərbi Azərbaycandan sürgün edilməsi danılmaz faktlarla, xronoloji ardıcıllıqla oxuculara çatdırılır. Həmçinin Ulu Öndər Heydər Əliyevin ermənilərin ərazi iddialarına qarşı hələ SSRİ dövründə apardığı böyük mübarizə və Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə qazanılan tarixi Zəfər faktlarla meydana qoyulur.

Kitabın "Azərbaycan Cümhuriyyətinin işğal edilərək sovetləşməsindən sonra Azərbaycan ərazisi" bölümündə müəlliflər böyük qürur hissi ilə müasir Azərbaycanın qurucusunun Ümummilli Lider Heydər Əliyev olduğunu vurğulamaqla onun layiqli davamçısı Prezident İlham Əliyevin diplomatlığı və qətiyyəti, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və qayğısı, xalqımızın müdrikliyi və əzmkarlığı, hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsindən söz açıblar.

Nəşrdə digər həmmüəllif Xanlar Vəliyev tərəfindən isə baş verən tarixi hadisələrin hüquqi aspektləri və faktlara, arxiv sənədlərinə əsasən hüquqi-siyasi qiymət verildiyi genişliyi ilə diqqətə çatdırılır.

Tədqiqatın metodoloji əsasını obyektivlik, tarixi hadisə və proseslərə kompleks yanaşma və sistemlilik prinsipi təşkil edir. Araşdırmalarda tarixi alternativlik prinsiplərinə istinad edilməklə müqayisəli-tənqidi təhlilin aparılmasına üstünlük verilir. Beləliklə, tarixi hadisə və proseslərə yanaşmada rəğbət və ya nifrət deyil, fakt və hadisələrə obyektiv, ədalətli münasibət göstərilir.

1918-2025-ci ilin tarixi mənzərəsini əks etdirən bu fundamental nəşr Azərbaycan tarixşünaslığına mühüm töhfə verən və dövlət başçısının elan etdiyi Qərbi Azərbaycana Qayıdış Konsepsiyası ilə səsləşən əsərdir. Habelə geniş oxucu auditoriyası üçün nəzərdə tutulan monoqrafiya humanitar və ictimai elmlərin mütəxəssisləri üçün mötəbər elmi mənbədir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycanda yeni könüllülük platforması fəaliyyətə başlayır

**Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti "İrs dostu" könüllü proqramına qəbul elan edir.**




Nazirlikdən bildirilib ki, "İrs dostu" könüllü proqramının həyata keçirilməsində əsas məqsəd gənclərin mədəni irsin qorunması və təbliği sahəsində fəal iştirakının təşviqi, onların bu istiqamətdə bilik və bacarıqlarının inkişafına dəstək göstərilməsi, eləcə də mədəni irsə ictimai marağın daha da artırılmasına töhfə verməkdir.

Proqram Dövlət Xidmətinin Bakıda və regionlarda yerləşən struktur bölmələri, tabeli müəssisələri, həmçinin qoruq və muzeyləri əhatə etməklə, ümumilikdə ölkənin bütün regionlarında 140-dan çox müəssisədə təşkil olunacaq. Könüllülər mədəni irs obyektlərinin qorunması, maarifləndirmə tədbirlərinin təşkili, tədqiqatların aparılması, təşkilati dəstək və digər istiqamətlər üzrə müxtəlif proseslərdə iştirak edəcəklər.

Könüllülər üçün fəaliyyət müddətində xüsusi təlimlər təşkil olunacaq, onların peşəkar bilik və bacarıqlarının artırılmasına dəstək göstəriləcək.

"İrs dostu"na cəlb olunacaq könüllülər yaradılması nəzərdə tutulan "İrs dostu" vahid şəbəkəsinin tərkib hissəsi olacaqlar. Belə ki, bu şəbəkə mədəni irsin qorunması sahəsində müxtəlif dövlət qurumları, vətəndaş cəmiyyəti və özəl sektor arasında əməkdaşlığa əsaslanan vahid ekosistemin formalaşdırılmasını nəzərdə tutur.

Mədəni irsimizin qorunmasına töhfə vermək istəyən gənclər üçün yeni inkişaf platforması olan "İrs dostu"na könüllülərin seçimi müsahibə əsasında həyata keçiriləcək. Müsahibə zamanı namizədlərin mədəni irs sahəsinə marağı, təşəbbüskarlığı, operativliyi, xarici dil bilikləri, ünsiyyət, ofis proqramlarında və komandada işləmə bacarıqları qiymətləndiriləcək.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# "Energetika memarlığı" filmi təqdim olundu

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr mərkəzi tərəfindən "Energetika memarlığı" adlı film hazırlanıb. Film Azərbaycanın elektroenergetika sahəsinin tarixi inkişaf yolunu, bu sahədə formalaşmış memarlıq və texnoloji yanaşmaları əks etdirən sənədli ekran işidir. Burada 1883-cü ildə Gədəbəydə ilk elektrik stansiyasının qurulmasından başlayaraq, müasir dövrdə həyata keçirilən iri enerji layihələrinə qədər uzanan inkişaf mərhələləri təqdim edilir.**




Ekran əsərində energetika yalnız texniki infrastruktur kimi deyil, həm də şəhərsalma, memarlıq və milli inkişafın mühüm elementi kimi göstərilir. Filmdə Azərbaycanda enerji obyektlərinin keçdiyi təkamül yolu - sovet dövrünün funksional yanaşmasından başlayaraq, müasir dövrdə estetik və rəqəmsal həllərlə zənginləşdirilmiş yeni energetika memarlığı modelinə qədər geniş şəkildə nümayiş olunur.

Filmdə xüsusilə son 20 ildə həyata keçirilən enerji layihələri, qapalı tipli yarımstansiyalar, rəqəmsal idarəetmə mərkəzləri, müasir elektrik stansiyaları və işğaldan azad edilmiş ərazilərdə qurulan yeni enerji infrastrukturu ön plana çıxarılır. Bununla yanaşı, "yaşıl enerji" konsepsiyası çərçivəsində yaradılan müasir enerji sistemləri də ekran əsərinin əsas mövzularından biridir.

"Energetika memarlığı" filmi Azərbaycanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, müasir sənaye estetikasının formalaşdırılması və gələcəyin dayanıqlı enerji infrastrukturunun qurulması istiqamətində görülən işləri vizual və tarixi ardıcıllıqla təqdim edir. Film energetikanın yalnız iqtisadi inkişaf deyil, həm də milli memarlıq düşüncəsi və dövlətçilik baxışının tərkib hissəsinə çevrildiyini nümayiş etdirir.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Qum və toz fırtınaları qlobal təhlükəyə çevrilir

**Yer atmosferində baş verən dəyişikliklər artıq yalnız temperatur göstəricilərində deyil, havada daşınan tozun miqdarında da özünü göstərir. Planetin müxtəlif regionlarında müşahidə olunan qum və toz fırtınalarının artması, iqlim sistemində yaranan pozuntuların qlobalmiqyaslı nəticəsinə çevrilib. Bu gün bir qitədə havaya qalxan milyonlarla zərrəcik, külək axınları vasitəsilə minlərlə kilometr uzaqda yaşayan insanların nəfəs aldığı havaya qarışa bilir.**



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) son illərdə Şərqi Aralıq dənizi hövzəsində və dünyanın müxtəlif bölgələrində qum və toz fırtınalarının tezliyinin, müddətinin və intensivliyinin artdığı barədə xəbərdarlıq edir. Bir zamanlar əsasən səhralarla əlaqələndirilən bu təbiət hadisəsi artıq yalnız quraq ərazilərin problemi deyil. İqlim dəyişikliyi, uzunmüddətli quraqlıqlar, torpaq deqradasiyası, səhralaşma və insan fəaliyyəti nəticəsində qum və toz fırtınaları daha geniş coğrafiyalara yayılır, milyonlarla insanın sağlamlığını, iqtisadiyyatını və gündəlik həyatını təhdid edir.

Mütəxəssislərin hesablamalarına görə, hər gün dünyada təxminən 330 milyon insan küləklə yayılan toz hissəciklərinə məruz qalır. Bu hissəciklər yalnız yaxın ərazilərdə qalmır, bəzən minlərlə kilometr məsafə qət edərək başqa ölkələrə, hətta başqa qitələrə qədər daşınır. Bu isə o deməkdir ki, bir səhrada qalxan toz buludu qısa müddət sonra şəhərlərin üzərinə çökə, kənd təsərrüfatı sahələrini örtə və insanların nəfəs aldığı havanı təhlükəli hala gətirə bilər.

Qum və toz fırtınaları əsasən güclü küləklərin quraq və yarımquraq ərazilərdə torpaq səthindəki incə hissəcikləri havaya qaldırması nəticəsində yaranır. Bu proses xüsusilə bitki örtüyü zəif olan, torpağın quru və boş qaldığı ərazilərdə daha sürətlə baş verir. Afrika qitəsindəki Sahara və Saharaaltı bölgələr, Sahel zolağı, Asiyada Qobi səhrası, Yaxın Şərq və Ərəbistan yarımadasındakı səhralar dünyanın ən mühüm toz mənbələri hesab olunurlar. Qlobal toz büdcəsinin 80 faizindən çoxunun Şimali Afrika, Yaxın Şərq və Ərəbistan səhralarından qaynaqlandığı bildirilir.

Bu təbii prosesin son illərdə daha təhlükəli hala gəlməsinin əsas səbəblərindən biri iqlim dəyişikliyidir. Planetin isinməsi ilə birlikdə bəzi bölgələrdə yağıntılar azalır, torpaq nəmini itirir, istilik dalğaları artır və quraqlıq dövrləri uzanır. Nəticədə əvvəllər nisbətən rütubətli olan ərazilər belə tədricən quraqlaşır və toz fırtınaları üçün yeni mənbələrə çevrilir. Alimlər bildirirlər ki, iqlim dəyişikliyi yalnız mövcud səhraları genişləndirmir, həm də yeni risk zonaları yaradır.

Atmosfer dövranındakı dəyişikliklər də vəziyyəti ağırlaşdırır. Subtropik yüksək təzyiq sistemlərinin və Hadley dövrü adlanan irimiqyaslı hava axınlarının şimala doğru hərəkət etməsi nəticəsində Afrika və Yaxın Şərqdən qalxan toz kütləri Aralıq dənizi hövzəsinə, Cənubi Avropaya, Qafqaza və Anadolunun müxtəlif bölgələrinə daha tez-tez çatır. Bu tendensiya gələcəkdə daha da güclənə bilər.

Qum və toz fırtınalarının təsiri yalnız havanın saralması və görünüş məsafəsinin azalması ilə məhdudlaşmır. Bu hadisələr atmosferdə hissəcik maddələrinin konsentrasiyasını kəskin artıraraq hava çirkliliyini təhlükəli səviyyəyə çatdırır. Xüsusilə PM10 və PM2,5 adlanan mikroskopik hissəciklər insan sağlamlığı üçün ciddi risk yaradır. PM10 ölçülü hissəciklər yuxarı tənəffüs yollarında ilişib qala bilər. Lakin diametri 2,5 mikrometrdən kiçik olan PM2,5 hissəcikləri birbaşa ağciyərlərin ən dərin hissələrinə - alveollara qədər daxil olur. Oradan qan dövranına keçərək bütün orqanizmə təsir göstərə bilir.

Tibb araşdırmaları göstərir ki, səhra tozunun havada olduğu günlərdə tənəffüs yolu xəstəlikləri, ürək-damar problemləri, xəstəxanaya müraciətlər və ölüm halları artır. Astma, xroniki bronxit, xroniki obstruktiv ağciyər xəstəliyi, allergiya və ürək xəstəliyi olan insanlar daha yüksək risk qrupundadır. Uşaqlar, yaşlılar, hamilə qadınlar və immun sistemi zəif olan şəxslər də bu təsirlərdən daha çox zərər görürlər.

Mütəxəssislər qum və toz fırtınalarının pnevmoniya, infarkt, insult, gözlərdə güclü yanma, burun qanaması, boğaz quruluğu və hətta bəzi yoluxucu xəstəliklərin yayılması ilə əlaqəli ola biləcəyini vurğulayırlar. Toz buludları yalnız mineral hissəciklərdən ibarət olmur. Onların tərkibində sənaye tullantıları, ağır metallar, pestisid qalıqları, polen, bakteriyalar və göbələk sporları da daşına bilər. Bu isə problemi daha da mürəkkəbləşdirir.

Qum və toz fırtınaları kənd təsərrüfatına da ciddi zərbə vurur. Toz qatının bitkilərin üzərinə çökməsi fotosintezi zəiflədir, yarpaqları zədələyir və məhsuldarlığı azaldır. Çiçəkləmə və tozlanma dövrlərində baş verən fırtınalar meyvə və tərəvəz istehsalına mənfi təsir göstərir. Torpağın münbit üst qatının sovrulması isə uzunmüddətli məhsuldarlıq itkisinə səbəb olur. Bu da ərzaq təhlükəsizliyi baxımından ciddi risk deməkdir.

Su ehtiyatları da təhlükədən kənarda qalmır. Toz hissəcikləri göllərə, çaylara və su anbarlarına düşərək suyun keyfiyyətini dəyişə, çirklənməni artıra və təmizləmə xərclərini yüksəldə bilər. Qar örtüyünün üzərinə çökən toz isə günəş şüalarını daha çox udduğu üçün ərimənι sürətləndirə bilər. Bu proses bəzi bölgələrdə su rejiminə təsir göstərir.

Nəqliyyat sahəsində də nəticələr ağır olur. Görünüş məsafəsinin azalması səbəbindən avtomobil qəzaları artır, hava limanlarında reyslər gecikir və ya təxirə salınır, dəniz nəqliyyatı çətinləşir. Şəhərlərdə gündəlik həyat iflic ola bilər. Qum hissəcikləri texniki avadanlıqlara zərər verir, filtr sistemlərini sıradan çıxarır və infrastrukturun xidmət xərclərini artırır. Qum və toz fırtınaları nəticəsində bərpaolunan enerji sektorunda da ciddi itkilər yaranır. Günəş panellərinin səthi tozla örtüldükdə onların enerji istehsal gücü əhəmiyyətli dərəcədə azalır. Günəş enerjisinə böyük sərmayə yatıran ölkələr üçün bu məsələ strateji əhəmiyyət daşıyır. Külək turbinləri və digər açıq hava avadanlıqları da abraziv toz hissəciklərindən zərər görə bilər.

Mütəxəssislər bildirirlər ki, atmosferə yayılan qlobal tozun təxminən 25 faizi birbaşa və ya dolayı yolla insan fəaliyyəti ilə əlaqəlidir. Meşələrin qırılması, həddindən artıq otarılma, yanlış suvarma üsulları, torpağın həddindən artıq şumlanması, plansız tikinti və mədən fəaliyyəti torpağın zəifləməsinə səbəb olur. Yəni problemin müəyyən hissəsi insan əli ilə yaradılır və qarşısı da insan fəaliyyəti ilə alına bilər.

Bəs çıxış yolu nədir? İlk növbədə iqlim dəyişikliyi ilə mübarizə gücləndirilməlidir. İstixana qazı emissiyalarının azaldılması, təmiz enerji mənbələrinə keçid və dayanıqlı iqtisadi modelə keçmək uzunmüddətli həll yoludur. Bununla yanaşı, yerli səviyyədə torpaq və su idarəçiliyi də vacibdir. Quraq və yarımquraq ərazilərdə yaşıllaşdırma layihələrinin icrası, küləkqıran meşə zolaqlarının və bitki örtüyünün bərpası effektiv nəticə verə bilər. Torpağın səthini qoruyan bitki örtüyü küləyin torpağı sovurmasının qarşısını alır və toz mənbələrini zəiflədir.

Yağış suyunun toplanması, torpaqda nəmin artırılması, düzgün suvarma sistemləri, eroziyaya qarşı tədbirlər və dayanıqlı əkinçilik üsulları da vacibdir. Torpaq nə qədər nəmli və möhkəm olarsa, küləyin onu havaya qaldırması bir o qədər çətin olar. Şəhər sakinləri üçün erkən xəbərdarlıq sistemləri böyük əhəmiyyət daşıyır. Meteoroloji xidmətlərin gündəlik toz proqnozları əhali üçün əlçatan olmalı, riskli günlərdə məktəblər, xəstəxanalar və həssas qruplar öncədən məlumatlandırılmalıdır. Belə günlərdə insanlar açıq havada uzun müddət qalmamalı, pəncərələri bağlı saxlamalı, havatəmizləyici cihazlardan istifadə etməli və lazım gəldikdə qoruyucu maska taxmalıdırlar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## BEYNƏLXALQ HƏYAT

# Si CİNPİN: "Pekin və Moskva beynəlxalq nizamın qorunması üçün məsuliyyət daşımalıdırlar"

**"Birtərəfliyin və hegemonluğun artdığı və gücün haqlı olduğu "cəngəllik qanununa" qayıtmaq təhlükəsinin artdığı bir dünyada Çin və Rusiya böyük dövlətlər olaraq koordinasiyanı gücləndirməli və beynəlxalq nizamın qorunması üçün məsuliyyət daşımalıdırlar". Çin Xalq Respublikasının Sədri Si Cinpin bu açıqlamanı Pekində danışıqlardan sonra Rusiya Prezidenti Vladimir Putinlə birgə mətbuat konfransında verib.**



Si Cinpin ABŞ Prezidenti Donald Trampın ikinci müddətindəki hərəkətlərini örtülü tənqid edərək birtərəfli tarif artımlarını, suverenlik tələblərini və beynəlxalq vəziyyəti ABŞ maraqlarının xeyrinə yenidən formalaşdırmaq üçün güc tətbiqini qeyd edib. "Birtərəflik və hegemonluq ciddi təhlükə yaradır, beynəlxalq nizamı təhlükəli şəkildə güc və dominantlıq uğrunda "cəngəllik qanunu" tipli mübarizəyə yaxınlaşdırır", - deyə o bildirib.

Çin rəhbəri vurğulayıb ki, bu şəraitdə Pekin və Moskva beynəlxalq koordinasiyanı təşviq etməlidirlər: "Çin və Rusiya böyük dövlətlər olaraq birtərəfli özbaşınalığın və "cəngəllik qanunu"nun hökm sürdüyü bu qarışıq dünyada məsuliyyətlərini daşımalı və BMT-nin nüfuzunu, beynəlxalq bərabərliyi və ədaləti müdafiə etməlidirlər". Çin lideri həmçinin qeyd edib ki, iki ölkə İkinci Dünya müharibəsinin nəticələrini inkar etmək cəhdlərinə, eləcə də faşizm və militarizmi dirçəltmək cəhdlərinə qətiyyətlə qarşı çıxmalıdır.

Si Cinpinin məhz ABŞ və Rusiya liderlərinin Pekinə ardıcıl səfərləri kontekstində bu açıqlamaları etməsi diqqətəlayiqdir. Ekspertlərin fikrincə, son illər Çin və ABŞ arasında artan rəqabət və geosiyasi gərginlik, eləcə də Rusiyanı ABŞ və onun müttəfiqlərinə qarşı qoyan Ukrayna-RF müharibəsi Pekin və Moskvanı bir-birinə daha da yaxınlaşdırıb.

Ukrayna və İranda artan geosiyasi gərginlik və həll olunmamış münaqişələr fonunda ardıcıl səfərlər Pekinin Vaşinqton və Moskva ilə münasibətlərində tarazlığı qorumaq istəyini nümayiş etdirir.

Trampın səfəri zamanı Çin ortamüddətli münaqişələrdən qaçmaq üçün ABŞ ilə "konstruktiv, strateji cəhətdən sabit münasibətlər" formulu təklif edib. Digər tərəfdən, Pekin Rusiya ilə "strateji tərəfdaşlığı" qorumaqla yanaşı, bundan Vaşinqtonla rəqabətində təsir vasitəsi kimi istifadə edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Venesuelada 300 məhbus azadlığa buraxılır

**Venesuela hakimiyyəti yaşlılar, xəstələr və bəzi siyasilər də daxil olmaqla 300 məhbusun azadlığa buraxılacağını elan edib. Bu açıqlama Viktor Uqo Keronun həbsxanada ölümündən sonra yenidən başlayan etirazlar və tənqidlər fonunda səsləndirilib.**




Venesuela Milli Assambleyasının Sədri Xorxe Rodrigez ölkədə 300 məhbusun bu həftə hakimiyyət tərəfindən başladılan yeni məhbus əfv prosesinin bir hissəsi olaraq azadlığa buraxılacağını açıqlayıb. Karakasda keçirilən parlament iclasında Rodrigez azadlığa buraxılacaq şəxslərin 70 yaşdan yuxarı insanlar, sağlamlıq problemləri olanlar, hamilə və uşaqəmizdirən qadınlar və uzun illər dəmir barmaqlıqlar arxasında qalan məhbuslar olduğunu bildirib.

O, bunun qarşılığında hakimiyyətin heç nə ummadığını deyib və bu jesti qiymətləndirməyə çağırıb: "Biz heç kimdən heç nə istəmirik və bu addımla heç bir əvəz-əvəzə nail olmaq niyyətimiz yoxdur. Sadəcə olaraq, bu jesti qiymətləndirməyinizi istəyirik və əgər dövlət vəsaitlərinə qarşı cinayət törətmiş bir müxalifətçi haqqında informasiya əldə etsəniz, bu barədə məlumat verin və biz sizi dəstəkləyəcəyik".

Çaves rejimi illərdir Venesuelada siyasi məhbusların mövcudluğunu inkar etsə də, insan haqları təşkilatları bu prosesdə iştirak edən bəzi məhbusların siyasi səbəblərdən həbs olunduğunu iddia edirlər. "Foro Penal" qeyri-hökumət təşkilatı yanvar ayından bəri azadlığa buraxılmalarına baxmayaraq, Cənubi Amerika ölkəsində siyasi səbəblərdən 450-dən çox insanın hələ də həbsdə olduğunu təxmin edir. Artıq azadlığa buraxılanlar arasında Uqo Çavesə qarşı 2002-ci ildə baş vermiş çevriliş cəhdi ilə bağlı işlərə görə həbsdə olan ləğv edilmiş Karakas Şəhər Polisinin üç keçmiş zabiti də var. Onlar Venesuelada ən uzun müddət həbsdə olan siyasi məhbuslardır və 2003-cü ildən bəri məhbus həyatı yaşayırlar. Noyabr ayından bəri həbsdə saxlanılan 16 yaşlı Samanta Hernandez Kastilyo və 2020-ci ildə Nikolas Maduroya qarşı uğursuz dəniz əməliyyatında iştirak etməkdə ittiham olunan əsgər Antonio Sequeanın anası 71 yaşlı Meris Torres de Sequea da azadlığa buraxılıb.

Bu açıqlama insan haqları təşkilatlarının siyasi məhbus hesab etdiyi Viktor Uqo Keronun həbsdə ölüm xəbərindən sonra Venesuela hakimiyyətinə artan təzyiqlə üst-üstə düşüb. Bu yaxınlarda hakimiyyət orqanları Keronun 2025-ci ilin iyul ayında həbsdə olarkən öldüyünü etiraf ediblər, baxmayaraq ki, ailəsi aylarla onun harada olduğu barədə rəsmi məlumat ala bilmirdi.

Rəsmi versiyaya görə, Kero mədə-bağırsaq problemləri ilə xəstəxanaya yerləşdirildikdən sonra ağciyər emboliyasının yaratdığı "kəskin tənəffüs çatışmazlığı"ndan ölüb. Keronun anası Karmen Navas isə hakimiyyət orqanları oğlunun ölümünü təsdiqlədikdən 10 gün sonra vəfat edib. Bir ildən çoxdur ki, o, həbsxanalara, məhkəmələrə və dövlət qurumlarına baş çəkərək onun sağ olmasının sübutlarını tələb edirdi və itkin düşdüyünü bildirirdi.

Karakasdakı dəfn mərasimi hökumətə qarşı simvolik etiraza çevrilib və məhbusların qohumlarını, fəalları və tələbələri bir araya gətirib. Yeni amnistiya əvvəlki hökumətin məhbusları azad edəcəyinə dair vədlərindən aylar sonra və Karakasa beynəlxalq təzyiqlər fonunda baş verib. ABŞ Prezidenti Donald Tramp isə bu yaxınlarda Venesuelada bütün siyasi məhbuslarının azadlığa buraxılmasını tələb edəcəyini bildirib.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "Körpü-Bina-Tikinti" MMC-nin sədri Xəlil Göyüşova anası

**PƏRİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3816
Sifariş 653

Qiyməti 60 qəpik